# 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 126 (9581) 15 iyun 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Qurtuluş missiyası



**Hər bir xalqın qarşıya qoyduğu milli hədəflərə nail ola bilməsi üçün onun mütəşəkkilliyi, konkret məqsədlər ətrafında bir araya gələ bilməsi mütləq şərtdir. Eyni zamanda bu mütəşəkkilliyi düzgün məcraya yönəltmək, milli potensialı xalqın nailiyyətlərinə çevirməyi bacarmaq da mühüm amildir. Tarixi təcrübə dəfələrlə göstərib ki, böyük nailiyyətlər bunların bir-birini tamamladığı zaman və məkanlarda yaranır.**

Artıq 31 ildir ki, Azərbaycan xalqı olaraq Milli Qurtuluş Günü kimi qeyd etdiyimiz 15 iyun gününün tarixi-fəlsəfi mahiyyəti bu həqiqəti bir daha sübuta yetirir. Bu tarix mənsub olduğu dövlətin varlığında, inkişafında, indiki səviyyəyə yüksəlməsində müstəsna rolu olan böyük şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin ideyaları işığında yaranmışdır. Bu tarix həm də hər bir kəsin həyatında böyük əhəmiyyət kəsb edən milli salnaməmizin ən şərəfli səhifələrindəndir. Azərbaycan dövlətçiliyinin ölüm-dirim mübarizəsinin tarixidir, vətənini, xalqını sevən, çətin günlərin ağrı-acılarını, dəhşətlərini yaşayan, hadisələrə şahidlik edənlər üçün əsl qurtuluş, həyatın dönüş mərhələsidir.

### Sınaqlar qarşısında

Müstəqilliyin ilk illərində ölkədə hökm sürən hakimiyyət böhranı, xaos, anarxiya əhvalı milli dövlətçilik ənənələrinin formalaşdırılmasına ciddi şəkildə mane olmağa başlamışdı. Tez-tez hakimiyyət dəyişiklikləri, siyasi qarşıdurmalar, qanunsuz silahlı dəstələrin mövcudluğu vəziyyəti getdikcə gərginləşdirirdi. Dövlət sükanının xalqın milli maraqlarına zidd siyasət yürüdən və idarəçilikdən baş çıxarmayan qüvvələrin əlində olması ölkəni ağır fəlakətlərə sürükləyirdi. Azərbaycan vətəndaş qarşıdurmasının bir addımlığında idi.

→ 14

# Müstəqillik mübarizəsinin Milli Qurtuluş zirvəsi

Heydər Əliyevin Sovetlər dönəmində siyasi fəaliyyətinin müxtəlif mərhələlərində milli azadlıq çalarlarını daim aydın görmək olar. Məsələn, dahi şəxsiyyətin 1981-ci ildə görkəmli yazıçımız İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesinin premyerası zamanı olan fakta nəzər salaq.

Pyesin premyerasına Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevin gəlməsi, əlbəttə ki, hər kəsin məsuliyyətini daha da artırırdı. Tamaşa uğurla oynanıldı. Xurşidbanu Natəvan (mərhum aktrisa Amaliya Pənahova) son monoloqunu dedi: "Daha mənə xidmətçi lazım deyil, Bəyim. Gedin ləyaqətlə yaşayın. Gedin kəndlilərə deyin ki, onlar daha mənə vergi verməyəcəklər. Daha Xan qızı Natəvanın kəndi, torpağı yoxdur! Deyin ki, mən Xurşidbanu Natəvan bu əzablı yolları onlarla birlikdə gedəcəm. Onu da deyin ki, bu uçurumlu yolların sonunda bizi öz milli birliyini, azadlığını tapmış azad Azərbaycan gözləyir!"

M.Fərzəlibəyov xatırlayır: "Təsəvvür edin, bu sözləri Sovet hökumətinin ən güclü vaxtı müttəfiq respublika olan subyektlərindən birində bu formada deməyin hansı nəticələri verəcəyini hesablamaq çox da çətin məsələ deyildi. Bu monoloqdan sonra bütün salona bir neçə saniyəlik sükut çökdü, hamının gözləri birinci katib Heydər Əliyevə zilləndi. Onun reaksiyası necə olacaq? Yazıçını bundan sonra nə gözləyir? Bu ritorik sualların yaratdığı həyəcan hər kəsin vücuduna sirayət etmişdi ki, sükut pozuldu. Heydər Əliyev əl çalması ilə bütün həyəcana son qoydu. Alqışlardan sonra bütün salon ayağa qalxaraq alqışladı. Sonra isə pərdə arxasında Heydər Əliyev əsərin müəllifi İlyas Əfəndiyevə üzünü tutaraq dedi: "Əhsən, Natəvana qarşı yaranmış şübhələri aradan qaldırdın. Son monoloqun isə çox gözəl idi."

→ 6

# Qurban bayramı dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümüdür

## Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Dünya müsəlmanlarının mənəvi həmrəyliyinin təcəssümü olan Qurban bayramında mömin insanlar Allah və din yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirmək fürsəti qazanır, Uca Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinə və elmi-fəlsəfi fikir xəzinəsinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının dünyagörüşünün təşəkkülündə və milli-mədəni inkişafında islam dini mühüm mərhələ təşkil edir. Ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları ölkəmizdə qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında mütərəqqi islami dəyərlərin rolu danılmazdır.

Dini bayramlar, o cümlədən Qurban mərasimləri cəmiyyətimizdə milli-mənəvi birliyin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir. Bu mübarək bayram günlərində ölkəmizin hər yerində geniş xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Xalqımızın firavanlığı və əmin-amanlığı naminə etdiyiniz duaların və kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

# Prezident İlham Əliyev 15 İyun - Milli Qurtuluş Günü münasibətilə paylaşım edib




# Müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev ideyalarının təntənəsidir

İllər keçdikcə Ulu Öndər Heydər Əliyevin o dövrdə göstərdiyi fədakarlığı və qəhrəmanlığı daha da yaxşı anlayırıq. Ölkədə faktiki olaraq qardaş qırğını başlamışdı, erməni işğalı, separatçılıq meyilləri dövlətin varlığını təhlükə altına almışdı.

Yalnız xalqın təkidli tələbi ilə Heydər Əliyevin siyasi və dövlət rəhbərliyinə qayıtması Azərbaycanın parçalanması və məhv olması fəlakətinin qarşısını aldı. Ulu Öndər siyasi iradəsi, qətiyyəti, zamanın çağırışlarına yaradıcı münasibət bildirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti sayəsində Azərbaycan dövlətini qoruyub saxladı, möhkəmləndirdi və davamlı inkişaf yoluna çıxardı, onun geosiyasi əhəmiyyətini artırdı, ölkəmizi qlobal əhəmiyyətli iqtisadi layihələrin mərkəzinə çevirdi.

Ulu Öndərin 30 ildən artıq bir dövrdə Azərbaycanın rəhbəri kimi fəaliyyətinin təhlili göstərir ki, müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev dühasının məhsuludur.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu olduğu kimi, bugünkü Azərbaycan parlamentinin də banisidir. Bizim üçün qürurverici bir haldır ki, Ümummilli Liderin böyük siyasətə qayıdışı məhz bu binadan başlamışdır. Ulu Öndərin qurtuluş və quruculuq missiyası bu gün eyni əzm və iradə ilə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasət Azərbaycanı geniş bir bölgədə söz sahibi olan, dünyada səsi eşidilən qüdrətli bir dövlətə çevirib.

→ 3

## "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

## "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qırğız Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qırğız Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

## "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında Qırğız Respublikasında dövlət xidmətləri mərkəzlərinin təkmilləşdirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında Qırğız Respublikasında dövlət xidmətləri mərkəzlərinin təkmilləşdirilməsinə dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

## "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında gömrük idarəetməsinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında gömrük idarəetməsinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 40-1 - 40-3-cü hissələr əlavə edilsin:

"40-1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu"

40-2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Regional Su Meliorasiya Xidməti"

40-3. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi";

1.2. 47-ci hissənin sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda 48-ci hissə əlavə edilsin:

"48. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti.".

2. Bu Fərman 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

## "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin statistikasına dair məlumatların mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin statistikasına dair məlumatların mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

## "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il mayın 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Slovakiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyun 2024-cü il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin milli bayramı münasibətilə Zati-alinizi İraq xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən fərəh duyur, Sizə müvəffəqiyyətlər, dost Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə əlaqələri möhkəmləndirməkdə maraqlı olduğumuzu təsdiq edirəm.

*Dərin hörmətlə,*

***Əbdüllətif Camal RƏŞİD,***
***İraq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə Ekvador hökuməti, xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf duyuram.

Fürsətdən istifadə edərək, hökumətimin qarşılıqlı faydalı mövzular üzrə əməkdaşlıq layihələrinin həyata keçirilməsi yolu ilə ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində fəaliyyətinin davam etdirilməsi istəyini Sizə çatdırıram.

Zati-aliləri, Sizə bir daha ən yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Daniel Noboa AZİN,***
***Ekvador Respublikasının Konstitusional Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Müstəqilliyinizin 106-cı ildönümü münasibətilə Sizi, Azərbaycan hökumətini və xalqını təbrik edirəm.

Qayana Azərbaycanın kənd təsərrüfatını həyati vacib sektor kimi prioritetləşdirmək və iqtisadiyyatını daha da gücləndirmək üçün kənd təsərrüfatının modernləşdirilməsi istiqamətindəki təşəbbüslərini və sahəvi siyasətini izləyir və alqışlayır. Qayana da məşğulluğu və ərzaq təhlükəsizliyi perspektivlərini artırmaq üçün iqtisadi tərəqqinin əsas mühərriki kimi bu mühüm sektoru inkişaf etdirməyə sadiqdir.

Ölkələrimiz səmimi münasibətlərə malikdir. Hərtərəfli qarşılıqlı faydamız üçün ümumi maraq dairələri vasitəsilə bu əlaqələrin dərinləşdirilməsinə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı və davamlı rifahınız üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd İrfan ƏLİ,***
***Qayana Kooperativ Respublikasının Prezidenti***

# Şuşada keçiriləcək beynəlxalq konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər





**Yeni Azərbycan Partiyasının təşkilatçılığı ilə iyunun 15-də Şuşa şəhərində "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda keçiriləcək beynəlxalq konfransın iştirakçıları iyunun 14-də Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, gül dəstələri düzüblər.**





Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra konfrans iştirakçıları Şəhidlər xiyabanını ziyarət ediblər. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Daha sonra "Türk şəhidliyi" abidəsi ziyarət edilib. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini, sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman və fədakar türk qardaşlarımızın xatirəsi anılıb, abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.

Milli Məclisin iclasında

# Müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev ideyalarının təntənəsidir

**İyunun 14-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. İclasda əvvəlcə cari məsələlər müzakirə olunub. Müzakirələrdə komitə sədri Zahid Oruc, deputatlar Elman Nəsirov, Etibar Əliyev, Azər Badamov, Tural Gəncəliyev, Elşad Mirbəşiroğlu, Ceyhun Məmmədov, Naqif Həmzəyev, Vüqar Bayramov, Fəzail Ağamalı, Bəhruz Məhərrəmov çıxış ediblər.**



Çıxışlarda Milli Qurtuluş Günü ilə bağlı danışan deputatlar bildiriblər ki, ölkə həyatının ağır dövründə Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıdaraq xalqımızı baş verə biləcək faciələrdən xilas etdi. Bu baxımdan Heydər Əliyev müasir, müstəqil Azərbaycanın memarı və qurucusu olaraq hər zaman xatirələrdə yaşayacaq. Qeyd olunub ki, Ümummilli Lider hakimiyyətə qayıdaraq Azərbaycan xalqının həmrəyliyini, ölkədə ictimai-siyasi sabitliyi təmin etdi, iqtisadi və sosial islahatların həyata keçirilməsi, milli ordu quruculuğu sahələrində mühüm addımlar atıldı, beynəlxalq münasibətlər sistemində dövlətimizin mövqeyi möhkəmləndi.

Deputatlar bildiriblər ki, Heydər Əliyevin ölkənin inkişafı ilə bağlı o zaman müəyyənləşdirdiyi siyasət bugünkü nailiyyətlərimizi şərtləndirdi. Vətən müharibəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz Zəfərimizin təməli də məhz həmin dövrdə qoyuldu. Bu gün Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilib. Azərbaycan regionun lider dövlətinə çevrilib. Millət vəkilləri son dövrlərdə ölkəmizin qazandığı bütün uğurları Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyasının məntiqi nəticəsi kimi dəyərləndiriblər.

Müzakirələrdə həmçinin seçiciləri narahat edən bəzi məsələlərdən bəhs edilib və digər aktual mövzularda fikirlər səsləndirilib.

Cari məsələlərin müzakirəsinə yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, iclas Azərbaycan tarixində taleyüklü əhəmiyyət daşıyan bir hadisənin ildönümü ərəfəsində keçirilir. İyunun 15-də xalqımız Milli Qurtuluş bayramını dərin ehtiramla qeyd edəcək.

Milli Məclisin Sədri qeyd edib ki, illər keçdikcə Ulu Öndər Heydər Əliyevin o dövrdə göstərdiyi fədakarlığı və qəhrəmanlığı daha da yaxşı anlayırıq. Ölkədə faktiki olaraq qardaş qırğını başlamışdı, erməni işğalı, separatçılıq meyilləri dövlətin varlığını təhlükə altına almışdı.

Yalnız xalqın təkidli tələbi ilə Heydər Əliyevin siyasi və dövlət rəhbərliyinə qayıtması Azərbaycanın parçalanması və məhv olması fəlakətinin qarşısını aldı. Ulu Öndər siyasi iradəsi, qətiyyəti, zamanın çağırışlarına yaradıcı münasibət bildirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti sayəsində Azərbaycan dövlətini qoruyub saxladı, möhkəmləndirdi və davamlı inkişaf yoluna çıxardı, onun geosiyasi əhəmiyyətini artırdı, ölkəmizi qlobal əhəmiyyətli iqtisadi layihələrin mərkəzinə çevirdi.

Ulu Öndərin 30 ildən artıq bir dövrdə Azərbaycanın rəhbəri kimi fəaliyyətinin təhlili göstərir ki, müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyev dühasının məhsuludur.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu olduğu kimi, bugünkü Azərbaycan parlamentinin də banisidir. Bizim üçün qürurverici bir haldır ki, Ümummilli Liderin böyük siyasətə qayıdışı məhz bu binadan başlamışdır.

Spiker qeyd edib ki, Ulu Öndərin qurtuluş və quruculuq missiyası bu gün eyni əzm və iradə ilə davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasət Azərbaycanı geniş bir bölgədə söz sahibi olan, dünyada səsi eşidilən qüdrətli bir dövlətə çevirib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, yaradılmış böyük siyasi, iqtisadi, hərbi potensial Ümummilli Liderimizin ən mühüm vəsiyyətini şərəflə yerinə yetirməyə imkan verdi - Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və 1 günlük antiterror tədbirlərində əldə edilən möhtəşəm qələbələr sayəsində dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa olundu, tarixi ədalət öz yerini tutdu.

Bu gün Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Əminliklə söyləmək olar ki, dövlət başçısı İlham Əliyevin müstəsna liderlik keyfiyyətləri, siyasi məharəti və səriştəsi qarşıya qoyulan vəzifələri bundan sonra da uğurla yerinə yetirməyə imkan yaradacaq. Azərbaycan dövləti daim var olacaq, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "əbədiyyətə qədər yaşayacaqdır".

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bir neçə gündən sonra xalqımız insanları mərhəmətə və həmrəyliyə dəvət edən müqəddəs Qurban bayramını da qeyd edəcək. Spiker təklif edib ki, Milli Qurtuluş Günü və Qurban bayramı münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Milli Məclisin Sədri çıxışının sonunda bayramlar münasibəti ilə hər kəsə təbriklərini çatdırıb.

Sonra spiker Sahibə Qafarova gündəliyə 11 məsələnin daxil edildiyini söyləyib. O, ilk dörd məsələnin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri ilə bağlı olduğunu və bu məsələlərin müzakirəsi ilə əlaqədar hökumət üzvlərinin iclasda iştirak etdiyini deyib. Spiker gündəliyin birinci məsələsinin "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi olduğunu, sənədin üçüncü oxunuşda müzakirəyə təqdim edildiyini diqqətə çatdırıb.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə məlumat verib. O bildirib ki, 2023-cü ilin dövlət büdcəsinin gəlirləri 33 milyard 890,5 milyon manat proqnoza qarşı 35 milyard 236,4 milyon manat təşkil edib. Dövlət büdcəsində təsdiq olunmuş 36 milyard 624,8 milyon manat xərcin 99,5 faizi icra olunub. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ilin dövlət büdcəsindən 5 milyard 881,6 milyon manat vəsait yönəldilib. Sosialyönümlü xərclər ötən ilin dövlət büdcəsinin icrasında xərclərin 35,8 faizi və ya 13 milyard 50 milyon manat həcmində olub. Ölkənin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması üçün xərclərin 19,9 faiz həcmində və ya 7 milyard 246,9 milyon manat vəsait yönəldilib. 2023-cü ilin dövlət büdcəsi kəsirinin yuxarı həddi 2 milyard 734 milyon manat məbləğində təsdiq olunsa da, faktiki kəsir 1 milyard 221,5 milyon manat təşkil etmişdir və bu ÜDM-in 1 faizi həcmindədir. Qeyd edilib ki, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi 22,5 faiz və ya hədəf göstəricisindən 2,5 faiz az, dövlət borcunun ÜDM-ə nisbəti isə 21,8 faiz və ya hədəf göstəricidən 8,2 faiz az olub.

Tahir Mirkişili 2023-cü ilin dövlət büdcəsinin icrasının Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf kursunun ardıcıl şəkildə həyata keçirilməsi, strateji dövlət vəzifələrinin yerinə yetirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizlik məsələlərinin həlli, işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması və iqtisadiyyatın stimullaşdırılması ilə bağlı qarşıya qoyulan hədəflərə nail olmaq üçün lazımi maliyyə təminatını yaratdığını söyləyib.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova bildirib ki, gündəliyin digər 10 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. O xatırladıb ki, növbəti üç məsələ cari ilin dövlət büdcəsində və büdcə zərfinə daxil olan digər iki sənəddə dəyişiklik edilməsi barədə ölkə Prezidentinin Milli Məclisə təqdim etdiyi qanun layihələridir. Sədr ikinci məsələnin "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu qeyd edib.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu qanun layihəsi ilə bağlı məlumatı təqdim edib. Komitə sədri diqqətə çatdırıb ki, 2024-cü ilin dövlət büdcəsinə ediləcək dəyişikliklərə əsasən, gəlirlərin 2 milyard 180 milyon manat artırılaraq 36 milyard 353 milyon manata, xərclərin 2 milyard 944,3 milyon manat artırılaraq 39 milyard 707,3 milyon manata çatdırılması, dövlət büdcəsinin kəsirinin isə 764,3 milyon manat genişləndirilərək 3 milyard 354,3 milyon manat olacağı təklif edilir. Artırılan gəlirlərin 51,1 faizinin qeyri-neft, 48,9 faizinin isə neft gəlirləri hesabına formalaşması təklif olunur. Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların 1 milyard 405 milyon manat artırılaraq 15 milyard 270 milyon manata, Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların 500 milyon manat artırılaraq 6 milyard 400 milyon manata çatdırılması nəzərdə tutulur. Qeyd olunub ki, mövcud daxilolma mənbələrindən əlavə olaraq dövlət büdcəsinə Mərkəzi Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığından 250 milyon manat, "Nəqliyyat vasitələrinin utilizasiyası Fondu"na isə 25 milyon manat səviyyəsində daxilolma proqnozlaşdırılır. Təsdiq olunmuş dövlət büdcəsində mövcud olan xərclər arasında aparılması planlaşdırılan optimallaşmanın həcmi isə 851,8 milyon manat təşkil edəcək.

Bildirilib ki, dövlət büdcəsində gəlirlərin artırılması, xərclər arasında aparılan optimallaşma və kəsirin genişlənməsi hesabına yaranan əlavə vəsaitlərin bir sıra istiqamətlərə yönəldilməsi təklif olunur. Bunlardan işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi üçün tədbirlərin maliyyələşdirilməsinə əlavə 1 milyard 160,3 milyon manat, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılmasına əlavə 807 milyon manat, avtomobil yolları, su təchizatı, elektrik enerjisi və digər sahələr üzrə infrastruktur layihələrinin həyata keçirilməsi üçün əlavə 1 milyard 184 milyon manat, Osaka Dünya Ekspo sərgisində iştirak, beynəlxalq münasibətlər və beynəlxalq fəaliyyət üzrə xərclər, nəqliyyat vasitələrinin utilizasiyası fondunun xərcləri və digər zəruri xərclər üzrə əlavə 498,8 milyon manat, əsaslı təmir, yenidənqurma və digər əsaslı xərclər üçün 146 milyon manat vəsaitin sərf olunması planlaşdırılır.

Diqqətə çatdırılıb ki, 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılma zamanı təsdiq olunmuş məlumatlarda ÜDM-in ilkin təqdim edilmiş 118,3 milyard manatdan 121,3 milyard manata artırılması, iqtisadi artım tempinin ilkin təsdiq edilmiş 2,4 faizdən 3,8 faizə yüksəlməsi, qeyri-neft-qaz sektorunda real artım proqnozunun 4,6 faizdən 5,5 faizə qədər, neft-qaz sektorunda real artım proqnozunun isə -1,7 faizdən +0,8 faizə dəyişdirilməsi təklif olunur. Yenidən baxılan büdcə zərfində neftin 1 barelinin orta illik qiyməti təsdiq olunmuş layihədə nəzərdə tutulan qiymətdən 15 ABŞ dolları artırılaraq 75 ABŞ dolları səviyyəsində həyata keçirilmişdir.

Qeyd olunub ki, yenidən baxılmış 2024-cü ilin icmal büdcəsinin gəlirləri 43 milyard 480 milyon manat, xərcləri 45 milyard 591,8 milyon manat proqnozlaşdırılır. İcmal büdcə 2 milyard 111,8 milyon manat kəsirlə proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş kəsirə nisbətən 1 milyard 267 milyon manat azdır.

Sonra iclasda Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib. Komitə sədri hər iki layihə barədə birinci oxunuş zamanı ətraflı məlumat verildiyini, komitəyə hər hansı irad və təkliflərin daxil olmadığını deyib.

Təqdim edilmiş sənədlərə əsasən, Dövlət Sosial Müdafiə Fondunun xərcləri 30,0 milyon manat artırılaraq 6949,9 milyon manata çatdırılır. Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin (transfert) məbləği 160,0 milyon manat azaldılaraq 1232,0 milyon manat təşkil edəcəkdir. Layihədə işsizlikdən sığorta haqları üzrə daxilolmaların 4 700 000,00 manat artırılaraq 179 976 800,0 manatdan 184 676 800,0 manata çatdırılması təklif olunur.

Musa Quliyev çıxışında sosial müdafiə və sosial təminat xərclərinin azaldılması barədə həqiqətə uyğun olmayan məlumatların yayıldığını qeyd edib. O, bunun əksinə olaraq, Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin artımla proqnozlaşdırıldığını və gəlirlərin strukturunda dəyişikliklərin nəzərdə tutulduğunu bildirib. Komitə sədri ölkədə aparılan iqtisadi islahatlar, uğurlu sosial-iqtisadi siyasət nəticəsində əməkhaqlarının artım tempinin yüksəldiyini, gəlirlərin artdığını, şəffaflaşma prosesinin davam etdiyini, Dövlət Sosial Müdafiə Fondunun imkanlarının genişləndirilməsi üçün şəraitin yaradıldığını diqqətə çatdırıb.

Milli Məclisin Sədri Sahibə Qafarova komitə sədrinin qeyd etdiyi məsələlərlə bağlı mediada, o cümlədən televiziyalarda lazımi açıqlamaların verilməsini, "dəyirmi masa"nın təşkil edilməsini təklif edib. Musa Quliyev spikerin tövsiyələrinin nəzərə alınacağını və komitə üzvlərinin bu istiqamətdə fəallıq göstərəcəyini bildirib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu iki məsələ barədə onun rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini deyib.

Plenar iclasda cari ilin dövlət büdcəsində, Dövlət Sosial Müdafiə və İşsizlikdən Sığorta fondlarının büdcələrində dəyişikliklərlə bağlı sənədlər ətrafında müzakirələr aparılıb. Komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Razi Nurullayev, Vüqar Bayramov, Aydın Hüseynov, Bəhruz Məhərrəmov, Tahir Kərimli, Fəzail Ağamalı, Sabir Rüstəmxanlı çıxış edərək fikirlərini, qeyd və təkliflərini söyləyiblər.

İclasda iştirak edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev səsləndirilən fikirlərə münasibət bildirib. Nazir ölkədə həyata keçirilən sosial islahatlar çərçivəsində minimum əməkhaqqının, pensiyaların, sosial müavinətlərin, habelə şəhid ailələrinə, müharibə əlillərinə təqaüdlərin artırıldığını nəzərə çatdırıb. Nazir əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət tərəfindən hər zaman ardıcıl və məqsədyönlü tədbirlərin görüldüyünü qeyd edib.

Sonra hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Gündəliyin 5-ci məsələsi olan Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verən Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bildirib ki, sənəd qanunsuz miqrasiyanın qarşısını almaq və bu sahədə həyata keçirilən tədbirlərin effektivliyini artırmaq məqsədilə hazırlanıb. Komitə sədri layihənin birinci oxunuşunda millət vəkillərinin səsləndirdiyi bəzi məsələlərə aydınlıq gətirib.

Müzakirədə komitə sədri Siyavuş Novruzovun fikirləri dinlənildikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Növbəti məsələ - Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə məlumat verib. O bildirib ki, qanun layihəsinə təklif olunan dəyişikliklər qanunvericilikdə nəzərdə tutulan səlahiyyətlərin publik hüquqi şəxs statuslu qurumlar tərəfindən də həyata keçirilməsinə imkan yaratmaq məqsədilə hazırlanıb.

Layihə ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini komitə üzvü Kamal Cəfərov səsləndirəndən sonra sənəd səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev "Mühasibat uçotu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) nəzərə çatdırıb. O bildirib ki, qanun layihəsi barədə birinci oxunuşda ətraflı məlumat verilib və sənədlə bağlı deputatlardan heç bir irad və təklif daxil olmayıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Gündəliyin 8-ci məsələsi olan Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumatı Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova təqdim edib. O, layihənin birinci oxunuşunda səslənən bəzi məsələlərə aydınlıq gətirib və bildirib ki, qanun layihəsi ilə bağlı əlavə rəy və təklif verilməyib.

Dəyişikliklərlə bağlı komitə sədrləri Fazil Mustafa, Siyavuş Novruzov, deputatlar Ceyhun Məmmədov və Bəhruz Məhərrəmov çıxış ediblər, qeydlərini səsləndiriblər.

Komitə sədri Hicran Hüseynovanın qaldırılan məsələlərə münasibəti dinlənildikdən sonra layihə ikinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov gündəliyin 9-cu məsələsi olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verərkən bildirib ki, qanun layihəsi ilə bağlı əlavə rəy və təklif verilməyib.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O bildirib ki, təklif olunan layihə müdafiə sənayesi sahəsində sahibkarlıq subyektlərinin liberallaşması, onlara xüsusi icazələrin verilməsi ilə bağlıdır.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məsələ barədə bu komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonuncu məsələ - "Auditor xidməti haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov məlumat verib. Bildirilib ki, layihə audit zamanı əldə edilən məlumatların məxfiliyinin təmini məqsədilə hazırlanıb və qanun layihəsi ilə bağlı əlavə rəy və təklif verilməyib.

Bu qanun layihəsi də ikinci oxunuşda qəbul olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 299** **QƏRAR** **Bakı şəhəri, 13 iyun 2024-cü il**

## "Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 5, maddə 250 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 300** **QƏRAR** **Bakı şəhəri, 13 iyun 2024-cü il**

## "Dövlət və bələdiyyə tərəfindən yaradılan ümumi təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət və bələdiyyə tərəfindən yaradılan ümumi təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Ümumtəhsil internat məktəblərinin nümunəvi əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 may tarixli 176 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 12 nömrəli və 8 fevral tarixli 77 nömrəli qərarları) ləğv edilsin.

3. "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 1, maddə 58 (Cild I) ləğv edilsin.

4. Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları:

4.1. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələrinin yeni nizamnamələrini iki ay müddətində təsdiq etsinlər;

4.2. bu Qərarın 4.1-ci bəndində nəzərdə tutulmuş nizamnamələr təsdiq edildikdən sonra tabeliklərində olan ümumi təhsil müəssisələri tərəfindən "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətlərin beş gün müddətində həyata keçirilməsini təmin etsinlər;

4.3. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədə sonradan ediləcək dəyişikliklərdən irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələrinin nizamnamələrində dəyişiklikləri bir ay müddətində təsdiq etsinlər və bundan irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələri tərəfindən "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətlərin beş gün müddətində həyata keçirilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin tabeliyində olan ümumi təhsil müəssisələrinin nizamnamələrini bu Qərarın 6.1-ci bəndində nəzərdə tutulmuş təklif təqdim edildiyi gündən iki ay müddətində təsdiq etsin.

6. Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər:

6.1. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədən irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələrinin nizamnamələrinin təsdiq edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim etsinlər;

6.2. bu Qərarın 6.1-ci bəndində nəzərdə tutulmuş nizamnamələr təsdiq edildikdən sonra tabeliklərində olan ümumi təhsil müəssisələri tərəfindən "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətlərin beş gün müddətində həyata keçirilməsini təmin etsinlər;

6.3. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Nümunəvi Nizamnamədə sonradan ediləcək dəyişikliklərdən irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələrinin nizamnamələrində dəyişikliklərin təsdiq edilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim etsinlər və nizamnamələr təsdiq olunduqdan sonra bundan irəli gələrək tabeliklərində olan ümumi təhsil müəssisələri tərəfindən "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri hərəkətlərin beş gün müddətində həyata keçirilməsini təmin etsinlər.

7. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 301** **QƏRAR** **Bakı şəhəri, 13 iyun 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 549 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"na aşağıdakı məzmunda 15-ci hissə əlavə edilsin:

"15. İnternat tipli ümumi təhsil müəssisələrinin şagirdlərinin dövlət təminatları və onların xüsusi hallarda təhsil müəssisələrində saxlanılma şərtləri

15.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları"na uyğun olaraq xüsusi ümumtəhsil məktəblərində və internat tipli ümumi təhsil müəssisələrində şagirdlər tam və ya qismən (yataqxana və qida ilə təminat) dövlət təminatında saxlanılırlar və onlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normativlər və qaydalar üzrə qida, paltar, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventar, dərslik, tədris ləvazimatları və digər zəruri avadanlıqlarla təmin olunurlar.

15.2. İnternat tipli ümumi təhsil müəssisələrini bitirən şagirdlərə istifadələrində olan paltar və ayaqqabını özləri ilə aparmalarına icazə verilir. İnternat tipli ümumi təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarına qanunvericilikdə nəzərdə tutulmuş qaydada mövsümi paltar və ayaqqabıdan əlavə, yataq ləvazimatı və müəyyən edilmiş məbləğdə birdəfəlik pul vəsaiti verilir.

15.3. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlar peşə, orta ixtisas və digər təhsil müəssisələrinə daxil olduqdan sonra "Məzun evi" Sosial Müəssisəsinin balansında olan binada yaşayış sahəsi ayrılanadək, qida ilə təmin edilməklə ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərində qala bilərlər.

15.4. Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin məzunları istehsalatda işləməyə gedərkən istehsalat təlimi dövründə 6 (altı) ay, xroniki xəstəlikləri olanlar isə yaşayış sahəsi olmadıqda 1 (bir) il müddətinə həmin məktəbdə saxlanıla bilərlər. Yaşayış sahəsi olmayan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunların yetkinlik yaşına çatana qədər bu məktəblərdə qalmasına icazə verilir.

15.5. Yay tətili müddətində bu və ya digər səbəblərlə əlaqədar evə aparılmayan uşaqlar üçün həmin müəssisələrdə yay-istirahət düşərgəsi təşkil olunur. Uşaqların yay istirahətinin təşkilində yerli icra hakimiyyətləri, ərazi üzrə dövlət təhsil və tibb müəssisələri tərəfindən internat tipli ümumi təhsil müəssisələrinin rəhbərliyinə müvafiq kömək göstərilir.

15.6. Yay tətili ilə yanaşı, dərs ili ərzində olan bayram və digər tətil günlərində də şagirdlər valideynin (yaxud digər qanuni nümayəndənin) ərizəsinə əsasən evə gedə bilərlər. Başqa şəhər və rayonlara uşaqların valideynin (yaxud digər qanuni nümayəndənin) müşayiəti olmadan yola salınmasına icazə verilmir.

15.7. İnternat tipli ümumi təhsil müəssisələrinin şagirdləri həmin müəssisələrin yataqxanasında qalırlar. Uşaqların ailədə yaşamaq hüququnun təmin olunması məqsədilə (yaşadığı ev yaxındadırsa, şəraitlə əlaqədar uşağın valideynin yanında qalması mümkündürsə, səhhəti ilə bağlı gecələr valideyn nəzarətinə ehtiyacı varsa və s.) valideynin ərizəsinə əsasən müəssisənin bəzi şagirdlərinə dərslər bitdikdən və ya axşam yeməyindən sonra öz evlərində gecələmələrinə icazə verilir. I-VI sinif şagirdlərinə valideynin və ya digər qanuni nümayəndənin nəzarəti olmadan müstəqil surətdə evə gedib-gəlməsinə icazə verilmir.

15.8. İnternat tipli sanator ümumi təhsil müəssisələrində təlim-tərbiyə işləri ilə yanaşı, müalicə-sağlamlıq tədbirləri də həyata keçirilir.

15.9. İnternat tipli sanator ümumtəhsil məktəblərinə qəbul edilmiş şagirdlər müalicə başa çatdıqdan sonra əvvəllər oxuduqları ümumi təhsil müəssisəsinə qayıdırlar. Burada onlar internat tipli sanator ümumtəhsil məktəblərinin verdiyi sənədlərə əsasən əlavə yoxlama aparılmadan müvafiq sinfə qəbul edilirlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 302** **QƏRAR** **Bakı şəhəri, 13 iyun 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 20 noyabr tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ərzaq payı ilə təmin olunan gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında"Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 14 mart tarixli 21 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 20 noyabr tarixli 183 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 11, maddə 685 (Cild I) ilə təsdiq edilmiş "Ərzaq payı ilə təmin olunan gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısı"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. aparatın rəhbəri;".

2. Aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. katibliyin rəisi;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Müdafiə naziri Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təbrikdə deyilir: "Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan müsəlman dünyasının mənəvi birlik, həmrəylik, qardaşlıq rəmzinə çevrilən müqəddəs Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığı özündə yaşatmaqla humanizmin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsini özündə təcəssüm etdirir. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızın iqtisadi dayaqları daha da güclənərək, demokratik dövlət quruculuğu prosesində beynəlxalq nüfuzu artmaqdadır.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində hərbi qulluqçuların xidməti şəraitinin daha da yaxşılaşdırılması, sosial infrastrukturun gücləndirilməsi istiqamətində orduda genişmiqyaslı islahatlar aparılır.

Respublikamızın müdafiə qüdrətinin artırılmasında qazanılan böyük nailiyyətlər, düşmən təxribatlarına qarşı aparılan uğurlu irimiqyaslı əks-hücum əməliyyatı şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirərək 2020-ci il Azərbaycan Ordusunun tarixinə Zəfər ili kimi yazıldı.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq Qələbə və həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində düşmən işğalında qalmış tarixi torpaqlarımız azad olundu. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi. Ötən il Xankəndi şəhərində keçirilən 8 Noyabr - Zəfər Gününün üçüncü ildönümünə həsr olunmuş Zəfər Paradı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun yenilməzliyini bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev Xankəndi şəhərində Zəfər meydanı adlandırdığı meydanda Novruz tonqalını alovlandırmaqla Xalq, Ordu, Dövlət birliyinin təcəssümünü və Böyük Qələbəsini təsdiqlədi. Bu gün işğaldan azad olunmuş ərazilərdə rəşadətli Azərbaycan Ordusu öz mövqelərini daha da möhkəmləndirməklə, bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə Böyük qayıdışa layiqli töhfələrini verir.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığınızı daha da artıraraq Ali Baş Komandanın əmr və tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirəcəksiniz.

Respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı canlarından keçən şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla anır, valideynlərini, ailələrini, torpaqlarımızın azadlığı uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Sizi müqəddəs Qurban bayramı münasibətilə bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ailə səadəti və şərəfli xidmətinizdə nailiyyətlər arzulayıram. Bu bayram həyatınıza əmin-amanlıq, firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət gətirsin".

# "İqlim dəyişikliyi kontekstində insan hüquqlarının müdafiəsi üçün qlobal strategiyaların həyata keçirilməsinə ehtiyac var"

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva "Ətraf mühitlə bağlı çətinliklər: dəyişən dünyada insan hüquqlarının gələcəyi, dayanıqlı həll yolları üçün axtarış" mövzusunda keçirilən İnsan Hüquqları üzrə IV Səmərqənd Forumuna onlayn qaydada qoşularaq məruzə ilə çıxış edib.**



Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, müvəkkil çıxışında hazırda dünyada mövcud olan qlobal iqlim problemlərinin insan hüquqlarının gələcəyi ilə bağlı bir sıra narahatlıqlara əsas yaratdığını bildirib. S.Əliyeva iqlim dəyişikliyi kontekstində insan hüquqlarının müdafiəsi üçün qlobal strategiyaların həyata keçirilməsinə, habelə əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə ehtiyac olduğunu vurğulayıb.

Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu bildirən ombudsman bu il ölkəmizin BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi edəcəyini də forum iştirakçılarının diqqətinə çatdırıb. Bununla yanaşı, ölkəmizdə ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə ilə bağlı mühüm səylər göstərildiyi, o cümlədən dövlət proqramları, fəaliyyət planları və strategiyaların qəbul edilərək həyata keçirildiyi vurğulanıb.

S.Əliyeva həmçinin silahlı münaqişələrin ətraf mühitin çirklənməsində əsas amillərdən biri olması məsələsinə diqqət çəkib. Ölkəmizin uzun illər işğaldan əziyyət çəkdiyini qeyd edən müvəkkil azad olunmuş ərazilərimizə səfərləri zamanı biomüxtəlifliyə, su mənbələrinə, flora və faunaya ciddi zərər vurulduğuna dair faktların aşkarlandığını bildirib.

Bundan başqa, ombudsman işğal dövründə Ermənistan tərəfindən torpaqlarımızda basdırılmış yüz minlərlə partlamamış minanın və hərbi sursatın hazırda keçmiş məcburi köçkünlərin həmin ərazilərə qayıdışını ləngitdiyini, insanların həyat və sağlamlığına ciddi təhdid törətdiyini diqqətə çatdırıb. O, həmçinin İkinci Qarabağ müharibəsinin başa çatdığı dövrdən etibarən əksəriyyəti mülki şəxslər olmaqla 361 vətəndaşımızın mina qurbanına çevrildiyini, dağıdılmış infrastrukturun, eləcə də ekosistemin bərpasının uzun müddət və böyük maliyyə resursları tələb etdiyini söyləyib.

Eyni zamanda ombudsman müharibə və postmüharibə dövrlərində həyata keçirdiyi faktaraşdırıcı missiyaların nəticələri əsasında hazırlanmış xüsusi hesabat, bəyanat və müraciətlərin müvafiq beynəlxalq təşkilatlara, xarici ölkələrin milli insan hüquqları institutlarına və ombudsmanlarına ünvanlandığını bildirib.

Yekunda S.Əliyeva ekoloji hüquqların müdafiəsi və təşviqi üçün yeni yanaşmaların, birgə əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

# Azərbaycan Ordusunun Naxçıvan istiqamətində yerləşən mövqeləri növbəti dəfə atəşə tutulub

İyunun 14-ü saat 13:55-də Ermənistan silahlı qüvvələrinin bölmələri Böyük Vedi rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Azərbaycan ilə Serbiya arasında birgə hərbi əməkdaşlıq inkişaf edir

**İyunun 14-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun dəvəti ilə Serbiyanın müdafiə naziri Bratislav Qaşiçin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, serbiyalı nümayəndələr əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, Şəhidlər xiyabanında isə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin məzarlarını ziyarət edərək gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi təşkil edilib. Hər iki ölkənin müdafiə nazirləri fəxri qarovul dəstəsinin önündən keçib. Azərbaycan və Serbiya respublikalarının Dövlət himnləri səsləndirilib. B.Qaşiç protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

General-polkovnik Z.Həsənov qonaqları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Azərbaycan ilə Serbiya arasında strateji tərəfdaşlıq zəminində qurulan əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb. Nazir birgə hərbi əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra müdafiə naziri regiondakı vəziyyətə toxunaraq qeyd edib ki, Vətən müharibəsi və antiterror tədbirlərindən sonra Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan ərazisindən tamamilə çıxarılıb.

General-polkovnik Z.Həsənov nazir B.Qaşiçi 2024-cü ilin sentyabrında Bakıda keçiriləcək "ADEX" 5-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə dəvət edib.

B.Qaşiç isə öz növbəsində ölkəmizə rəsmi səfərindən məmnunluq ifadə edib. Serbiyanın müdafiə naziri Vətən müharibəsində qazanılmış Qələbə münasibətilə azərbaycanlı həmkarını təbrik edib. Azərbaycan ilə Serbiya arasında bütün sahələrdə əməkdaşlığa hazır olduqlarını xüsusi vurğulayıb.

Görüşdə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb, regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

# Mikayıl Cabbarov üçüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov üçüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Fərid İsayev və Əsəd Qurbanzadə ilə Mentorluq proqramı çərçivəsində növbəti görüş keçirib.**



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə proqram çərçivəsində görülmüş işlər, gənclərin fərdi inkişaf sahəsində qazandıqları yeni biliklər, onların idarəçilik səriştələrinin artırılması və gələcək planları barədə fikir mübadiləsi aparılıb. İqtisadiyyat naziri gənclərin Azərbaycanın inkişafı üçün həvəslə çalışmalarını, bilik və bacarıqlarını davamlı şəkildə artırmalarını təqdir edib, gələcəyə inamlı baxışları olan yeni nəslin ölkəmiz üçün əvəzolunmaz kapital olduğunu vurğulayıb.

"Yüksəliş" müsabiqəsinin qalibləri Mentorluq proqramı çərçivəsində keçirilən görüşlərin faydasını qeyd edərək, fikir mübadiləsinin onların idarəçilik təcrübələrinin və peşəkar vərdişlərinin təkmilləşdirilməsinə böyük stimul verdiyini bildiriblər. Qeyd edək ki, İqtisadiyyat Nazirliyi və "Yüksəliş" İctimai Birliyi tərəfindən Mentorluq proqramı çərçivəsində qaliblərin istəkləri nəzərə alınmaqla fərdi inkişaf planları hazırlanıb. Buna uyğun olaraq, mentilərin dövlət və özəl sektor, beynəlxalq konsaltinq şirkətlərinin nümayəndələri ilə görüşləri təşkil edilib, müxtəlif istiqamətlərdə maraqlı müzakirələr aparılıb. Qaliblərin fərdi inkişafına dəstək göstərmək məqsədilə onlar təlim və nazirlik tərəfindən təşkil olunan "4SİM Talks" layihəsində iştiraka cəlb olunublar. Fərdi inkişaf planları üzrə qaliblərin bilik və bacarıqlarının artırılması üzrə işlər davam etdirilir.

# Ukrayna portalında Milli Qurtuluş Günü ilə bağlı məqalə dərc edilib

**Ukraynanın "Kyiv Diplomatic" saytında soydaşımız, "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" ictimai təşkilatının sədri, hüquq elmləri doktoru professor Arif Quliyevin 15 İyun - Milli Qurtuluş Günü və Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş məqaləsi yerləşdirilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan xalqının həyatında bir çox əlamətdar hadisələrin Heydər Əliyevin adı ilə bağlı olduğu qeyd edilir. Bildirilir ki, bu dahi, müdrik və qətiyyətli insanın liderliyi olmasaydı, gənc dövlətin taleyini təsəvvür etmək çətin olardı.

"1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıtması ilə Azərbaycanda həyatın bütün sahələrində kəskin dönüş baş verdi. Respublikada ictimai-siyasi sabitlik bərqərar edildi, parçalanma və dövlət çevrilişi təhlükəsi aradan qalxdı, ən əsası, Heydər Əliyev milli həmrəyliyə nail olmaqla öz doğma xalqını vahid ideologiya ətrafında birləşdirə, sabaha inam hissi aşılaya bildi. Heydər Əliyevin müstəqil və sabit dövlət quruculuğu istiqamətində atdığı addımlar sayəsində Azərbaycanın milli maraqlarının keşiyində durmağa qadir olan Milli Ordu yaradıldı. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması üçün əlindən gələni əsirgəmirdi", - deyə məqalədə qeyd olunur.

Müəllif daha sonra yazır: "Ümummilli Lider Heydər Əliyev siyasi kursda davamlılığın möhkəm əsasını qoydu. Heydər Əliyevin dövlət quruculuğu və iqtisadi dirçəliş sahəsində gərgin əməyi nəticəsində Azərbaycan Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın sürətlə inkişaf edən dövlətləri sırasına daxil olub. Bu gün Azərbaycan öz ərazi bütövlüyünü təmin edib.

İyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və bu, bütün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çox qısa müddətdə hakimiyyətə gəlməsi ilə bağlıdır. Bununla da Ulu Öndər Azərbaycanı iqtisadi və siyasi böhrandan çıxararaq müstəqil güclü dövlətə çevirdi. Heydər Əliyev siyasətinin layiqli davamçısı, onun vəsiyyətlərini yerinə yetirən Prezident İlham Əliyevin mötəbər təşkilatlarda parlaq çıxışları, erməni millətçiləri üzərində aparılan debatlarda rəhbərlik etdiyi xalqının inamlı qələbələri Azərbaycanda haqlı qürur hissi doğurur".




# Azərbaycan və Banqladeş XİN-ləri arasında siyasi məsləhətləşmələr aparılıb

**İyunun 14-də Bakı şəhərində Azərbaycan və Banqladeş Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin birinci iclası keçirilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məsləhətləşmələrdə Azərbaycan tərəfini xarici işlər nazirinin müavini Elnur Məmmədov, Banqladeş tərəfini isə xarici işlər üzrə katib (nazir müavini) Məsud Bin Momen təmsil ediblər.

İclas zamanı iki ölkə arasında münasibətlərin hazırkı vəziyyəti, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və inkişaf perspektivləri ətrafında müzakirələr aparılıb.

Nazir müavini E.Məmmədov postmünaqişə mərhələsində bölgədə yaranmış mövcud vəziyyət, işğaldan azad edilmiş torpaqlarda minaların təmizlənməsi prosesi, həmçinin bərpa və quruculuq işləri haqqında qarşı tərəfə ətraflı məlumat verib.

Bu il ölkəmizin evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində (COP29) yeni əməkdaşlıq sahələri üçün əlverişli imkanın yarandığı vurğulanıb. Görüşdə həmçinin iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının, parlamentlərarası əlaqələrinin möhkəmləndirilməsi, Azərbaycan və Banqladeş arasında turizmin təşviqi və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda "İqlim dəyişmələrinin uşaqlar üçün qlobal təsirləri" mövzusunda tədbir olub

İyunun 14-də "İnsan hüquqları aylığı" çərçivəsində QHT-lərə Dövlət Dəstəyi Agentliyinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin birgə təşkil etdiyi "İqlim dəyişmələrinin uşaqlar üçün qlobal təsirləri" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva və bir sıra QHT nümayəndələri iştirak ediblər.

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Nigar Məmmədova tədbir iştirakçılarını mərkəzin fəaliyyəti, həssas qruplardan olan şəxslərin yaradıcılıq potensialının inkişafı üçün yaradılan şəraitlə tanış edib.

Əvvəlcə mərkəzdə istifadəyə yararlı olmayan eko və bio materiallardan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində hazırlanmış əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Sonra təlimçilər Jalə İsmayılova və Şəms Kuhi mərkəzdə təhsil alan uşaqlara "İqlim dəyişmələrinin uşaqlar üçün qlobal təsirləri" adlı təlim keçiblər. Uşaqlara iqlim dəyişmələri ilə bağlı maarifləndirici təlim təqdim edilib, onlarla interaktiv dialoq baş tutub.

Daha sonra mərkəzin audio səsyazma, floristika, bədii oyma, xalçaçılıq, musiqi, dulusçuluq, təsviri incəsənət, rəqs-idman studiyaları ilə tanışlıq olub.

Floristika, bağçılıq və landşaft dizaynı studiyasında master-klas da təşkil edilib.

# Milli Qurtuluş Gününə həsr olunmuş konfrans keçirilmişdir

**Tovuzda 15 İyun - Milli Qurtuluş Günü münasibətilə "Ulu Öndər Heydər Əliyevin xalqımız və tarixi-miz qarşısında ən böyük xidməti Azərbaycan dövlətçiliyini xilas etməsi olub" mövzusunda konfrans keçirilmişdir.**

Konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoymuşlar.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov məruzə ilə çıxış edərək 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışaraq qeyd etmişdir ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın qüdrətli dövlətə çevrilməsində misilsiz xidmətlər göstərmişdir: "Əgər 1993-cü il iyunun 15-də xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik və qətiyyətli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlişi ilə milli birliyi təmin etdi və Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş Günü kimi yazdı. Ümummilli Liderin milli maraqlara əsaslanan çoxşaxəli siyasət strategiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun zənginləşdirilməklə yüksək səviyyədə davam etdirilir".

Digər çıxış edənlər də Heydər Əliyevin Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün həyata keçirdiyi tədbirlərdən danışmış, Ulu Öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətinin Azərbaycan dövlətçiliyini xilas etməsi və Azərbaycanı parçalanıb yox olmaq təhlükəsindən qurtarması olduğunu diqqətə çatdırmışlar.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# İyunun 15-i demokratik Azərbaycanın müstəqil hüquqi dövlət quruculuğu prosesinin başlanğıc tarixidir

**15 iyun demokratik Azərbaycan Respublikasının qorunmasını və müstəqil hüquqi dövlət quruculuğu prosesinin başlanğıc tarixidir. Bu tarix həm də canı, həyatı, yorulmaz fəaliyyəti ilə Vətəninə bağlı olan Ümummilli Lider Heydər Əliyevin dünya tarixinin növbəti transformasiya dövründə Azərbaycan xalqının təkidli tələbi ilə Naxçıvandan paytaxt Bakıya millətinə xidmət etmək üçün gəldiyi gündür.**



Ölkəmizin ictimai-siyasi həyatına Milli Qurtuluş Günü kimi daxil olmuş bu günün xalqımızın milli yaddaş fəlsəfəsi, milli özünüdərk prosesində özünəməxsus yeri var. Bu gün eyni zamanda Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı Məzahir Əfəndiyev söyləyib.

"Ümumiyyətlə, tariximizdə bir sıra hadisələr vardır ki, bunlar xalqımızın milli mənlik şüurunda, həmçinin azərbaycançılıq ideologiyası təfəkküründə dərin və əbədi yerə malikdir", - deyən deputat vurğulayıb ki, 1993-cü il iyunun 15-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və davamlı inkişafın təməlini qoydu. Həmin gün Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və iyunun 24-də Milli Şuranın qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başladı.

Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaq", - deyən Ümummilli Lider problemlərin həlli üçün ilk növbədə bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin edilməsinə yönəltdi və buna nail oldu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən, parçalanma təhlükəsindən xilas oldu. Belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi.

İlk dəfə Ümummilli Lider tərəfindən Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyası elan olundu və sonrakı illərdə uğurla həyata keçirildi. Həmin vaxtdan başlayaraq müstəqil Azərbaycan dövləti anarxiyadan sabitliyə, inkişafa doğru istiqamət götürdü, qısa vaxtda ölkədə sabitlik və əmin-amanlıq bərpa edildi, Azərbaycanın tarixində yeni dövrün - faktiki müstəqilliyin, demokratiya və inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Məhz həmin tarixi gün Azərbaycan xalqının yaddaşında Milli Qurtuluş Günü kimi həkk olundu, 1997-ci ilin iyun ayında Milli Məclis tərəfindən dövlət bayramı elan edildi.

Prezident İlham Əliyev bu tarixlə bağlı deyib: "Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi". Həqiqətən də 1993-2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf illəri, bugünkü reallıqların bünövrəsi kimi daxil olub, 2003-cü ildən sonrakı dövr isə böyük yolun davamıdır.

"Ötən 20 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın nəinki regionda, eyni zamanda beynəlxalq arenada gücü, bütün məsələlərlə bağlı prinsipial mövqeyi olan, müstəqil siyasi iradə nümayiş etdirən ölkə kimi tanınmasını şərtləndirdi. İkinci Qarabağ - Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir.

2020-ci ildə Azərbaycan xalqı Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin miras qoyduğu yolu müvəffəqiyyətlə davam etdirərək ölkənin ərazi bütövlüyünə qovuşdu, 2023-cü ildə isə Qarabağda baş verən qanunsuzluqlar birdəfəlik ləğv olundu və Azərbaycan bayrağı oktyabrın 15-də Xankəndində dalğalanmağa başladı", - deyən M.Əfəndiyev vurğulayıb.

Beləliklə, 2024-cü ildə xalqımızın Milli Qurtuluş Gününü ikiqat sevinc və qürur hissi ilə qeyd etdiyini söyləyən deputat bildirib ki, bu gün həm Vətənə məhəbbət, millimənəvi dəyərlərimizə hörmət, azərbaycançılıq ideologiyası ətrafında birləşmək kimi müqəddəs hissləri özündə ehtiva edir, eyni zamanda suveren Azərbaycanın hər bir şəhər, rayon və kəndində böyük fəxarət hissi ilə qeyd olunur.

Cari ildə artıq Xankəndidə fəaliyyətə başlamış Qarabağ Universiteti bir tərəfdən Azərbaycan tarixində ölkəmizə qarşı həyata keçirilmiş vandallıqları araşdıraraq xalqımızın igid, qəhrəman övladlarının şücaəti ilə bərabər tariximizin öyrənilməsini, digər tərəfdən isə yeni, müasir çağırışlara əsaslanan Azərbaycanın davamlı və gələcək inkişafının təminatçısına çevriləcək kadrların hazırlanmasını, ixtisaslaşmasını həyata keçirəcək.

"Son 30 ildə qazandığımız uğurlar əminliklə söyləməyə əsas verir ki, biz dövlət müstəqilliyimizi bir daha əldən verməyəcək, müstəqilliyimiz əbədi olacaq. Azərbaycan tarixinin unudulmaz səhifələrindən olan 15 İyun - Milli Qurtuluş Günü xalqımızın yaddaşından heç vaxt silinməyəcək", - deyə deputat diqqətə çatdırıb.



# Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə

31

**Milli Qurtuluş Günü kimi tarixə həkk olunmuş 15 iyun 1993-cü ildən bizi otuz bir il vaxt ayırır. Siyasi kataklizmlərlə zəngin olan bu dövrün son dərəcə gərgin tarixi şəraitini təhlil edərkən, hadisələrin mərkəzində olan Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin yeni çalarları meydana çıxır. Siyasət nəhəngi Heydər Əliyevin ən təlatümlü proseslərdə belə öz təmkinini pozmadan müdriklik və qətiyyət göstərməsi millətimizin ona qarşı heyranlıq duyğusunu daha da artırır.**



# Müstəqillik mübarizəsinin Milli Qurtuluş zirvəsi

## Sovet dönəmində Heydər Əliyevin müstəqillik düşüncələri

Heydər Əliyevin Sovetlər dönəmində siyasi fəaliyyətinin müxtəlif mərhələlərində milli azadlıq çalarlarını daim aydın görmək olar. Məsələn, Dahi şəxsiyyətin 1981-ci ildə görkəmli yazıçımız İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesinin premyerası zamanı olan fakta nəzər salaq. Həmin hadisənin canlı şahidi pyesə quruluş vermiş Xalq artisti, rejissor Mərahim Fərzəlibəyovun xatirələrinə diqqət yetirək. Pyesin premyerasına Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevin gəlməsi, əlbəttə ki, hər kəsin məsuliyyətini daha da artırırdı. Tamaşa uğurla oynanıldı. Xurşidbanu Natəvan (mərhum aktrisa Amaliya Pənahova) son monoloqunu dedi: "Daha mənə xidmətçi lazım deyil, Bəyim. Gedin ləyaqətlə yaşayın. Gedin kəndlilərə deyin ki, onlar daha mənə vergi verməyəcəklər. Daha Xan qızı Natəvanın kəndi, torpağı yoxdur! Deyin ki, mən Xurşidbanu Natəvan bu əzablı yolları onlarla birlikdə gedəcəm. Onu da deyin ki, bu uçurumlu yolların sonunda bizi öz milli birliyini, azadlığını tapmış azad Azərbaycan gözləyir!"

M.Fərzəlibəyov xatırlayır: "Təsəvvür edin, bu sözləri Sovet hökumətinin ən güclü vaxtı müttəfiq respublika olan subyektlərindən birində bu formada deməyin hansı nəticələri verəcəyini hesablamaq çox da çətin məsələ deyildi. Bu monoloqdan sonra bütün salona bir neçə saniyəlik sükut çökdü, hamının gözləri birinci katib Heydər Əliyevə zilləndi. Onun reaksiyası necə olacaq? Yazıçını bundan sonra nə gözləyir? Bu ritorik sualların yaratdığı həyəcan hər kəsin vücuduna sirayət etmişdi ki, sükut pozuldu. Heydər Əliyev əl çalması ilə bütün həyəcana son qoydu. Alqışlardan sonra bütün salon ayağa qalxaraq alqışladı. Sonra isə pərdə arxasında Heydər Əliyev əsərin müəllifi İlyas Əfəndiyevə üzünü tutaraq dedi: "Əhsən, Natəvana qarşı yaranmış şübhələri aradan qaldırdın. Son monoloqun isə çox gözəl idi".

1977-ci ilin 28 mayında Bakıda keçirilmiş beynəlxalq konfransda 70 ölkənin nümayəndəsi iştirak etmişdi. Bu tədbirin beynəlxalq birlik üçün çox böyük əhəmiyyəti var idi. Konfransda "Böyük Oktyabr Sosialist İnqilabı və Asiya, Afrika və Latın Amerikası ölkələrinin milli azadlıq hərəkatı" adlı məruzə ilə Heydər Əliyevin çıxış etmişdir. Heydər Əliyev adıçəkilən xalqların azadlıq mübarizəsi fonunda milli azadlıq hərəkatı ilə bağlı yeni elmi-nəzəri fikirlər irəli sürməsi də maraq doğurur. Konfransın tarixinin məhz 28 may gününə təsadüf etməsi də diqqətəlayiq hadisələrdəndir.

Nəriman Nərimanovun 100 illiyi 1970-ci ildə tamam oldu, yubileyi isə 1972-ci ildə keçirildi. Bilərsiniz niyə? Çünki bu yubileyi keçirmək üçün iki il mübarizə aparmaq lazım idi. N.Nərimanova "millətçi" damğası vurulmuşdu. Bu "ləkə"ni aradan götürmək üçün Heydər Əliyev fədakarlıqla məşğul olmuşdu.

Bu haqda Ulu Öndər belə deyirdi: "Heç kəsə demədiyimi indi sizə açıram. Qoy xalqım bilsin. Mənim sinəmdə çox sirlər var. Bəzilərini indi açıram. İki dəfə Suslovun, Brejnevin yanına getdim, ancaq onlara Nərimanov barədə başqa informasiya vermişdilər. Əjdər İbrahimov İsa Hüseynovla birlikdə "Mosfilimdə" Nəriman Nərimanova həsr edilmiş dəyərli film çəkmişdi. Bizdən qabaq həmin filmə Moskvada baxmışdılar və ermənilərin təsiri altında olan MK-nın bəzi məsul işçiləri həmin filmi qadağan etmişdilər...Nə yubiley keçirməyə, nə də abidəni qoymağa imkan verirdilər. Çalışdım, mübarizə apardım, neçə adamı inandırdım və axır ki, istəyimə nail oldum. MK-da Nəriman Nərimanovun 100 illik yubileyinin keçirilməsinə dair qərara nail oldum".

Heydər Əliyev Azərbaycanın yetişdirdiyi hər bir ləyaqətli vətən övladına sahib çıxmağı bacarırdı. Həmin şəxsin sovetlər dönəmində yaşaması onun dəyərini heç də azaltmırdı. Bəli, bu, Heydər Əliyevin fərqli və müdrik yanaşması idi. O, Azərbaycan SSR-in Dövlət Himnində diyar sözünü çıxarıb respublika sözünü əlavə etdirmişdi ki, "biz diyar deyilik, respublikayıq". Yeni Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsinə nail olmuşdu. O, Azərbaycanı müstəqil görmək arzusunda idi. Bunu isə Uca Tanrı ona bir müddət sonra nəsib etdi.

Qayıdaq Azərbaycan tarixinin ən kəskin ziddiyyətlərlə dolu 1993-cü ilin iyun hadisələrinə və bu kontekstdə Heydər Əliyevin Bakıya dəvət edilməsi məsələsinə.

Qarabağ müharibəsinin şiddətlə davam etdiyi vaxtda Bakıda kreslo davası gedirdi. Azərbaycan torpaqları işğal edilir, regionlarda etnik separatçılıq dalğası genişlənirdi. Azərbaycanda yaşayan azsaylı qrupları separatizmə təhrik edərək, dövləti parçalamağa çalışanların məkrli təşəbbüsləri isə qarşısıalınmaz vəziyyətə gəlmişdi. Müharibəyə səfərbər olmaq əvəzinə Gəncədə hərbi qarşıdurma törədildi və bu zaman vətəndaşlarımız həlak oldular.

Vətəndaş müharibəsi təhlükəsi ciddi olaraq Azərbaycanı təhdid edirdi. AXC-Müsavat iqtidarının təmsilçiləri başda Əbülfəz Elçibəy, İsa Qəmbər və digər şəxslər yaranmış vəziyyətdən çıxış yolunu yalnız və yalnız Heydər Əliyevin Bakıya dəvət edilməsində və onun bu çıxılmaz durumdan xalqı xilas etməsində görürdülər. Çünki xalqı məhz Heydər Əliyevə olan inam xilas edə bilərdi. Xalqın yekdil rəyi bundan ibarət idi. Lakin bu dövrə qədər bütün rəhbərlər - Ə.Vəzirov, A.Mütəllibov, Y.Məmmədov, Ə.Elçibəy Heydər Əliyev faktoruna qısqanclıqla yanaşır, ona qarşı böyük maneələr, təhdidlər yaradırdılar. Hətta Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri öz vəzifəsinə görə Azərbaycan Ali Sovetinin sədrinin müavini sayılmasına dair müddəa belə qanunvericilikdən çıxarılmış, Prezident seçkisi üçün yuxarı yaş senzi müəyyən edilmişdi.

Heydər Əliyev bu şəraitdə belə Naxçıvanda Azərbaycanın tarixi üçrəngli bayrağını dövlət rəmzi kimi qəbul edərək, Azərbaycan Ali Sovetinə də bu addımı atmaqla bağlı rəsmi müraciət etmişdi. Lakin artıq Naxçıvanda qalmaqla yaranmış vəziyyəti düzəltmək mümkün deyildi. Heydər Əliyev həmin vaxtadək bir neçə dəfə Azərbaycan Ali Sovetində çıxış etmişdi. Hər dəfə də ona qarşı hörmətsizlik olunmuşdu. Lakin Heydər Əliyev xırda hisslərlə yaşamadığı üçün bunları unutmuşdu. Xalqın üzləşdiyi amansız tale onu bu yükü çiyinlərinə götürməyə səsləyirdi. Həmin həyəcanlı dövrdə Heydər Əliyevin arxasınca xüsusi təyyarə göndərən hökumət üzvləri sonradan "milli hökumət qiyam yolu ilə devrildi" fikrini söyləməklə cılız siyasi təfəkkürə malik olduqlarını nümayiş etdirdilər.

Hətta Heydər Əliyev dəfələrlə Bakıya gəlməkdən imtina etsə də, hakimiyyətin təkidli xahişi, xalqın isə tələbi ilə Bakıya qayıtdı. Müdrik siyasi xadim heç bir halda yaranmış siyasi təlatümlərdə emosional davranış sərgiləmədi. O, bir an belə müdrik davranışından imtina etmədi - böyük düşündü, böyük addımlar atdı. Nəhayət, tarixi qərar qəbul edildi. Azərbaycan Ali Soveti Heydər Əliyevi sədr seçdi.

Heydər Əliyev Ali Sovetdə tarixi çıxışını etdi. O, 1993-cü il iyunun 15-də dövlətçiliyimizin gələcəyini təmin edən konseptual tezislər irəli sürürdü. Bu çıxış onun həmin auditoriyada olan əvvəlki çıxışlarının məntiqi davamı idi.

Hələ 7 mart 1991-ci ildə Heydər Əliyevin Ali Sovetdəki çıxışında milli birlik və həmrəyliklə bağlı fikirlərinə diqqət edək. O deyirdi: "Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır. Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm".

Heydər Əliyev bütün çıxışlarında Azərbaycanın dövlət müstəqilliyinin qorunmasını əsas vəzifə hesab etdiyini vurğulayırdı. Ulu Öndər vəziyyətin gərgin, emosional olmasına baxmayaraq, 15 iyun 1993-cü ildə Milli Məclisdəki çıxışında da soyuqqanlı və müdrikcəsinə ən mühüm zəruri məsələlərə toxunmağı vacib hesab edirdi. Heydər Əliyev tarixi məsuliyyət məsələsinə toxunaraq bildirirdi: "Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycanın Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm".

## Müstəqilliyimiz tarixi varislik kontekstində

Heydər Əliyevin tarixi varislik və dövlət müstəqilliyi ilə bağlı bu fikirləri müdriklik və cəsarət nümunəsidir: "Ali Sovetin Sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək. Keçmiş Sovetlər İttifaqının bərpa olunması, Azərbaycan Respublikasının da ora daxil olması ehtimalı haqqında bəzi şayiələr, fikirlər gəzir. Bunlar xülyadır. Mən bu fikirləri rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını bu fikirləri rədd etməyə dəvət edirəm. Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur. Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır".

Göründüyü kimi, Heydər Əliyev dövlət müstəqilliyinin qorunması və ərazi bütövlüyünün təmin olunmasını Azərbaycanın əsas strateji hədəfi kimi göstərirdi. Heydər Əliyevin başqa bir fikrinə diqqət yetirək: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir sənə bundan öncə başladığı yola davam etməlidir. Bu, düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam".

Heydər Əliyev bu tarixi çıxışında da əvvəlki nitqlərindəki konsepsiyaya sadiq qalaraq Azərbaycanın dövlət müstəqilliyini xalqımız üçün bir nömrəli məsələ hesab edirdi. Siyasi plüralizm, qanunun aliliyi, demokratik dəyərlərə hörmət, insan haqlarının təmin olunmasının önəmini vurğulayırdı.

## Xarici siyasət prioritetlərinin əsas istiqamətləri

İyun hadisələrinin gərginliyi fonunda Heydər Əliyevin ali kürsüdən çıxış edərək Azərbaycanın yaxın və uzaq tarixi üçün çox mühüm istiqamətləri müəyyən etməsinə heyrət etməyə bilmirsən. Xarici siyasət kursunu müəyyən edərkən Heydər Əliyev müstəqillik kursunun qorunmasını çox vacib sayaraq vurğulayırdı: "Xarici siyasət sahəsində keçən bir il müddətində çox iş görülüb. Ancaq görüləsi işlər daha da çoxdur. Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətlə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır".

Türkiyə ilə münasibətlərə böyük önəm verən Heydər Əliyev bildirirdi ki, Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir. Ulu Öndər deyirdi: "Qonşu İran İslam Respublikası ilə bizim münasibətlərimiz yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir. Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş, səmərəli olmalıdır. Keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan bütün dövlətlərlə - Ukrayna, Belarus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüzilliklərlə çox yaxın olub".

Göründüyü kimi, Heydər Əliyev türkdilli xalqlarla münasibətlərə xüsusi önəm verirdi. Bu isə onun gələcəkdə Türk Dövlətləri Birliyinin qurulması ilə bağlı fəaliyyətinin təsadüfi olmadığını sübut edir.

Artıq bu gün əsrlər boyu türk xalqlarının arzusuna çevrilmiş Turan ideyasının gerçəkləşməsinin - 300 milyonluq türk xalqlarının birləşməsinin şahidi oluruq. Bu siyasətin formalaşdırılması Heydər Əliyev kimi nəhəng şəxs tərəfindən başlanmışdısa, hazırda Türk Dünyasının iki nəhəng siması R.T.Ərdoğan və İlham Əliyev tərəfindən ən yüksək zirvəyə çatdırılıb.

Heydər Əliyev xarici siyasət prioritetlərini müəyyən edərək bildirirdi: "Şübhə etmirəm ki, məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir. Azərbaycan Respublikası artıq ümumi dünya miqyasına çıxıbdır. Azərbaycan Respublikasına Amerika Birləşmiş Ştatları tərəfindən son zamanlar müsbət münasibətlər hamımızı sevindirir və güman edirəm ki, bu münasibətlər daha da genişlənib inkişaf etdirilməlidir. Bütün Avropa ölkələri ilə bizim əlaqələrimiz genişlənməlidir. Xüsusən İngiltərə, Fransa, Almaniya və başqa Avropa ölkələri ilə. Bütün müsəlman ölkələri ilə, ərəb ölkələri ilə, türkdilli ölkələrlə bizim əlaqələrimiz daha da sürətlə inkişaf etməlidir".

Heydər Əliyevin 31 il bundan qabaq səsləndirdiyi geostrateji siyasət artıq İlham Əliyevin strategiyasında gerçəkləşir. Azərbaycan Avropanın enerji təhlükəsizliyində aparıcı dövlətə çevrilir.

Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə məktub ünvanlayan ABŞ Prezidenti C.Bayden cənab İlham Əliyevə müraciətində deyir: "Bütün dünyada enerji təhlükəsizliyinin təmin olunmasında mühüm dönüş nöqtəsini yaşadığımız bir dövrdə biz həm də təmiz enerjiyə keçidlə bağlı uzunmüddətli öhdəliklərimizi təmin etmək məqsədilə zəruri investisiya və dəyişikliklər edirik. Enerji təhlükəsizliyi ilə bağlı məqsədlərimizə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynamışdır. Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından Trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır... Regional sabitlik və əlaqələr Birləşmiş Ştatlar üçün prioritet məsələlərdir. Onilliklərlə davam etmiş münaqişəyə son qoyacaq möhkəm və ləyaqətli sülh sazişi Cənubi Qafqazı transformasiya edəcək və Azərbaycanın regiondakı rolunu fundamental şəkildə dəyişəcək. Birləşmiş Ştatlar bu nəcib iddianı dəstəkləməyə hazırdır. Biz sülh və firavanlığın təmin edilməsinin əsas prinsiplər olaraq qəbul olunmasını gələcək nəsillərə borcluyuq".

Bəli, bu, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və uğurlu siyasi varis İlham Əliyev tərəfindən həyata keçirilmiş gerçəkliklərdir.

## Milli həmrəyliyə çağırış

Heydər Əliyev həmin gərgin dövrdə Azərbaycan xalqını birləşdirə biləcək yeganə şəxsiyyət idi. Məhz onun çağırışı ilə milli birlik yarana bilərdi. Heydər Əliyevin siyasi opponentləri belə artıq bunu dərk edirdi.

Heydər Əliyevin həmin anda emosional və təsirli çıxışı Azərbaycan xalqına məlhəm kimi gəldi. Xalqın gözlədiyi müdrik ağsaqqal xalqı birliyə, bütövlüyə çağıraraq deyirdi: "Mən burada Milli Məclisin iclasında, bu tribunadan üzümü bütün Azərbaycan vətəndaşlarına tuturam, bizim qardaşlarımıza, bacılarımıza, övladlarımıza tuturam və müraciət edirəm və bildirirəm ki, bizim respublika indi ağır vəziyyətdədir. Bizim ən böyük çətinliyimiz, bir də deyirəm, işğal olunan torpaqlarımızı geri qaytarıb Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etməkdən ibarətdir. Ona görə bütün daxili iğtişaşlar, daxili didişmələr kənara qoyulmalıdır. Mən müraciət edirəm bütün Azərbaycan xalqına, mən Gəncə əhalisinə müraciət edirəm və onların hamısını müdrikliyə, insani münasibətlərə dəvət edirəm. Bizim respublikamızın indi buna çox böyük ehtiyacı var və bütün xalq da bilməlidir ki, indi biz hamımız bir olmalıyıq. Azərbaycanın bu faciəli dövründə biz böyük fəlakət qarşısındayıq. Bu dövrdə bütün qüvvələr birləşməlidir, bütün siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ya ictimai təşkilatlar, bütün insanlar hamısı birləşməlidir. Hamı kin-küdurəti kənara qoymalıdır, hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmalıyıq. Güman edirəm ki, Gəncə əhalisi, Gəncənin ətrafındakı rayonlarda yaşayan insanlar mənim bu səsimi eşidəcəklər, buna səs verəcəklər. Mən sizin hamınızı da bu sahədə fəaliyyət göstərməyə, birləşməyə dəvət edirəm".

## "Mənim təbiətimdə qisasçılıq hissiyyatı yoxdur"

Uzun müddət Heydər Əliyevə qarşı qarayaxma kampaniyası aparmış şəxslər onun qayıdışından təlaş keçirdilər. Ulu Öndər onlara böyük olmağı öyrədərək demişdi: "Mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq lazımdır, xırda dedi-qodunu kənara qoymaq lazımdır, bunların vaxtı gələr. Kimin kiminlə nə haqq-hesabı var, sonra edər. İndi bunun vaxtı deyil. Bununla əlaqədar olaraq bir məsələyə də toxunmaq istəyirəm. Bəzi dairələrdə mənim haqqımda belə söhbətlər gedir ki, Heydər Əliyev əgər yenidən Azərbaycanda bir vəzifəyə gələrsə, kimdənsə qisas alacaq. Kimsə onun əleyhinə vaxtilə olub, yaxud kimsə ona pis münasibət göstərib, ona qarşı pis münasibət göstərəcək. Mən sizin qarşınızda tam məsuliyyətlə deyirəm və bütün Azərbaycan xalqına elan edirəm ki, ümumiyyətlə, mənim təbiətimdə qisasçılıq hissiyyatı yoxdur. Bunu, sadəcə olaraq, ayrı-ayrı adamlar süni surətdə yaradıblar və görsənir ki, bir mənə ləkə vurmaq üçün yox, ümumiyyətlə, bizi parçalamaq üçün. Sizə söz verirəm ki, heç vaxt qisasçılıq hissiyyatına qapılmayacağam. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam. Mən özümü o hisslərin səviyyəsinə heç vaxt salmamışam və salmayacağam. Ona görə yox ki, siz mənə indi etimad göstərdiniz, mən belə bir vəzifəyə gəldim. Yox. Mən, sadəcə, bir vətəndaş kimi də heç vaxt heç kəslə ədavət aparmaq, qisas almaq, yaxud da ki, kiməsə pislik etmək istəməmişəm və istəməyəcəyəm. Ancaq vəzifə çərçivəsində, şübhəsiz ki, biz hamımız nizam-intizama tabe olmalıyıq, biz hamımız qanuna tabe olmalıyıq, biz hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik və bu yolla, şübhəsiz ki, mən öz əqidəmdən dönməyəcəyəm".

Bu sözlər gəlişigözəl sözlər deyildi. Heydər Əliyev sonrakı dövrlərdə heç vaxt bu hisslərə qapılmadı. Vaxtilə Ali Sovetin iclasında özündən müştəbehlik edən professor Mirabbas Qasımovu BDU-nun kafedra müdiri seçkilərindən uzaqlaşdırmaq istəyərkən dediyi fikirlər hər kəsi şoka salmışdı. O demişdi ki, riyazi analizi pis bilmir, qoyun qalıb işləsin, bəlkə faydalı olar. Ulu Öndərə qarşı tənqidi çıxışlar edən Xalq yazıçısı Bayram Bayramova qarşı da belə alicənab davranaraq, onun məhz Fəxri xiyabanda basdırılmasına göstəriş vermişdi.

## Şanlı irs davam edir

Müstəqilliyimizi böyük təhlükələrdən qoruyan Ulu Öndərin siyasətini davam etdirən Prezident İlham Əliyev varislik ənənələrinə sadiqliyini əməli ilə təsdiqləyir.

Qətiyyətli Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gün davam edən Vətən müharibəsində qazanılan zəfərimizin müjdəsini Ulu Öndər Heydər Əliyevə, bütün dünya azərbaycanlılarına qürurla çatdırdı: "2020-ci ilin 8 noyabrı tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!" Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".

Hazırda Ulu Öndərin azad görmək istədiyi Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Xankəndidə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Azərbaycanın suverenliyi tam bərpa edilib. Qafqazın şəriksiz lideri, dünyada söz sahibi olan cənab İlham Əliyevin və Azərbaycan xalqının iradəsindən kənarda regionda heç bir hadisə baş vermir. Budur, yeni dövrün gerçəklikləri, budur, milli qurtuluşun bizə bəxş etdiyi əzəmət və məğrurluq.

*Prezident İlham Əliyev dövlət başçısı kimi xalqın etimadını doğruldur, varislik missiyasını ləyaqətlə davam etdirir.*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



Azərbaycanın QURTULUŞ salnaməsi:

Heydər Əliyevdən İlham Əliyevə

31

# Qurtuluşdan başlanan yol uğurla davam edir



**15 iyun 1993-cü il Azərbaycan xalqının tarixində unudulmaz, şanlı səhifədir. Qurtuluş adlandırdığımız bu gün həqiqətən də dövlətimizin və xalqımızın müqəddəratını həll etdiyi, sabaha inam bəslədiyi gündür. Qurtuluşumuzun banisi, o dövrdə xalqın təkidi ilə yenidən hakimiyyətə gətirdiyi Ulu Öndər Heydər Əliyevdir.**
**Ağır günlərdə - torpaqlarımız erməni təcavüzkarları tərəfindən anbaan işğal olunduğu, ölkədə hərc-mərcliyin, hakimiyyətsizliyin, qarşıdurmaların baş alıb getdiyi, büdcənin boş olduğu, insanların ümidsizliyə qapıldığı, beynəlxalq aləmdən təcrid olunduğumuz dövrdə hakimiyyətə gəlmək, xalqı mübarizəyə səfərbər etmək çox müşkül, çətin bir vəzifə olsa da, Heydər Əliyev torpağı və xalqı naminə bu vəzifəni öz üzərinə götürdü və ölkəni parçalanmaqdan xilas etdi.**

Bu, xilaskarlıq missiyası idi, bu vəzifəni yalnız və yalnız xalqına inanan, vətənini canı qədər sevən və dəyərləndirən, bir çox mübarizələrdən qalib çıxan Heydər Əliyev kimi dahi şəxsiyyət yerinə yetirə bilərdi. Çünki o, tarixin sınaqlarından həm təşkilatçı, uzaqgörən rəhbər, siyasətçi, həm sədaqətli vətəndaş, həm də mehriban, vətənpərvər insan kimi çıxmış, ən çətin anlarda xalqı ilə bir olduğunu sübut etmişdi.

İstər Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə, istər Moskvada yaşadığı - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu illərdə, istərsə də vəzifədən uzaqlaşdırıldığı və Naxçıvanda yaşadığı dövrlərdə Heydər Əliyev Vətəndən, xalqdan uzaq olmamış, Azərbaycanın taleyi, gələcəyi barədə düşünmüş, ömrünü, gününü vətəninin səadətinə, gələcəyinə bəxş etmişdi.

O, qətiyyətli, inamlı, müdrik insan idi. Qorbaçov kimi ermənipərəst bir rəhbərin səhvlərini üzünə deməkdən çəkinməmişdi. Qətiyyətli hərəkətləri, tutarlı çıxışları, mehriban davranışları, insani xüsusiyyətləri ilə Sovetlər İttifaqının xalqlarının dərin hörmət və məhəbbətini qazanmışdı ki, bu gün də insanlar onun əməllərindən, amallarından, dəyərli işlərindən, tədbirlərindən ürəkdolusu söz açırlar. Baykal-Amur dəmir yolunun çəkilişində yüksək fəaliyyəti, təşkilatçılıq bacarığı bu gün də nümunə göstərilir. 20 Yanvar faciəsinə verdiyi qiymət xalqımızın qəlbinin səsi idi və bu, tarix boyu unudulmayacaq. Naxçıvanın mühafizəsi, Gəncə qiyamının qarşısının alınması, Milli Qurtuluş Gününün həqiqətə çevrilməsi yaddaşımızın unudulmaz anlarıdır.

Azərbaycan xalqı tariximizin bu səhifələrini demək olar ki, hər gün vərəqləyir, Ulu Öndərimiz Heydər Əliyevi məhəbbətlə yad edir. Ona görə ki, qurtuluş tariximiz bizə yeni, mənalı bir həyat, gələcək bəxş edib.

Heydər Əliyevin hakimiyyətə gəlişi ölkədə ictimai-siyasi sabitlik yaratdı, silahlı qruplaşmaları neytrallaşdırdı, qarşıdurmaların qarşısını aldı, ölkəni iqtisadi-siyasi böhrandan, bir çox təhlükələrdən xilas etdi. "Əsrin müqaviləsi"nin imzalanması, yeni layihələrin həyata keçirilməsi, beynəlxalq aləmlə münasibətlərin yaxşılaşdırılması, insanlarda yaşamağa, yaratmağa inam, həvəs yaradılması bu günümüz, inkişafımız üçün zəmin oldu və Azərbaycanın yüksək nailiyyətlərini təmin edir. Ulu Öndərimizin qurtuluşdan başladığı yol bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və torpaqlarımızın işğaldan azad edilməsi bu qurtuluşun davamı və ən şanlı səhifəsidir.

Heydər Əliyev bu günümüzün təntənəsi üçün çox böyük çətinliklərə sinə gərdi, Qarabağ torpaqlarının azadlığı naminə bütün qüvvələri səfərbər etdi, səylərini birləşdirdi, beynəlxalq tribunalardan haqq səsini ucaltdı, yatmış vicdanları silkələdi, oyatdı, çox siyasətçilərə dərs verdi, yollar aradı, planlar cızdı.

Ümummilli Liderimiz Qarabağın azadlığına inanırdı və İlham Əliyevin timsalında bu qələbənin gerçəkləşəcəyinə əmin idi. Çünki onun qabiliyyətinə, vətənpərvərliyinə bələd idi və bilirdi ki, İlham Əliyev xalqı öz ətrafında birləşdirməyi, ordunu gücləndirməyi bacaracaq, öz vəzifəsinin öhdəsindən gələcək və ata yolunu davam etdirəcək, xalqının və torpağının xilaskarı kimi ucalacaq.

Heydər Əliyev hadisələri qabaqlamağı bacardığı kimi, həm də gələcəyi aydın görürdü. Onun xalqının dilinə, dininə, tarixinə, milli-mənəvi dəyərlərinə ehtiramı, insanlara inamı, azərbaycançılıq duyğuları əsrləri geridə qoyub işıqlı sabahımızı görməsinə imkan yaradırdı. Çünki tarixin sınaqları, dövlətçiliyimiz, mübarizliyimiz, müşahidələr, birlik, dövrün gedişi bunu diktə edirdi.

Qurtuluş tariximizi yad etdiyimiz, qələbələrimizə sevindiyimiz, torpaqlarımızın azadlığından suverenliyimizin tam bərpa olunmasından qürur duyduğumuz bu günlərdə yenə Heydər Əliyev ideyalarına sığınırıq, arxalanırıq və o bəşəri amalların, istəklərin işığında xalqımız gələcəyə doğru inamlı addımlar atır.

Ürəyimizdə Heydər Əliyev ideyaları, önümüzdə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev, köməyimizdə ordumuz və xalqımız irəliyə, inkişafa, qələbələrə doğru gedirik. Bu yolun başlanğıcı qurtuluş, davamı sülh, əmin-amanlıq, xoşbəxtlik və tərəqqidir. Yolumuz uğurlu olsun!

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***



# Qurtuluş məfkurəsi



**Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və tariximizə qızıl hərflərlə yazılmış 15 İyun Milli Qurtuluş Günüdür. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrilib. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu.**

Ulu Öndərimizin hakimiyyətə tarixi qayıdışı ilə ölkəmiz parçalanmaq təhlükəsindən xilas oldu. Bu amili nəzərə alaraq 1997-ci ilin iyun ayında Milli Məclis 15 iyun tarixinin Milli Qurtuluş Günü elan olunması haqqında qərar qəbul edib.

Müstəqilliyimizin ilk illərində AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq yol verdikləri başıpozuq əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyillərinin baş qaldırması və bütün bunların ölkənin daxilində qardaş qırğını, vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Bu proses 1993-cü ilin iyun ayında özünün kulminasiya nöqtəsinə çatdı. Azərbaycanı bu təhlükəli vəziyyətdən yalnız böyük dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev xilas edə bilərdi. Məhz belə bir zamanda xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Parlamentinin Sədri seçildi.

Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək bütün təhlükələri dəf etdi və müstəqilliyimizin dönməzliyi təmin olundu. Bu səbəbdən də 15 iyun tarixi haqlı olaraq tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu.

"Olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan bir dövlətə çevrildi. O dövrdə dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiyası, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edirdi.

Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Bütün sahələrdə tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının bəhrələri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi.

Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ötən illər ərzində daha da güclənib, dünyada nüfuzlu dövlətə çevrilib. 2020-ci ildə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsi nəticəsində işğal altında olan torpaqlarımızı azad etdi. 2023-cü ilin sentyabrında isə birgünlük antiterror tədbirləri nəticəsində Qarabağ erməni separatçılarından tamamilə təmizləndi. Bu qələbələr tariximizə qızıl hərflərlə yazıldı. Təbii ki, bu qələbədə xalq və cəmiyyət olaraq birliyimiz və həmrəyliyimiz də mühüm rol oynadı. Beləliklə, Ulu Öndərin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda onun layiqli davamçısı - Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir.

Ümummilli Liderin qurduğu dünyəvi Azərbaycan dövləti tarixinin yüksəlişlə müşayiət olunan ən qüdrətli dövrünü yaşayır. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş dövlətimizin məqsədi Cənubi Qafqazı sülh və əməkdaşlıq məkanına çevirməkdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev azad edilmiş torpaqlarda bərpa işlərinin təməlini qoyur, Şuşada Novruz tonqalı alovlandırır, Böyük qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir.

Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, düşmənin yerlə yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək. Bütün bunlar qurtuluş məfkurəsinin bəhrəsidir.

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini***

# İnkişaf, qüdrət günü



**Milli Qurtuluş Günü Azərbaycan tarixinin ən möhtəşəm və əlamətdar hadisələrindən biridir. Bu, müasir dövrümüzün qürurverici tarixidir.**
**Müstəqilliyimizi elan etdiyimiz vaxtlardan başlayaraq Azərbaycanda çox dərin böhran hökm sürürdü. Həm ermənilər torpaqlarımızı işğal edirdi, həm də elə bir lider yox idi ki, bu proseslərin qabağında dursun.**

Bəzi qüvvələr bundan istifadə edərək Azərbaycana daha çox təzyiq göstərməyə çalışırdılar. 1993-cü ilin iyun ayında böhran pik nöqtəsinə çatdı və hökumətin səriştəsiz siyasəti nəticəsində Azərbaycan parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Cənubdan, şimaldan digər istiqamətlərdən Azərbaycana qarşı ancaq məkrli siyasət, qopartmaq, bölmək, dağıtmaq kimi prinsiplərdən istifadə olunurdu.

O zaman bizi ancaq güclü lider xilas edə bilərdi. Bu lider isə Heydər Əliyev idi. Belə bir zamanda xalqın təkidi ilə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi.

Heydər Əliyev 1993-cü il iyunun 15-də siyasi hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirməyə başladı. Ulu Öndər ölkəmizin müstəqilliyini qorudu, hərbi-siyasi böhranı aradan qaldırdı, vətəndaş qarşıdurmasının qarşısını aldı. Heydər Əliyevin müdrikliyi ilə Azərbaycan problemlərdən, ən əsası müstəqilliyini itirməkdən və parçalanmaqdan, məhv olmaq təhlükəsindən xilas oldu.

Heydər Əliyev ölkəmizi inkişaf yoluna apardı. 15 iyun tarixi isə 1997-ci ildə Milli Məclis tərəfindən Milli Qurtuluş Günü elan olundu.

Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti, onun təcrübəsi nəticəsində gələcəyə yeni bir pəncərə açdı. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yüksəlişində mühüm hadisə oldu. Heydər Əliyevin rəhbərliyi ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz layihələrinə başlanıldı. Bütün bunlar gələcək layihələrə sərmayə qoymaq üçün yol açdı.

Heydər Əliyevin siyasi kursu Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu siyasətin nəticəsi kimi Azərbaycan daha da güclənib inkişaf edib. Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti ilə 44 günlük Vətən müharibəsində işğal altında torpaqlarımız azad olundu, lokal antiterror tədbirlərindən sonra suverenliyimiz tam bərpa edildi. İndi Azərbaycan dünyada qalib dövlət, beynəlxalq birliyin nüfuzlu üzvü kimi tanınır.

Prezident İlham Əliyevin tarixinin ən güclü dövlətinə çevirdiyi Azərbaycan inkişaf, sülh və əməkdaşlıq məkanıdır. Ulu Öndərin qurtuluş məfkurəsi isə hər zaman uğurlarımızın təməlində dayanacaq.

**Arzu NAĞIYEV,**
***Milli Məclisin deputatı***



Azərbaycanın QURTULUŞ salnaməsi:
Heydər Əliyevdən İlham Əliyevə
31




# Tariximizin şanlı səhifəsi

**Xalqımızın və dövlətimizin tarixinin ən əlamətdar günlərindən biri Milli Qurtuluş Günüdür. Bu tarixi Azərbaycan xalqı hər zaman böyük coşqu və minnətdarlıq hissi ilə qeyd edir.**

31 il öncə xalqımız tarixinin ağrılı günlərini yaşayırdı, yenicə müstəqilliyinin bərpasına müvəffəq olmuş ölkəmizdə dərin siyasi və iqtisadi böhran hökm sürürdü. İqtidar özünün baiskar olduğu problemləri həll etmək gücündə deyildi. Azərbaycan, həmçinin Ermənistanın işğalçılıq siyasətinə qarşı mübarizədə uduzurdu. Xüsusilə 1992-ci ilin mayında Şuşa və Laçının işğal olunması, eyni zamanda həmin faciəli hadisələrdən az sonra hakimiyyətə gələn iqtidarın ölkəni idarə etmək gücündə olmaması mövcud şəraiti daha da ağırlaşdırmış, onun xəyanəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdü.

Bir tərəfdən, Ermənistanın torpaqlarımızı işğal etməsi, digər tərəfdən, ölkə daxilində siyasi böhran, xaosun hökm sürməsi Azərbaycanı ciddi təhlükələrə doğru sürükləyirdi. AXC-Müsavat cütlüyünün səriştəsizliyi, başıpozuq silahlı dəstələrin əməlləri, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq meyillərinin baş qaldırması və bütün bunların qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Belə bir şəraitdə çıxış yolunu axtaran xalq xilas yolunu yalnız Heydər Əliyevin siyasi hakimiyyətə gəlişində görürdü. Ona görə ziyalılar, ictimai-siyasi xadimlər Ulu Öndər Heydər Əliyevin ətrafında birləşərək Yeni Azərbaycan Partiyasını yaratdılar. O zaman partiyanın yaradılması üçün Heydər Əliyevə müraciət edilməsi təsadüfi deyildi. Dahi şəxsiyyətin siyasi təcrübəsi, xalq qarşısında göstərdiyi xidmətləri və vətənpərvərliyi mütərəqqi düşüncəli insanların onun ətrafında sıx birləşməsi zərurətini yaradırdı. Burada, şübhəsiz ki, Ulu Öndərin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər də xüsusi önəm daşıyırdı.

Digər mühüm amil isə Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü ilə bağlı idi. Həmin vaxt Naxçıvan Ermənistanın hərbi təcavüzü ilə üz-üzə idi. Muxtar respublika blokada şəraitində yaşayırdı. Ulu Öndər Heydər Əliyev bilirdi ki, ermənilərin göz dikdiyi, blokadada saxladığı Naxçıvanın qorunub saxlanması Azərbaycan dövlətçiliyi, bütövlükdə, türk dünyası üçün mühüm önəm daşıyır. Çətinliklərə, hakimiyyətin ögey münasibətinə baxmayaraq, Heydər Əliyev Naxçıvanı qorudu, işğal edilməsinə imkan vermədi. Bu baxımdan, ictimaiyyət əmin idi ki, Azərbaycanı yaranmış təhlükəli vəziyyətdən də yalnız böyük dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev xilas edə bilər.

Heydər Əliyevin özü isə ovaxtkı Azərbaycan rəhbərliyinin əsassız təqiblərinə məruz qalırdı. Lakin hakimiyyətin Heydər Əliyevə qarşı bütün məkrli planları iflasa uğradı. 1993-cü ilin gərgin günlərində isə elə həmin iqtidar Heydər Əliyevdən imdad istədi.

1993-cü il iyunun 9-da Ümummilli Lider Heydər Əliyev xalqın təkidli dəvətini qəbul edib Naxçıvandan Bakıya gəldi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə yollandı və orada baş qaldırmış qiyamın qarşısını aldı. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinə Sədr seçilməsi isə ölkəmizin



siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu.

Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Böyük risklərə baxmayaraq, Ulu Öndər dövlətin və dövlətçiliyin qorunması məsuliyyətini öz üzərinə götürdü. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Heydər Əliyev problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslərin aradan qaldırılmasına nail olundu. Beləliklə, taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq göstərdi, Azərbaycanı məhv olmaqdan xilas etdi, ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı. Ulu Öndərin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi.

Heydər Əliyev hər cür qəsdlərdən qoruduğu Azərbaycanı yenidən qurdu, hüquqi dövlət quruculuğu prosesini həyata keçirdi, ölkəmizin inkişaf yollarını müəyyən etdi. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi, dövlətin hüquqi əsaslarının yaradılması müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları təmin edildi. Bununla yanaşı, məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Beləliklə, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı.

Ölkəmizdə milli həmrəyliyi yarada biləcək ideologiya da 1993-cü ildən sonra müəyyənləşdirildi. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən mühüm faktor oldu.

Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi. Praqmatik xarici siyasət nəticəsində ölkəmizin dostlarının və tərəfdaşlarının sayı artdı.

Heydər Əliyevin xarici siyasət kursunun mühüm istiqamətlərindən birini enerji resurslarından səmərəli istifadə olunması və bu kontekstdə Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi təşkil edirdi. 1994-cü il sentyabrın 20-də Bakıda 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın iqtisadi müstəqilliyinin və dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu.

Ulu Öndərin xarici siyasət strategiyasının prioritetlərindən birini də keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edirdi. Heydər Əliyev bu prosesdə Azərbaycanın milli maraqlarını qətiyyətlə müəyyən etdi.

Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan yüksəlişə və inkişafa nail olub. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Dövlətimizin başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycanın qüdrətinin artmasında ifadə olunur. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafı, beynəlxalq müstəvidəki nüfuzu ilə qüdrətli dövlətə çevrilib.

Hazırda Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan ölkə kimi tanınır. Təbii ki, bu inkişafın və sabitliyin əsasında uğurla reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşdır.

Bu dövrün ən böyük hadisəsi isə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun 30 ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad etməsi, ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Bununla Ulu Öndərin vəsiyyəti, arzusu yerinə yetirildi. Dahi liderin ən böyük arzusu torpaqlarımızın azad olunması idi. "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!" - deyə Prezident İlham Əliyev bildirib.

Hazırda qarşıda dayanan əsas vəzifəmiz işğaldan azad edilmiş ərazilərin bərpası və insanların öz doğma yurdlarına qayıtmasının təmin edilməsidir. Prezident İlham Əliyev azad edilmiş torpaqlarda infrastruktur layihələrinin təməlini qoyur, Böyük qayıdışın reallaşdırılması istiqamətində tarixi tədbirlər həyata keçirir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz yeni zirvələr fəth edəcək, düşmənin yerlə yeksan etdiyi Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl guşələrinə çevriləcək. Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz daha da inkişaf edərək yeni zəfərlər qazanacaq.

**Sevinc HÜSEYNOVA,**
***Milli Məclisin deputatı***

# Qüdrətli dövlətçiliyin başlanğıc məqamı



**Xalqımız müstəqillik tarixinin ən qürurlu və şərəfli günlərini yaşayır. Çünki Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanımız artıq hər birimizin arzusunda olduğu dövrə qədəm qoyub. Ərazi bütövlüyümüzün bərpa olunması, torpaqlarımızda erməni separatizminə son qoyulması kimi tarixi nailiyyətlərimiz belə bir həqiqəti təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin əsaslarını müəyyən etdiyi, möhtərəm Prezidentimiz İlham Əliyevin yeni mərhələyə yüksəltdiyi siyasi kurs respublikamızı qarşısında dayanan bütün milli hədəflərə layiqincə çatdırır.**

Bu gün Milli Qurtuluş Günüdür. Əlbəttə, biz tarixin ən güclü Azərbaycanı barədə bəhs edərkən, müstəqilliyimizin ilk illərində baş verənləri də unutmur, Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında əvəzolunmaz tarixi xidmətlərini böyük minnətdarlıqla xatırlayırıq. Bu baxımdan, Milli Qurtuluş Gününü də qüdrətli dövlətçiliyimizin başlanğıc məqamı kimi hər zaman böyük ehtiramla qarşılayırıq.

31 il əvvəlin gərgin, böhranlı və faciəli günləri o dövrün şahidi olmuş hər kəsin xatirində qalır. Hakimiyyəti zorakı yollarla zəbt edərək ələ keçirmiş AXC-Müsavat qaragüruhunun bütün sivil norma və tələblərdən uzaq idarəçiliyinin nəticəsi olaraq dövlət aparatı faktiki olaraq tənəzzülə uğramış, iflic olmuşdu. Bunun nəticəsi kimi bir tərəfdən Ermənistan işğalçı hücumlarını artırır, digər tərəfdən respublikamızın ayrı-ayrı bölgələrində separatçılıq meyilləri baş qaldırırdı. Ayrı-ayrı şəxslərin nəzarətində olan silahlı dəstələrin başıpozuq əməlləri isə cinayətkarlığı artırmışdı. Ölkədə xaos və anarxiya baş alıb gedirdi və Azərbaycan faktiki olaraq nəiki müstəqilliyini yenidən itirmək, parçalanmaq təhlükəsi qarşısında idi.

Ümumiyyətlə, həmin dövrü təhlil edəndə görürük ki, yaranmış dərin böhranın əsas səbəbi ölkəyə güclü və qətiyyətli liderin rəhbərlik etməməsi idi. Bu baxımdan, hələ 1992-ci ildən etibarən vəziyyətin dramatikləşməyə doğru getməsi ölkəyə güclü siyasi liderin rəhbərlik etməsini şərtləndirirdi. Bu baxımdan, 1992-ci ilin noyabrında Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması və qısa zamanda on minlərlə insanın bu təşkilatın sıralarına qoşulması göstərirdi ki, xalqımız özünün nicatını məhz Ulu Öndərin siyasi hakimiyyətə gəlişində görür. Çünki Heydər Əliyev həm sovet Azərbaycanına rəhbərlik etdiyi, həm Kremldə çalışdığı, həm də Naxçıvanda fəaliyyət göstərdiyi dövrlərdə öz xalqına layiqincə xidmət etmiş, qarşısında dayanan bütün tarixi missiyaları uğurla həyata keçirmişdi.

Bu mənada 1993-cü ilin iyun ayının əvvəllərində Gəncə şəhərində baş vermiş hadisələrdən sonra xalqımızın Ulu Öndər Heydər Əliyevi Bakıya, siyasi rəhbərliyə çağırması dövlətçiliyimizin yaşadılması, kövrək olan müstəqilliyimizin qorunması, Azərbaycanın xilası üçün qəbul edilən tarixi ümumxalq qərarı idi. Xalqımız ancaq Heydər Əliyevin respublikamızı xilas edəcəyinə xalqımız əmin idi.

1993-cü il iyun ayının 9-da Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi xalqımız tərəfindən böyük sevinclə qarşılandı. Artıq həmin gündən ölkədə siyasi-ictimai ovqat tamamilə dəyişmişdi, hər kəsin narahatçılığı nikbin əhvali-ruhiyyə ilə əvəz olunmuşdu. Həmin günlərdə Gəncəyə səfər edən Heydər Əliyevin həyata keçirdiyi böyük missiya xalqımızı yeni faciələrdən xilas etdi.

1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə Azərbaycanın müstəqillik tarixində yeni mərhələnin əsasını qoydu. Ona görə ki, Ulu Öndərin siyasi hakimiyyətə gəlişi Azərbaycanın xilası, xalqımızın qurtuluşu demək idi. Ümumiyyətlə, 1993-cü ildə ölkəni gərgin hərbi-siyasi böhrandan çıxarmaq kimi bir missiyanı öz üzərinə götürmək həm risk, həm də qətiyyət tələb edirdi. Amma 31 il əvvəl baş verənləri təhlil edəndə görürük ki, yalnız Heydər Əliyev kimi nəhəng şəxsiyyətlər bu missiyanın öhdəsindən gələ bilərdilər.

Ulu Öndərin tarixi missiyası isə bir neçə amilə söykənirdi. Bunlar xalqın Heydər Əliyevə olan sarsılmaz inamı və dəstəyi, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü və Ulu Öndərin öz Vətəninə sonsuz sevgisi idi. Məhz bu üç amil milli qurtuluşumuzun əsasında dayandı. Bütün bunlar Azərbaycanı Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən və parçalanmaqdan xilas etdi. Azərbaycanı xilas edən, müstəqilliyimizi yaşadan Heydər Əliyev müasir dövlətçiliyimizin əsaslarını yaratdı, müasir Azərbaycan dövlətinin banisinə, xalqımızın Ümummilli Liderinə çevrildi.

Bu gün Azərbaycanın inkişafı, güclü beynəlxalq mövqeləri göstərir ki, Heydər Əliyev siyasəti layiqincə davam etdirilir, Ulu Öndərin ideyaları dövlətimizin və xalqımızın yüksəlişinə işıq salır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı regionda və dünyada söz sahibinə çevirib və təsadüfi deyil ki, respublikamız beynəlxalq birliyin nüfuzlu üzvü kimi tanınır. Məhz bu siyasətin nəticəsi olaraq torpaqlarımız da işğaldan azad edildi, ərazi bütövlüyümüz təmin olundu.

Əgər Heydər Əliyev öz qurtuluş missiyası ilə Azərbaycanı parçalanmaqdan xilas etmişdisə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı işğaldan azad etdi, ikiəsrlik erməni separatizminə son qoydu və Azərbaycan xalqını qalib xalq etdi. Ona görə indi xalqımız özünün ən qürurlu günlərini yaşayır.

**Cavid OSMANOV,**
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü***



## Azərbaycanın QURTULUŞ salnaməsi:

# Heydər Əliyevdən İlham Əliyevə

31



# Müstəqillik tarixinin ilk dönüş anı

**15 İyun Milli Qurtuluş Gününün mahiyyətini, fəlsəfəsini bilməkdən ötrü mütləq 1993-cü ilə qədərki hadisələrə diqqət yetirmək, təhlil etmək lazımdır.**

**1988-ci ildən bəri Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsini hələ sovet hakimiyyəti olmasına baxmayaraq, həm Azərbaycan rəhbərləri, həm də mərkəzi hakimiyyət kəsə bilmədi. Mərkəzi hakimiyyət, əslində, bu əsassız iddiaları dayandırmaq istəmirdi. 1991-ci ildən sonra Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa edərkən qarşısında daxili və xarici siyasət sahəsində bir sıra vacib məsələlərin həlli dayanırdı.**



Daxildə müstəqil dövlət qurulmalı, planlı sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına, təkpartiyalı sistemdən çoxpartiyalı sistemə keçid edilməli, ölkənin inkişafının açarını tapmaq lazım idi.

Azərbaycan dövlətinin qarşısında dayanan başlıca vəzifələr dövlət müstəqilliyini tanıtmaq, ölkə daxilində müstəqil dövlət quruculuğu üçün əlverişli beynəlxalq şəraiti təmin etmək, Ermənistanın hərbi təcavüzünü dayandırmaq, 1988-ci ildən başlayan qaçqın və məcburi köçkünlərin problemlərini həll etmək idi.

1991-1993-cü illərdə bir-birini əvəz edən hakimiyyətlər bu vəzifəni yerinə yetirə bilmədilər. Yəni ölkə böyük problemlərlə üzləşdi, ümumi böhran yarandı. İqtisadiyyat bərbad halda idi, dövlət hakimiyyəti özünün funksionallığını itirmişdi. Hakimiyyətin qanadları arasında ixtilaflar hökm sürürdü. Mülki ilə hərbi hakimiyyət arasında ziddiyyətlər var idi. Xalqın problemlərini həll edə bilməyən hakimiyyət ilə xalq arasında böyük uçurum yaranmışdı. Belə bir şəraitdə hakimiyyət ölkə daxilində dövlət quruculuğu üçün əlverişli beynəlxalq şəraiti təmin edə bilmirdi, qonşularla münasibətlər gərgin idi.

Ermənistanın hərbi təcavüzü davam edir, ərazilər bir-birinin ardınca işğal olunurdu. Bu zaman Gəncədə hərbi hissədə qiyam baş verdi. Dövləti xarici hərbi müdaxilədən qorumalı olan ordu siyasi intriqalarda bir vasitəyə çevrildi. Bütün bunlar azmış kimi, Azərbaycanın şimalında və cənubunda xaricdən dəstəklənən separatçılıq genişləndi, xalq vətəndaş müharibəsi astanasında dayandı. Bunlar hamısı dövlət müstəqilliyinin itirilməsi, ölkənin parçalanması, xalqın vətəndaş müharibəsinə getməsini aparırdı.

Azərbaycan xalqının mənəvi-psixoloji böhranı baş verdi. Xalqın sabaha ümidi yox idi. İnsanlar sual edirdilər ölkəni bu ağır vəziyyətdən kim çıxara bilər? Dövlət müstəqilliyinin itirilməsinin qarşısını kim ala bilər?

Xalqın gözləri Naxçıvana - Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyevə yönəlmişdi. Azərbaycan xalqının dərin inamına görə, ölkəni bu vəziyyətdən yalnız Heydər Əliyev çıxara bilərdi. Xalqın bu inamının əsasları var idi, çünki 70-ci illərdə Heydər Əliyev hələ sovet dövründə Azərbaycanı qabaqcıl respublikalar cərgəsinə çıxarmış, millətin başını uca etmişdi. Vəzifələrdən çıxarıldıqdan sonra Naxçıvanda deputat, sonra isə Ali Məclisin Sədri olaraq Azərbaycan xalqının gələcək taleyində müstəsna rol oynayan qərarların qəbul edilməsinin təşəbbüskarı olmuşdur. Cümhuriyyət bayrağı ilk dəfə Naxçıvanda rəsmi bayraq kimi qəbul edilmişdi. Hələ sovet sisteminin, Kommunist Partiyasının qalmasına baxmayaraq, cümhuriyyətin üçrəngli bayrağının qəbul edilməsi inqilabi hadisə idi. Çünki sovet dövləti müstəqillik rəmzi olan üçrəngli bayrağı qəbul etmirdi, düşmən sayırdı. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda Muxtar Sovet Sosialist Respublikasının adından sovet sosialist ifadələri çıxarılmışdı. O zaman hələ SSRİ mövcud idi.

Yalnız Naxçıvanda qərarlar qəbul edildikdən sonra Bakıda "Azərbaycan Respublikası" adı qəbul edilmiş və üçrəngli bayraq dövlət bayrağı olaraq qəbul olunmuşdu. Heydər Əliyev Naxçıvanda əhalini birləşdirərək ağır blokada şəraitində yaşamasına baxmayaraq, təcavüzkar Ermənistana cavab vermiş, Naxçıvan Muxtar Respublikasını qorumuşdu. Bütün bu və digər amillərə görə Azərbaycan xalqı belə hesab eləyirdi ki, ölkəni bu ağır vəziyyətdən yalnız Heydər Əliyev çıxara bilər.

Xalqın təkidli tələbinə əsasən, hakimiyyət Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Bakıya gələn Heydər Əliyev Milli Məclisdə çıxış etdi və qiyamın baş verdiyi Gəncəyə jurnalistlərlə birlikdə getdi və vəziyyəti yerində öyrəndi. Geri qayıtdıqdan sonra Milli Məclisin Sədri seçildi. 15 iyunda Heydər Əliyevin Milli Məclisin Sədri seçilməsi müstəqillik tarixinin ilk dönüş anıdır.

Heydər Əliyevin qarşısında çoxlu mürəkkəb vəzifələr dayanırdı. O, Ermənistanın hərbi təcavüzünü dayandırmalı, ölkənin inkişafının açarını tapmalı, torpaqları işğaldan azad etməkdən ötrü hazırlamalı idi. Dövləti dağılmaqdan xilas etmək gərəkirdi. Dahi lider Azərbaycan dövlətini xilas etdi, separatçılığın kökünü bir güllə atmadan kəsdi. Ermənistana "Horadiz əməliyyatı"nda sarsıdıcı zərbə endirildi, bir sıra ərazilər düşməndən azad edildi. Bununla Heydər Əliyev göstərdi ki, Azərbaycan torpaqlarının işğal altında qalması faktı ilə heç bir zaman barışmayacaq. Ondan sonra atəşkəsə gedildi. Heydər Əliyevin məqsədi ordunu qurmaq, dövləti ayaqüstə saxlamaq və ölkəni inkişaf etdirib düşməndən azad etməkdən ötrü hazırlamaq idi.

Bundan sonra Heydər Əliyev "Əsrin müqaviləsi"ni imzaladı. O, bununla Azərbaycan tarixində təbii sərvət olan nefti milli sərvətə çevirən ilk dövlət adamımız oldu. Ulu Öndər ona qarşı olan sui-qəsdləri puça çıxartdı. 1994-cü ilin sui-qəsd, terror hadisələri, dövlət çevrilişi cəhdi,1995-ci ilin martında qiyam hadisəsi Heydər Əliyevin iradəsini qıra bilmədi. Heydər Əliyev dövlət müstəqilliyi bərpa edilsə də, hələ Konstitusiyası qəbul olunmayan Azərbaycanda 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbuluna nail olaraq onun memarı oldu. Azərbaycanda ilk dəfə olaraq parlament seçkiləri keçirildi. Heydər Əliyev əsl dövləti qurdu, hakimiyyətə küçədən gəlməyin qarşısını aldı, Azərbaycanı islahatlar yoluna çıxartdı və ilk dəfə olaraq ölüm hökmünü ləğv elədi.

Bəs Azərbaycan xalqı nədən qurtuldu? Azərbaycan xalqı müstəqil dövlətini itirməkdən xilas oldu. Azərbaycan xalqı separatçılıq, parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Azərbaycan xalqı səriştəsiz, milli maraqları bilməyən şəxslərin idarəçiliyindən xilas oldu. Ona görə də 15 İyun Milli Qurtuluş Günü oldu.

1993-2003-cü illər Azərbaycanın işğal altında olan ərazilərinin xilas edilməsinə hazırlıq illəri oldu. 1997-ci ildən bəri, yəni Milli Qurtuluş bayram günü kimi qəbul ediləndən bəri ilk dəfə olaraq bu gün Azərbaycan xalqı başqa əhvali-ruhiyyədə bayram edir. Prezident İlham Əliyevin rəhbərliyi altında dövlət suverenliyi bütün ölkə ərazisində tamamilə bərqərar edilib, separatçılığın kökü tamamilə kəsilib və 1988-ci ildən, əslində, 100 illər əvvəl Azərbaycana sırınmış problem dövlət başçımız tərəfindən kökündən kəsilərək birdəfəlik həll edilib, gələcək nəsillərə saxlanmayıb.

Azərbaycan xalqının tarixində yeni mərhələ başlayıb. Əgər 1993-cü ilin iyunun 15-i olmasa idi, bugünkü iqtisadi inkişaf, hərbi zəfərlər, dövlət suverenliyinin tam qurulması da olmazdı. 15 iyundan alınan başlıca dərs ondan ibarətdir ki, Azərbaycan xalqının inkişafının təməlində qüdrətli dövlət rəhbəri, güclü dövlət və təbii sabitlik dayanır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin alternativi yoxdur.

1993-cü ildən bəri keçən tarix onu göstərir ki, Azərbaycanda qarşıya qoyulan məqsədlərə çatmağın ən düzgün strategiyasını Ulu Öndər Heydər Əliyev müəyyənləşdirib, cənab Prezidentimiz İlham Əliyev isə onu ustalıqla həyata keçirib. Bu siyasətin heç bir alternativi yoxdur.

**Musa QASIMLI,**
***Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini***

# Müasir dövlətçilik təfəkkürümüzün banisi



**Konstitusiyamızın birinci maddəsinin ilk cümləsində ifadə olunur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Dövlətçiliyin, suverenliyin və demokratiyanın ehtiva olunduğu bu konseptual cümlənin hər hansı tarixi hadisə, yaxud proses ekvivalentini tapmaq istəsəydik, bu, heç şübhəsiz ki, 15 İyun Milli Qurtuluş Günü olardı. Çünki 31 il əvvəl, legitim hakimiyyətin yeganə mənbəyi olan xalq taleyini Heydər Əliyevə etibar etdi.**

Bəzən ifadələr eşidir və işlədirik ki, 1993-cü ildə xalq Heydər Əliyevə sahib çıxdı. Bəli, xalq israrla dövlətin rəhbərliyində Ulu Öndəri görmək istəyirdi, lakin sahib çıxmaq məsələsinə gəlincə, əminliklə deyə bilərik ki, əksinə, 31 il öncə başsız qalmış, taleyin ümidinə buraxılmış xalqa məhz Heydər Əliyev özü sahib çıxdı. Bu prosesi düzgün qiymətləndirmək üçün ilk növbədə Azərbaycan tarixinin faciəvi səhifələrindən olan 1987-1993-cü ilin 15 iyununa qədərki həmin dövrün tarixi-siyasi şəraiti təhlil olunmalıdır.

Milli Məclisin 16 iyun 1993-cü il qərarında da ifadə olunduğu kimi, o dövrdə hakimiyyət boşluğu, qanunların işləməməsi, torpaqlarımızın xeyli hissəsinin erməni işğalçıları tərəfindən zəbt edilməsi, əhalinin yoxsulluq səviyyəsinin yüksək olması, respublikanın milli sərvətlərinin cinayətkarcasına talanması, sosial, siyasi və mədəni həyatda qarmaqarışıqlıq, özbaşınalıq, hərc-mərclik 1993-cü ilin iyununa qədərki son bir ilin əsas xarakterik əlamətləri idi. Hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü bütün problemlərin fonunda iki məqsədi hədəfləmişdilər. Birincisi, nəyin bahasına olur-olsun hakimiyyətdə qalmaq və hakimiyyətdə olduqları müddətdə, xalqın sərvətlərini talamaq, bu yolda bütün maneələri dəf etmək, bütün şərtlərlə razılaşmaq. Bildiyiniz kimi, bunun üçün hətta Kəlbəcəri belə xəyanətkarcasına düşmənə güzəştə getmişdilər. İkincisi, onların bu xəyanətkar fəaliyyətinin qarşısını ala biləcək yeganə lider, xalqın tək ümid yeri Heydər Əliyevin fiziki məhvinə nail olmaq.

Təsəvvür edin, ölkə günügündən uçuruma yuvarlandığı, torpaqların işğal olunduğu bir şəraitdə, hakimiyyəti mənimsəməklə xalqa qarşı ən ağır cinayət törədən odövrkü iqtidar xalqın gözünün Naxçıvana dikildiyini görərək bütün potensialını Heydər Əliyevlə mübarizəyə, Naxçıvana qarşı düşmən münasibətə səfərbər etmişdi. Onların bu cılız məqsədləri hədəfləyən aciz psixologiyası, prinsipsizliyi, qətiyyətsizliyi və kor-koranə addımları xalqın səbrini son həddə çatdırmış, ölkədə ciddi narazılıq yaratmışdı. Məhz AXC-Müsavat iqtidarının yarıtmazlığı nəticəsində "mərkəzi hakimiyyətə" tabesizlik göstərən qanunsuz dəstələr meydana çıxmağa başladı. Vəziyyətdən çıxmaq üçün AXC-Müsavat cütlüyünə "günah keçisi" lazım idi və qurban kimi belə qanunsuz dəstələrdən birinə başçılıq edən və milli məsələlərə münasibəti heç də Xalq Cəbhəsi xəyanətkarlarından fərqlənməyən Surət Hüseynov seçildi. O, satqınlıqda və xəyanətdə ittiham edilərək ona qarşı təqibetmə kampaniyasına başlandı və dövrün iqtidarı siyasi hakimiyyətdəki "uğur"larını hərbi sahədə də təkrarladılar.

Cəbhədə ağır döyüşlər getdiyi halda AXC-Müsavat iqtidarı Gəncəyə məqsədyönlü şəkildə Silahlı Qüvvələrin bütün növlərindən ibarət genişmiqyaslı hərbi qüvvələr, hətta hərbi hava hissələri cəlb etdilər. Vətəndaş müharibəsi nəticəsində 35 nəfər həlak oldu, 130 nəfər isə yaralandı. Milli Məclisin 5 iyun 2020-ci il tarixli iclasında sədrin birinci müavini hörmətli Əli Hüseynlinin çox dəqiqliklə ifadə etdiyi kimi, "qiyamı törədən qüvvələrlə həmin qiyamın qarşısını almağa çalışan qüvvələr eyni cinayəti törətdilər".

Dəhşətlisi odur ki, bu cinayətlər yalnız qardaş qırğınında ehtiva olunmurdu. Qarşıdurma hakimiyyət böhranına gətirib çıxarmış, orduda nizam-intizam xeyli zəifləmiş, nəticədə Ermənistan tərəfindən Ağdam, Füzuli, Cəbrayıl istiqamətlərində hücumlar şiddətlənmiş, ciddi itkilər verilmiş, strateji mövqelər itirilmiş və bu rayonların işğalı labüdləşmişdi. Dövlətin kadr siyasətinin Azərbaycan Xalq Cəbhəsinin olmayan potensialına söykənməsi, bir qayda olaraq, ancaq populist və başıpozuq, özü barədə əsassız yüksək qənaətdə olan "meydan yetişdirmələri"nin irəli çəkilməsi, şəxsi sədaqət, dostbazlıq, qohumbazlıq prinsiplərinə görə vəzifələrə təyinat idarəçiliyi daha da böhrana sürükləyirdi. Bir sözlə, yaşanan proseslərin, o cümlədən Gəncə hadisələrinin timsalında o dövrün getdikcə mürəkkəbləşən ağır situasiyası ozamankı hakimiyyətin səbatsız siyasətinin nəticəsi və məntiqi yekunu idi. Belə bir vəziyyətdə nəinki xalqın, eyni zamanda xəyanətkar və qorxaq AXC-Müsavat cütlüyünün özünün də yeganə ümidi Heydər Əliyevə qalmışdı.

Heydər Əliyevin xalqın təkidli tələbi ilə paytaxta qayıtdığı həmin periodlarda özlüyündə daha iki həqiqəti meydana çıxarmışdı. Birincisi, AXC-Müsavat iqtidarının səbatsız, prinsipsiz və talançı olduğu qədər həm də qorxaqlardan ibarət olmasını. İkincisi, Azərbaycan xalqı bir daha gördü ki, bu cür qorxaq və prinsipsiz bir hakimiyyət dövləti daha da uçuruma aparır və hakimiyyətin yeganə mənbəyi kimi xalq bu satqınların hakimiyyət yolunu birdəfəlik bağladı.

Heydər Əliyev hakimiyyətə gəldikdən bir il keçməmiş artıq ordu quruldu, əks-hücumla Cəbrayılın, Füzulinin kəndləri, Horadiz qəsəbəsi düşməndən azad olundu, Ermənistan o zaman bizim çox ehtiyacımız olan atəşkəsə məcbur edildi. Sonrakı dövrdə atılan addımlar, başlanan şərəfli yol barədə saatlarla danışmaq olar.

Ümumiyyətlə, 15 iyun Heydər Əliyevin Azərbaycan xalqının xilaskarı, dövlətçiliyin və milli məfkurənin qurtarıcısı kimi çıxış etdiyi ilk tarixi proses olmayıb. Hələ, 1969-cu ilin 14 iyulunda Ümummilli Liderin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə Azərbaycan geri qalmış ucqar subyektdən SSRİ-nin iqtisadi flaqmanına çevrildi, mədəniyyət, incəsənət, ədəbiyyat intibah dövrünə qədəm qoydu. Müstəqilliyin bərpası üçün bazis də məhz bu dövrdə formalaşmağa başladı. Heydər Əliyevin qurduğu sənaye, inkişaf etdirdiyi iqtisadiyyat, yaratdığı hərbi təyinatlı təhsil müəssisələri, formalaşdırdığı və qoruduğu milli elita elə sovet dövründəcə Azərbaycana müstəqil davranmaq imkanı verdi. Hətta çəkinmədən demək olar ki, Heydər Əliyevin Sovet Azərbaycanı AXC-dən heç də az müstəqil deyildi, 1991-1993-cü ilin Azərbaycanından daha çox müstəqil idi.

Tarixdən bəllidir ki, sovet hakimiyyətinin ilk illərində bolşeviklər kommunist ideologiyasına bağlı olmayan hər şeyin üzərindən xətt çəkirdilər. Nə qədər qəribə olsa da, SSRİ süquta uğrayandan sonra bu düşüncə vandalizmi Azərbaycanda yenidən baş qaldırdı. Bolşeviklərin muzdurlar şurasından fərqli olmayan AXC-Müsavat cütlüyü sovetlərə bağlı nə varsa, hər şeyə nifrət aşılamağa, hətta Böyük Vətən müharibəsi iştirakçılarını belə xainlikdə suçlamağa başladılar. Bunun bir səbəbi var idi, Heydər Əliyevə olan kin və düşmənçilik. Bilirdilər ki, xalq Əliyev kimi bir dahini qoyub bunlara üz tutmayacaq. Ona görə də Heydər Əliyevi SSRİ və DTK ilə assosiasiya edərək gözdən salmaq istəyirdilər. Amma xalq bilirdi ki, Heydər Əliyev şərəfli general kimi DTK sədri olanda da, Azərbaycana rəhbərlik edəndə də, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olanda da həmişə milli olub. Əks halda 1988-1989-cu ildə meydan hərəkatında olanlardan çox Heydər Əliyev məhrumiyyətlərə məruz qalmazdı.

Ümumiyyətlə, bu gün qərəzsiz və səmimiyyətlə düşünən hər bir azərbaycanlı yaxşı başa düşür ki, Heydər Əliyev milli özünüdərkdir, bizim müasir müstəqillik təfəkkürümüzün banisidir.

Bu gün Heydər Əliyevin davam edən yolu, siyasi xətti müstəqilliyin, suverenliyin, inkişaf və tərəqqinin yeganə qarantıdır. Tarix özü ən azı iki dəfə göstərib ki, Azərbaycan dövləti yalnız Heydər Əliyev yolunda yürüdükcə var olur, güclənir.

Bu gün Heydər Əliyev artıq siyasətüstü dəyərdir. İstər iqtidar, istər müxalifət komandası olsun, bu ölkədə, bu regionda yalnız bu yola söykənib xalqa xidmət etmək və uğur qazanmaq olar. Bu yol bizi Qarabağa, Şərqi Zəngəzura apardı, hazırda da 300 mindən artıq soydaşımızın üzü Göyçəyə, İrəvana və Qərbi Zəngəzuradır. Bu mənada, Heydər Əliyevin bu xalq qarşısında ən böyük xidmətlərindən biri də məhz dövlətçiliyin, milli iradəni ifadə edən siyasi xəttin davamlılığını cənab İlham Əliyevin timsalında təmin etməsi oldu.

Biz, adətən, ata vəsiyyətinə istinad edərkən Zəfərimizə fokuslanırıq, amma unutmayaq ki, Heydər Əliyev həm də böyük haqq və hüquq adamı idi. Onun digər vəsiyyəti özünün şah əsəri olan Azərbaycan Konstitusiyasının 8-ci maddəsində ehtiva olunur. Cənab İlham Əliyev necə ki şanlı Zəfəri ilə son 200 ildə qarşıda duran əsas ümummilli vəzifəni həll etməklə ata vəsiyyətini yerinə yetirdi, eləcə də həyata keçirdiyi ardıcıl sosial-iqtisadi, hüquqi və diplomatik addımlarla Ulu Öndərin dövlətçilik konsepsiyasını reallaşdırdı.

Bu gün dövlət başçısı, sözün əsl mənasında, xalqının vahidliyini təcəssüm etdirir, Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, o cümlədən məhkəmə hakimiyyətinin müstəqilliyinin, sözün əsl mənasında, təminatçısı və harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların hamisidir.

Azərbaycan xalqının isə qarşısında hazırda yalnız bir vəzifə var, cənab İlham Əliyevin ətrafında sıx birləşmək. Ən azı mövcudiyyətimizi qorumaq, böyüyən övladlarımızın xoşbəxt həyatı, təhlükəsizlik, sabitlik və inkişaf, müstəqillik, suverenlik və ən əsası zəfərlərimizin davamlılığı naminə bu yol davam etməlidir.

**Bəhruz MƏHƏRRƏMOV,**
***Milli Məclisin deputatı***



## Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə

31



# Şuşa Bəyannaməsi - əbədi qardaşlıq rəmzi

**Azərbaycan-Türkiyə əlaqələri tarixinin əlamətdar hadisəsi olan Şuşa Bəyannaməsinin imzalanmasından üç il ötür. Azərbaycanın qurtuluş günündə, tarixi Qars müqaviləsindən yüz il sonra iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair imzalanan bu bəyannamə ilə əzəldən var olan əlaqələrimiz daha yüksək zirvəyə ucalıb.**

"Bu gün Müttəfiqlik Bəyannaməsini əsas götürərək biz bütün məsələlərdə bir yerdəyik, bir nöqtəyə vururuq. Biz öz gücümüzə güc qatırıq və təbii ki, türk dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək", - deyə bu ilin fevralında Ankarada Prezident İlham Əliyevin bəyan etdiyi kimi, bütün məsələlərdə ortaq mövqedən çıxış edən, qarşılarına çıxan bütün problemlərlə birgə mübarizə aparan, ay-ulduzlu bayraqları qoşa dalğalanan bu qüdrətli türk dövlətlərinin qardaşlığı, dostluğu, həmrəyliyi, ümumilikdə türk dünyasının möhkəmlənməsinə, güclənməsinə, dünyada söz sahibi olmasına mühüm töhfələr verir.

## Azərbaycan tək deyil

Azərbaycanla Türkiyə arasındakı qardaşlıq münasibətləri prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dostluqları və səyləri sayəsində günü-gündən daha da inkişaf edir. Qardaş ölkələr bütün beynəlxalq platformalarda bir-birilərinə dəstək verir, dövlətçiliyimizə, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizmə, işğal siyasətinə qarşı birlikdə mübarizə aparır, bütün məsələlərdə birgə çalışırlar. Haqq savaşına çıxdığımız 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Türkiyənin siyasi, mənəvi dəstəyini ən yüksək səviyyədə hiss etdi. Döyüş meydanında öz gücünə torpaqlarını işğaldan azad edən Azərbaycanın qardaş ölkənin dəstəyini hiss etməsi ona əlavə qüvvət verdi. Müharibə başladığı andan etibarən bəzi güclər ölkəmizə təzyiq göstərməyə çalışsalar da, Türkiyədən ən yüksək səviyyədə gələn açıqlamalar onların qarşısına keçilməz sədd oldu.

Bu il prezident seçkilərindən sonra ilk olaraq qardaş ölkədə dövlət səfərində olan Prezident İlham Əliyev mətbuata bəyanatı zamanı məhz bu məqamı xüsusi vurğulamışdı: "Savaşın ilk saatlarında əziz qardaşımın çox qəti və dəqiq açıqlamaları bir çoxları üçün ciddi mesaj idi və bir çoxlarını bu işə müdaxilə etməkdən kənarda saxladı. Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, siyasi və mənəvi dəstək bizə yetərli oldu və 30 il ərzində sülh vasitəsilə həll edə bilmədiyimiz tarixi məsələmizi biz savaş meydanında cəmi 44 gün ərzində həll etdik".

## Əlaqələr strateji müttəfiqlik səviyyəsinə ucaldı

Azərbaycan-Türkiyə münasibətləri təməl gücünü ortaq tarixi köklərimizdən, dilimizin, dinimizin birliyindən, gündən-günə inkişaf edən qardaşlıq əlaqələrindən alır. Türkiyə ilə sıx münasibətlərin qurulmasında və inkişaf etdirilməsində tarixi xidmətləri olmuş Ulu Öndər Heydər Əliyev iki qardaş ölkənin birliyini "bir millət, iki dövlət" kimi xarakterizə edib.

Tarixi Şuşa Bəyannaməsinin məhz 2021-ci ilin 15 iyununda - Milli Qurtuluş Günündə imzalanmasının isə öz rəmzi mənası var. Həmin əlamətdar gündə Azərbaycan Prezidenti Türkiyə Prezidentini Qarabağda qarşıladı və hər bir azərbaycanlının vətən qibləsi hesab olunan qala şəhərimizdə iki dövlət arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi imzalandı. Türk dünyasının qələbə simvoluna, qürur ünvanına çevrilən Şuşanın azadlığının üzərindən cəmi 7 ay keçdikdən sonra mədəniyyət paytaxtımızda imzalanan bu bəyannamə ilə bir daha dünyaya iki qardaş ölkənin birgəliyinin mesajı çatdırıldı.

Bəyannamədə də təsbit olunduğu kimi, bundan sonra da qardaş ölkələr çətin gündə, xoş gündə bir-birinin yanında olacaqlar: "Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur".

Şuşa Bəyannaməsindəki vacib müddəalardan biri də Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsinə aiddir. Sənəddə müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığın təmin edilməsi vurğulanır. Buraya həmçinin hər iki ölkənin təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir.

Göründüyü kimi, iki qardaş ölkədən hər hansı birinin təhlükəsizliyinin, ərazi bütövlüyünün təhdid edilməsi digəri üçün də təhdid kimi qəbul ediləcək və lazımi tədbirlərin həyata keçirilməsi öhdəliyini yaradacaq.

Şuşa Bəyannaməsi həm də sülh və əməkdaşlığı təşviq etməyə yönəlib. Həmçinin bu tarixi bəyannamə Azərbaycan və Türkiyənin güc mərkəzləri kimi mövqelərinin möhkəmlənməsinə də birbaşa rəvac verib. Bu gün regionla bağlı istənilən layihə, məsələ Türkiyə və Azərbaycanla məsləhətləşmədən həyata keçirilə bilməz.

## Gücümüz birliyimizdədir

"Bizim ordularımız bir yumruq anlamına gəlib, hər il ən azı 10 hərbi təlim həm Türkiyədə, həm Azərbaycanda keçirilir və beləliklə, bizim hərbi gücümüz daha da artır. İkinci Qarabağ savaşı və ondan sonra düz 5 ay əvvəl keçirdiyimiz antiterror əməliyyatı bir daha onu göstərdi ki, Türkiyənin ordu modeli Azərbaycanda artıq tam oturuşub".

Dövlət başçısı İlham Əliyevin bu ilin fevralında Ankarada bəyan etdiyi kimi, Türkiyə-Azərbaycan əməkdaşlığının vacib istiqamətlərindən biri də hərbi sahədə işbirliyidir.

Vətən müharibəsi zamanı peşəkar yerli kadrlarımız tərəfindən idarə olunan türk PUA-ları ilə düşmənin külünün göyə sovrulduğunu dünya gördü.

2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən Zəfər paradında qüdrətli türk dövlətlərinin liderləri İlham Əliyev ilə Rəcəb Tayyib Ərdoğanın çiyin-çiyinə dayanmasının özü də ölkələrimizin güc birliyinin nümayişi oldu.

Bu ilin əvvəlində isə Türkiyənin "Baykar" şirkətinin "Akıncı" hücum PUA-sı Hərbi Hava Qüvvələrimizin hərbi obyektlərində silahlanmaya qəbul edilib.

Bir sözlə, qardaş dəstəyi ilə gücümüz birə-min artıb.

## Qardaş dəstəyi

Tarixin müxtəlif dönəmlərində Azərbaycanın Türkiyəyə çətin günlərində dayaq, dəstək durduğu, qardaş köməyi göstərdiyi məlumdur. Bu gün də ölkəmiz istər dar, istər xoş günündə qardaş ölkənin yanında olur, sevincini də, kədərini də onunla bölüşür. Ötən il fevralın 6-da da qardaş ölkədə baş verən və çoxsaylı insan tələfatına səbəb olan dəhşətli zəlzələ zamanı Türkiyəyə ilk beynəlxalq yardımı məhz Azərbaycan göstərdi.

Həmin vaxt Prezident İlham Əliyevin tapşırığına əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildi.

Ümumiyyətlə, həmin çətin günlərdə ölkəmizin ali şəxslərindən tutmuş, sıravi vətəndaşlarına qədər hər kəs Türkiyənin yanında oldu. Hər kəs əlindən gələn köməyi göstərdi, həm maddi, həm mənəvi şəkildə Türkiyədəki qardaşlarına dayaq-dəstək durmaq üçün səfərbər oldu.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ötən il zəlzələ ilə əlaqədar Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşünün keçirilməsi mühüm əhəmiyyət kəsb etdi.

Digər yardımları ilə yanaşı, ölkəmiz Kahramanmaraşda "Azərbaycan bulvarında" 32 hektar ərazidə 1000 ev və 799 iş yeri inşa edir. Bütün bunlar Azərbaycan-Türkiyə qardaşlığını təcəssüm etdirən nümunələrdir.

## Bir-birimizin yanındayıq

İyunun əvvəlində TÜRKPA nümayəndə heyətini qəbul edən zaman Prezident İlham Əliyev iki ölkə arasında imzalanan Şuşa Bəyannaməsinin əhəmiyyətini bir daha vurğuladı. Eyni zamanda Azərbaycan-Türkiyə müttəfiqliyinin, əməkdaşlığının timsalında ümumilikdə türk dünyasının birliyinin vacibliyinə diqqət çəkdi: "Baxın, Türkiyə və Azərbaycan 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışlar və rəsmi müttəfiq olmuşlar. Yəni bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır. Hər zaman bütün məsələlərdə bir-birimizin yanındayıq. Bir məsələ çıxan kimi, necə deyərlər, avtomatik rejimdə, gözüyumulu bir-birimizin yanındayıq. Bu birlik bütün türk dünyasında olmalıdır və ondan sonra heç kim bizim işimizə müdaxilə edə bilməz".

Azərbaycanın 44 günlük müharibədəki zəfəri türk birliyinin də güclənməsinə rəvac verib. Türk dünyasının həmrəyliyinə verdiyi bu qiymətsiz töhfəsinə görə dövlətimizin başçısı Türk Dünyasının Ali Ordeninə layiq görülüb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə iyulda mədəniyyət paytaxtımız Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi də türk xalqları birliyinin işinə təkan olacaq.

Qısa nümunələrini gətirdiyimiz faktlardan da göründüyü kimi, iki qardaş ölkə arasında əlaqələr hərtərəfli şəkildə inkişaf edir. Üç il əvvəl Milli Qurtuluş Günündə imzalanan Şuşa Bəyannaməsi isə ölkələrimiz arasındakı münasibətləri strateji müttəfiqlik zirvəsinə daşıyıb. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, müttəfiqliyi türk xalqları arasındakı həmrəyliyin inkişafına da yeni yollar açıb.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# "Bir millət - iki dövlət" təntənəsi



**Şuşa Bəyannaməsi dünyaya ilk növbədə Azərbaycanla Türkiyənin qardaşlıq mesajıdır. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci il iyunun 15-də Şuşada imzaladıqları bu bəyannamə iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinə start verdi.**

Ümumiyyətlə, son dövrdə Azərbaycan-Türkiyə münasibətləri hər iki ölkə rəhbərliyinin həyata keçirdiyi siyasət nəticəsində sürətlə inkişaf edib, əlaqələrin səviyyəsi keyfiyyətcə yeni müstəviyə daxil olub. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu əlaqələri daha da gücləndirib. Ən əsası Azərbaycan-Türkiyə əlaqələri bütün türk dünyası üçün mühüm amilə çevrilib və türk dövlətləri arasında münasibətlərin inkişafına güclü təsir göstərir.

Vətən müharibəsində Türkiyə Azərbaycan dövlətinə və xalqına çox yüksək səviyyədə siyasi və mənəvi dəstək göstərdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman ölkəmizin yanında olduğunu bildirdi. Bu birlik, həmrəylik üçüncü dövlətin İkinci Qarabağ müharibəsinə müdaxiləsinə, Ermənistanın açıq şəkildə müdafiəsinə mane oldu. Eyni zamanda Azərbaycan da hər zaman Türkiyənin yanındadır.

Bu birliyin göstəricisi kimi imzalanan Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətlərin hüquqi əsaslarının daha da möhkəmləndirilməsinə yol açıb. Bu baxımdan, bəyannamə müstəsna siyasi və tarixi əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsi həm də keyfiyyətcə daha yüksək iş birliyinin təminatıdır. Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə bu sənədi imzalayarkən Prezident İlham Əliyev Qars müqaviləsini xatırladaraq bildirmişdi ki, yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Hər bir məsələ çox böyük önəm daşıyır".

O zaman Prezident İlham Əliyev Şuşa Bəyannaməsi ilə bağlı iki məsələnin əhəmiyyətini xüsusi qeyd etmişdi. Dövlətimizin başçısı bəyannamədə qarşılıqlı hərbi yardım göstərmək haqqında bəndi vurğulamaqla bu sənədin, məhz müdafiə sahəsində ciddi perspektivləri özündə əks etdirən razılaşma olduğunu diqqətə çatdırmışdı. Bu, təkcə erməni ictimaiyyətinə deyil, eyni zamanda dünya birliyinə də ciddi mesaj idi. Yəni Azərbaycan və Türkiyə bütün sahələrdə, xüsusilə hərbi və müdafiə sənayesi sahəsində müttəfiqdirlər.

Prioritet məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlərdir. Zəngəzur dəhlizi böyük geosiyasi və iqtisadi əhəmiyyətə malikdir. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaq. Zəngəzur dəhlizi vasitəsilə türkdilli dövlətlərin inteqrasiyasının sürətləndirilməsi, Qərblə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişafı baş tutacaq.

Bu bəyannamə postmünaqişə dövründə hərbi-siyasi təhlükəsizliyə və müttəfiqlik münasibətlərinin daha da gücləndirilməsinə müstəsna töhfədir. Bəyannamədə müdafiə məsələlərinin əks olunması elə hərbi-siyasi təhlükəsizliyin təmin edilməsinə - istənilən təhdid və təcavüzün qarşısının alınmasına hesablanıb. Sənəddə deyilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər".

Bəyannamə Ermənistandakı revanşist qüvvələrə də mühüm ismarışdır. Belə ki, Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi cəhdlərin baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını açıq şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır.

**Kamran BAYRAMOV,**
***Milli Məclisin deputatı***



# Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə

31

# Qurtuluşdan zəfərə



**Azərbaycanın müstəqillik tarixinin ən mühüm siyasi hadisələrindən olan 15 İyun Milli Qurtuluş Gününün növbəti ildönümü tamam olur. 31 il öncə Ulu Öndər Heydər Əliyev tərəfindən güclü və müstəqil dövlət quruculuğu missiyası başladı. Bu gün tarixin ən güclü Azərbaycanı kimi möhtəşəm zirvədən 31 il əvvəl respublikamızda baş verən hadisələrə nəzər salanda görürük ki, əgər xalqımızın böyük oğlu Heydər Əlirza oğlu Əliyev olmasaydı, yenicə bərpa etdiyimiz müstəqilliyimiz yenidən itiriləcək, dövlətçiliyimiz tamamilə süqut edəcəkdi.**

## Xalq yalnız Heydər Əliyevə inanırdı

1993-cü ilin ağır, gərgin və keşməkeşli günlərində respublikamızda baş verən siyasi-hərbi proseslər orta və yaşlı nəslin xatirindədir. Hakimiyyətdə olan qüvvələrin idarəçilikdəki kobud səhvlərinin nəticəsi olaraq artıq 1992-ci ilin əvvəllərindən başlayaraq, bir tərəfdən torpaqlarımız mənfur qonşumuz Ermənistan tərəfindən işğal olunur, bir tərəfdən də sapı özümüzdən olan baltaların dəstəyi ilə respublikamızda separatçılıq get-gedə güclənirdi. Bununla yanaşı, ölkəmizdə xaosun və anarxiyanın baş alıb getməsi, iqtisadi tənəzzül və vətəndaşların sosial vəziyyətinin həddən artıq aşağı düşməsi ölkənin gələcəyi baxımından yaxşı heç nə vəd etmirdi.

Bütün bunlar, əlbəttə ki, AXC-Müsavat iqtidarının yarıtmaz siyasətinin nəticəsi idi. İdarəçilikdə buraxılan kobud səhvlər, dövlətin qarşısında duran milli məqsəd və prioritetlərə laqeyd yanaşılması, hərbi hissələrin vahid komandanlığın deyil, ayrı-ayrı şəxslərin əmrində olması, qonşu dövlətlərə qarşı düşmənçilik üzərində qurulan xarici siyasət kursunun həyata keçirilməsi, iqtisadi potensialın tamamilə məhv edilməsi, bir sözlə, ölkəyə rəhbərlik edənlərin öz məsuliyyətlərini və vəzifələrini anlamamaları nəticə etibarilə dərin siyasi, iqtisadi, sosial və hərbi böhrana gətirib çıxarmış, can Azərbaycanımızın taleyini açıq sual altında qoymuşdu.

AXC-Müsavat qaragüruhunun yürütdüyü siyasətin ölkəni uçuruma doğru apardığını insanlar görür və dərin narahatlıq keçirirdilər. Həmin günlərdə cəmiyyətdə Azərbaycanın aydın sabahına olan inamı itsə də, azalsa da, ümidlər hələ tam tükənməmişdi və bunun səbəbi dünyaca tanınmış lider Heydər Əliyev faktoru idi. Qədirbilən xalqımız qəti əmin idi ki, yalnız böyük Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlişi və ölkəyə rəhbərlik etməsi Azərbaycanı problemlərdən xilas edə bilər. O zaman Naxçıvana, Heydər Əliyevin ünvanına göndərilən məktublar da Ulu Öndərə olan ümidin, sonsuz inamın ifadəsi idi.

Bu da təsadüfi deyildi. Çünki Ümummilli Lider Heydər Əliyev hansı vəzifədə çalışmasından asılı olmayaraq, həmişə dövlətə və xalqa xidmətin ən möhtəşəm nümunələrini yaratmışdır. Buna qədər xalqımız Heydər Əliyevin sovet Azərbaycanına və Naxçıvan Muxtar Respublikasına rəhbərliyinin timsalında vətənə xidmətin mükəmməl modellərini görmüş və o illəri yaşamışdır. Sovet dövründə Heydər Əliyevə qədər və ondan sonra respublikamıza bir çox dövlət adamı rəhbərlik edib. Amma onların heç birinin rəhbərliyi milli dəyərlərin qorunmasına bu qədər xidmət etməyib. Bu baxımdan Heydər Əliyev sovet illərində Azərbaycanı yalnız geridə qalmış aqrar respublikadan inkişaf etmiş sənaye mərkəzinə çevirməyib və ya inkişaf göstəricilərinə görə ittifaq üzvləri arasında 14-cü yerdən qabaqcıllar sırasına yüksəltməyib. Heydər Əliyev həm də sovet ideologiyasının hakim olduğu və buna qarşı çıxmağın son dərəcə təhlükəli olduğu bir dövrdə həyata keçirdiyi cəsarətli tədbirlərlə xalqımızın milli-mədəni və mənəvi dəyərlərini yaşatmış, qorumuş, qürurla gələcək nəsillərə ötürmüşdü.

Bütün bunlar onu deməyə əsas verir ki, böyük Heydər Əliyevin tarixi Qurtuluş missiyası, əslində, tariximizin sovet illərindən başlayır. Hansı ki, həmin mərhələdə Ulu Öndər xalqımızı manqurtlaşmadan qorudu, milli-mənəvi dəyərlərimizin itib batmasına imkan vermədi və özü qədər inandığı gələcək müstəqilliyimizin əsaslarını formalaşdırdı.

## Qurtuluşun ilk ünvanı olan Naxçıvan

Azərbaycan xalqı Ulu Öndərimiz Heydər Əliyevin öz xalqına layiqli xidmətinin daha bir nümunəsini ötən əsrin 90-cı illərinin əvvəllərində gördü. Bu həmin dövr idi ki, Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən və Siyasi Büro üzvlüyündən istefa vermişdi. Lakin buna baxmayaraq, Heydər Əliyev yenə də doğma xalqının yanında idi və özünün parlaq siyasi dühası ilə yenicə baş qaldırmış milli azadlıq mübarizəsinin vüsət almasına silinməz töhfələr verirdi. Dahi Şəxsiyyətin hələ 1990-cı ildə 20 Yanvar hadisələrindən dərhal sonra oğlu İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi və böyük cəsarətlə xalqımızın haqq səsini ucaltması milli müstəqilliyə gedən yolumuzun ən önəmli hadisələrindən biridir.

Ulu Öndərin 1990-cı ilin iyul ayında Azərbaycana qayıdışı və daha sonra doğulub boya-başa çatdığı Naxçıvana gəlməsi isə xalqımızın müstəqillik mübarizəsinin tamamilə yeni mərhələyə yüksəlməsinə və daha mütəşəkkil forma almasına yeni yol açdı. Əvvəlcə onu qeyd edim ki, heç bir vəzifə tutmasa belə Ümummilli Liderimiz Heydər Əliyev cəmiyyətdə böyük nüfuza malik idi. Xalqımız SSRİ kimi bir dövlətin rəhbərləri sırasına yüksəlmiş dahi oğluna böyük ehtiram və intəhasız məhəbbətlə yanaşırdı. Elə buna görə Naxçıvana gələn kimi Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə keçirilən seçkilərdə böyük Heydər Əliyevin namizədliyi irəli sürülmüşdü. Üstəlik, iki seçki dairəsindən Heydər Əliyevin namizəd kimi göstərilməsi Ulu Öndərə olan dərin ehtiramın, etibarın və tükənməz ümidin göstəricisi idi.

İctimaiyyət nümayəndələrinin təkidli xahişi ilə 1990-cı ildə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilən Heydər Əliyevin təşəbbüsləri ilə hələ 1990-cı ilin noyabr ayında Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar xalqımızın müstəqillik yolunun ən cəsarətli və ilk siyasi-hüquqi addımları idi. O zaman Ali Məclisin qəbul etdiyi qərarlarla Azərbaycanın üçrəngli bayrağının rəsmi bayraq kimi təsbit olunması, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot edilməsi böyük dövlət xadiminin rəhbərliyində sovet hakimiyyətinə böyük cəsarətlə meydan oxumaq idi.

Dövlətçilik tariximizin şərəfli səhifələrinə çevrilən bu cür siyasi addımların atılması ilə yanaşı, Heydər Əliyev həm də muxtar respublikanın Ermənistan tərəfindən işğal edilməsinə imkan vermədi. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin böyük müdrikliklə həyata keçirdiyi tədbirlər ilk növbədə muxtar respublikanı işğaldan xilas etdi. O illərdə Naxçıvan sakinləri Ulu Öndərin liderliyi ilə silaha sarılaraq qəhrəmancasına, şəhidlər verərək doğma diyarın müdafiəsində dayandı.

Qüdrətli Şəxsiyyət Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsinin diqqətçəkən məqamlarından biri də odur ki, sovet ordusunun hissələri muxtar respublikanı tərk edərkən bütün silah və texnikalarını Azərbaycan Ordusunun hissələrinə təhvil vermişdilər. Bu isə Heydər Əliyevin siyasi uzaqgörənliyi, müdrikliyi nəticəsində mümkün olmuşdu. 1992-ci ilin avqust-sentyabr aylarında sözügedən hərbi hissələrin şəxsi heyətinin Azərbaycanı tərk etməsindən sonra Naxçıvanın müdafiəsi daha da möhkəmləndi. Blokada vəziyyətində olmasına baxmayaraq, bu qədim diyar Ermənistanın təcavüzkarlığının qarşısında qətiyyətlə, mərdi-mərdanə mübarizə apardı.

Naxçıvan yalnız Ermənistanın işğalçılığına görə blokada vəziyyətinə düşməmişdi. Naxçıvanı həm də o dövrdəki Azərbaycan hakimiyyəti blokada vəziyyətinə salmışdı. Belə ki, muxtar respublikadakı iqtisadi və sosial çətinliklərdə mərkəzi hakimiyyət orqanlarının Naxçıvana olan ögey və laqeyd münasibəti böyük rol oynayırdı. Lakin nəhəng və təcrübəli dövlət xadimi Heydər Əliyevin həmin vaxtlar qardaş Türkiyə və İranla yaratdığı əlaqələri Naxçıvandakı mövcud sosial-iqtisadi çətinliklərin azaldılmasında mühüm amil olmuşdu. Ulu Öndərin qətiyyətli siyasəti nəticəsində 1992-ci il mayın 28-də Azərbaycanla qardaş Türkiyə arasındakı "Ümid" körpüsünün istifadəyə verilməsi və digər tədbirlər enerji çatışmazlığından, nəqliyyat blokadasından, sosial-iqtisadi böhrandan əziyyət çəkən muxtar respublikanı bütün labüd fəlakətlərdən xilas etmişdi.

Bütün bunları görən, ümidini itirməyən müdrik xalqımız sevimli oğlu Heydər Əliyevə güvənir, ictimaiyyət nümayəndələri isə Ulu Öndərin rəhbərliyi ilə yeni siyasi partiyanın yaradılmasını arzu və təklif edirdilər. Hətta işğal təhlükəsi ilə üzləşən Qarabağ ictimaiyyətinin nümayəndələri belə Bakıya yox, məhz Naxçıvana gəlir, böyük Heydər Əliyevin respublikamıza rəhbərliyə gəlişini Ondan təkidlə xahiş edirdilər.

Odövrkü hakimiyyət orqanları da bunu bilir, uzaqgörən lider Heydər Əliyevin güclü nüfuzu qarşısında narahatlıq keçirir və ona görə Ulu Öndəri Ali Məclisin Sədri vəzifəsindən müxtəlif vasitələrlə kənarlaşdırmaq istəyirdilər. Amma onların bu niyyəti və cəhdləri Naxçıvan ictimaiyyətinin Heydər Əliyevin ətrafında güclü səfərbər olması səbəbindən baş tutmadı. Hakimiyyətin yaratdığı süni əngəllər Heydər Əliyevin liderliyi ilə yeni siyasi partiyanın yaradılmasının da qarşısını ala bilmədi. 1992-ci ilin noyabr ayında Naxçıvanda Ulu Öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis edilməsi respublikamızın müstəqillik tarixinin böyük siyasi hadisəsinə çevrildi.

Bu hadisələrin hər biri dünya lideri Heydər Əliyevin yenicə müstəqillik əldə etmiş Azərbaycanı növbəti dəfə xilas etməsinin ilk addımları idi. Bu mənada görkəmli dövlət xadimi kimi Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsi Ulu Öndərin müstəqillik illərində həyata keçirdiyi Qurtuluş missiyasının başlanğıcıdır, desək, yanılmarıq.

## Ulu Öndər dövlətçiliyimizi qorudu, müstəqilliyimizi xilas etdi

Təsis konfransından bir neçə ay sonra YAP-ın artıq on minlərlə üzvü vardı və bu kütləvilik yalnız Heydər Əliyevə inamdan irəli gəlirdi. YAP müxalifət partiyası kimi yaranmışdı, lakin bugünkü bəzi müxalifət partiyalarından fərqli olaraq, xalqa, dövlətçiliyə qarşı müxalifətdə deyildi. YAP o vaxt hakimiyyəti zəbt edən, respublikamızı anarxiya və xaos burulğanına salan, yeni qazanılmış müstəqilliyimizi itirilmək təhlükəsi qarşısında qoyan hakimiyyətə qarşı müxalifətdə idi.

1992-1993-cü illlərin məlum hadisələri, ölkəni bürüyən siyasi böhran, nəhayət, böyük Heydər Əliyevin Bakıya gəlişini tarixi zərurətə çevirmişdi. İflasa uğramış ozamankı iqtidar mənsubları da vəziyyətdən çıxış yolunu məhz Heydər Əliyevin Bakıya dəvət edilməsində görürdü. Hansı ki, buna qədər özlərinə əsas təhlükə, ən qorxulu rəqib kimi xalqın içərisində böyük hörməti və nüfuzu olan Heydər Əliyevi hesab edir və onu necə sıradan çıxarmaq barədə düşünürdülər.

1993-cü ilin iyun ayının əvvəllərində baş verən Gəncə hadisələrindən sonra ölkədəki siyasi-hərbi böhran artıq pik nöqtəsinə çatmışdı. Bir tərəfdən torpaqlarımız işğal olunur, digər tərəfdən isə separatçılar Azərbaycanı parçalamaq üçün yeni planlarını işə salmışdılar. Belə vəziyyətdə təkidli xahişləri nəzərə alan xalqımızın dahi oğlu Heydər Əliyevin 1993-cü il iyun ayının 9-da Naxçıvandan Bakıya gəlişi xalqımızın məhv olmaqda olan ümidlərini özünə qaytardı, ölkəsinin taleyini düşünən hər bir vətədaşımızın sabaha olan inamını bərpa etdi.

Yalnız Heydər Əliyevin Bakıya gəlişindən sonra ağır sarsıntılar içərisində olan narahat cəmiyyətimiz rahat nəfəs aldı, hər kəsin çiynindən sanki ağır yük götürüldü. Bütün xalq tam əmin idi ki, xalqımızın seçilən və sevilən oğlu Heydər Əliyevin proseslərə müdaxiləsi ilə respublikamızın başının üstünü almış təhlükələr aradan qalxacaq. Xalq isə yanılmırdı, çünki Heydər Əliyev kimi görkəmli dövlət xadimi, zəngin siyasi təcrübəsi olan bir siyasətçi üçün siyasət meydanında həlli mümkünsüz olan məsələ yox idi. Bakıya gəldikdən sonra xilaskarlıq missiyasına başlayan, parlamentə sədr seçilmək barədə iqtidarın və deputatların xahişini qəbul etməyərək yaranmış vəziyyətlə yerində tanış olmaq üçün Gəncəyə səfər edən Heydər Əliyev döyüş meydanına çevrilmiş hərbi hissələrin ərazisini gəzdi, şəhər sakinləri, hərbi qulluqçularla görüşüb söhbət etdi. Heydər Əliyevin bu müdrik addımı xalqda böyük ruh yüksəkliyi yaratdı. Bu səfər real siyasi və hərbi proseslərə böyük təsir göstərdi və ilk növbədə qardaş qırğınının, vətəndaş qarşıdurmasının böyüməsinin qarşısını aldı.

Azərbaycan ictimaiyyətinin arzu və gözləntilərinin, o cümlədən ölkədəki bütün siyasi partiyaların vəziyyətdən çıxış yolu ilə bağlı mövqelərinin əsas nəticəsi kimi Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi müstəqillik və dövlətçilik tariximizin dönüş məqamına çevrildi. Bu siyasi qərar bütün xalqımızın dahi şəxsiyyət Heydər Əliyevə olan dərin inamının təntənəsi idi. Heydər Əliyev hər siyasətçinin öhdəsindən gələ bilməyəcəyi missiyanı qətiyyətlə yerinə yetirdi, dövlətçiliyimizi və müstəqilliyimizi labüd məhvolmadan xilas etdi. Bu, özünün dediyi kimi, ömrünün qalan hissəsini də xalqına həsr edən böyük Heydər Əliyevin xalq və dövlət qarşısındakı əvəzolunmaz fədakarlığı oldu.

31 il əvvəl xalqımızın taleyinin, dövlətçiliyinin müqəddəratının həll olunduğu ən ağır günlərdə Ulu Öndər Heydər Əliyevin idarəçilik sükanının arxasına keçməsi, əslində, onun ölkəmizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Aradan illər ötdükcə, zaman kəsiyi uzandıqca, can Azərbaycanımız daha da gücləndikcə, inkişaf etdikcə, Heydər Əliyevin o ağır dövrdə gördüyü işlərin mahiyyətini, məzmununu, Ulu Öndərin həmin mürəkkəb şəraitdə hansı çətinliklərə qalib gəldiyini daha dərindən anlayırıq. Ona görə iyunun 15-nin Milli Qurtuluş Günü kimi əbədiləşdirilməsi Heydər Əliyevin tarixi missiyasına verilən layiqli ümumxalq qiymətidir.

Müasir Azərbaycanın, sözün əsl mənasında, müstəqilliyinin tarixi məhz Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilməsindən sonra başlayır. Ulu Öndər dövlətçiliyimizə qənim kəsilən dairələrin xaos yaradıb müstəqil Azərbaycanı parçalamaq planlarını puça çıxardı, dövlətçiliyimizin və müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin etdi. Dövlətçiliyimizin etibarlı təməllərini yaradan, hüquqi dövlət quruculuğunu həyata keçirən, Azərbaycanı inkişaf yoluna çıxaran böyük lider Heydər Əliyev öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə çevrildi.

## Ata Heydər Əliyev yolunun və Oğul İlham Əliyev siyasətinin təntənəsi

Ümummilli Lider Heydər Əliyevin əmanəti və şah əsəri olan müstəqil Azərbaycan bu gün etibarlı əllərdədir. Xalqımız illərdir ki, Ümummilli Lider Heydər Əliyevin yoluna və Prezident İlham Əliyevin siyasi kursuna heç bir alternativi qəbul etmir. Çünki bu yol və bu siyasət qüdrətli, azad Azərbaycan, güclü dövlətçilik, sarsılmaz müstəqillik və inkişaf yolu deməkdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz uğurlar ilk növbədə ondan xəbər verir ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası layiqincə davam etdirilir, Onun ideyaları reallaşır. Ona görə ötən 21 il tariximizə inkişaf, quruculuq, müstəqilliyimizin və dövlətçiliyimizin daha da qüdrətləndiyi illər kimi yazılıb. Prezident İlham Əliyevin müdrik siyasətinin ən mühüm nəticələrindən biri kimi Azərbaycan tarixinin ən qüdrətli dövlətinə, dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün soydaşlarımızın qürur mənbəyinə, ümid yerinə çevrilib.

Böyük Heydər Əliyevin ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı idi. Respublikamıza rəhbərliyinin ilk günündən Prezident İlham Əliyev Azərbaycanın heç vaxt torpaqlarının işğal altında qalması ilə barışmayacağını və doğma ərazilərini nəyin bahasına olursa-olsun, azad edəcəyini bəyan etdi. Cənab Prezident ilk növbədə Azərbaycanı inkişaf yoluna çıxarmaqla, tarixinin ən qüdrətli dövlətinə çevirməklə, həm də Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün zəmin hazırladı. Bu baxımdan 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi Müzəffər Ali Baş Komandanın, cənab İlham Əliyevin Prezidentlik fəaliyyətinin təntənəsinə çevrildi. Ötən ilin sentyabrında ərazilərimizdə qara yaraya çevrilmiş erməni separatizminə birdəfəlik son qoymaqla dünyaca tanınmış siyasi lider, xalqımızın sevimli oğlu İlham Heydər oğlu Əliyev növbəti tarixi missiyanı qətiyyətlə və şərəflə yerinə yetirdi. Bütün bunların məntiqi davamı olaraq, Azərbaycanla Ermənistan arasında dövlət sərhədi xəttinin delimitasiyası və demarkasiyası prosesi çərçivəsində Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal edilmiş 4 kəndinin bir güllə belə atılmadan azad edilməsi Prezident İlham Əliyevin xalqımıza yaşatdığı növbəti bir qələbə idi.

Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda başlanan bərpa və quruculuq işləri bu gün sürətlə davam edir, keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. Şuşa, Laçın, Füzuli, Xocalı şəhərlərinə, Laçın rayonunun Zabux və Sus, Zəngilanın Ağalı, Tərtər rayonunun Talış kəndlərində artıq məskunlaşma var və Böyük qayıdış artıq davamlı prosesə çevrilib.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzuları Azərbaycanın yüksəlişi, torpaqlarımızın azadlığı, məcburi köçkünlərin doğma yurdlarına qayıdışı idi. Öz tarixi missiyası ilə Ulu Öndərin bu müqəddəs arzularını Milli Ordumuzun, qəhrəman vətən övladlarımızın fədakarlığı ilə, özünün böyük qətiyyətilə reallaşdıran Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Heydər Əliyevin həm də ata vəsiyyətini layiqincə yerinə yetirir. Ona görə artıq Ulu Öndərimizin ruhu şaddır, rahatdır, çünki müstəqil Azərbaycan sahib olduğu gücü, qüdrəti ilə Onun istədiyi səviyyəyə yüksəlib. Vaxtilə müstəqilliyini itirmək təhlükəsi qarşısında qalan respublikamız artıq elə bir mərhələyə qədəm qoyub ki, istənilən taleyüklü problemi həll etməyə qadirdir.

Hər birimizin qarşısında dayanan ən ümdə mənəvi vəzifələrdən biri harada və hansı vəzifədə çalışmağımızdan asılı olmayaraq, öz işimizlə, fəaliyyətimizlə ölkəmizdə gedən inkişaf proseslərinə dəstək vermək, bu məqsədlə Müzəffər Sərkərdə, Prezident İlham Əliyevin siyasi kursu ətrafında daha sıx səfərbər olmaqdır. Düşünürəm ki, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti bu baxımdan hər birimiz üçün böyük nümunədir, müqayisəsiz, mükəmməl örnəkdir. Onu qeyd edim ki, Ümummilli Lider Heydər Əliyev məktəbinin layiqli yetirmələrindən olan Mehriban xanım Əliyevanın Birinci-vitse prezident kimi fəaliyyəti müstəqil Azərbaycanın dövlət quruculuğu prosesinin modernləşməsinə və davamlı islahatlarla təkmilləşməsinə böyük töhfələr verir. Eyni zamanda Mehriban xanım Əliyevanın idarəçilik üslubu dövlət aparatının daha da mükəmməlləşməsinə xidmət edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın bu missiyası respublikamızın davamlı inkişafına, ölkəmizdə mənəvi mühitin daim təmizliyinə, vətəndaş cəmiyyətinin möhkəmlənməsinə, beynəlxalq əlaqələrin genişlənməsinə və vətəndaşların sosial rifahının daha da yaxşılaşdırılmasına yönəlib.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun fəaliyyəti bütün Azərbaycan cəmiyyətinin, xalqımızın qürur mənbəyidir. Ulu Öndərin ideyalarını və irsini yaşatmaq üçün ictimai həyatın müxtəlif sahələrində Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr və proqramlar ilk növbədə Azərbaycanın yüksəlişinə, vətəndaş məmnunluğuna xidmət edir və xalqımız tərəfindən həmişə rəğbətlə qarşılanır. Bir sözlə, xanım Mehriban Əliyevanın respublikamızın idarəçiliyindəki uğurlu fəaliyyətinin, yüksək göstəricilərinin təməlində həm də Onun məhz Azərbaycanın sayılan-seçilən böyük bir ziyalı nəslinin yetirməsi olaraq sonradan Ulu Öndər Heydər Əliyev ailəsində təkmilləşməsi, ictimai-siyasi xadim kimi, Prezident İlham Əliyevin siyasi silahdaşı kimi vətənə və xalqa layiqli xidmət məramı dayanır.

Prezident İlham Əliyevin ən fədakar silahdaşı olaraq xanım Mehriban Əliyevanın vətənə xidmətinin daha bir nümunəsi Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işlərinə rəhbərlik etməsidir. Bütün bunlar həm də Mehriban xanım Əliyevanın vətən-Azərbaycan sevgisindən, öz xalqının milli-mədəni və mənəvi dəyərlərinə son dərəcə bağlılığından xəbər verir.

Ərazi bütövlüyümüzün bərpasından sonra tarixinin yeni dövrünə qədəm qoyan Azərbaycanda sosial-iqtisadi inkişafın da yeni mərhələsi başlayıb. Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsinin artırılması ilə bağlı müzakirələrin başlanması da ilk növbədə inkişafdan xəbər verir. Bu inkişafın göstəricisi kimi Qurtuluşun ilk ünvanı olan Naxçıvan Muxtar Respublikası da intibahının müasir dövrünü yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısının, qarşıya qoyduğu vəzifələrin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu ilin əvvəlindən muxtar respublikada sosial-iqtisadi sferada mühüm uğurlar əldə olunub. Məsələn, cari ilin yanvar-aprel aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalı 424 milyon 762 min 800 manat olmuşdur ki, bu da 2023-ci ilin müvafiq dövründəki göstəricidən 2,6 faiz çoxdur. Bu dövr ərzində bölgə əhalisinin hər nəfərinə düşən ümumi daxili məhsul istehsalı isə 2 faiz artaraq 905,9 manat təşkil edib.

Təkcə 2024-cü ilin yanvar-may ayları ərzində muxtar respublikanın büdcəsinə bu iqtisadi rayonun yol vergisi üzrə 2 milyon 45 min manat proqnoza qarşı 10 milyon 460 min manat vəsaitin daxil olması və bu vəsaitin nəzərdə tutulan proqnozdan 8,4 milyon manat,yaxud 412 faiz çox olması qısa müddət ərzində muxtar respublikada, əslində, bütün sahələrdə baş verən mütərəqqi dəyişikliklərin göstəricisidir. Naxçıvan Muxtar Respublikasında Prezident İlham Əliyevin qarşıya qoyduğu bütün tapşırıqların, dövlət proqramlarının icrasının yeni idarəçiliklə, Naxçıvanda səlahiyyətli nümayəndəliyin rəhbərliyi ilə layiqincə və ən qısa zamanda həyata keçirilməsi, bütövlükdə əldə olunan bu uğurlar bir daha göstərir ki, Prezident İlham Əliyevin yeni islahatları bütün sahələrdə olduğu kimi, iqtisadi rayonlar üzrə də praktik şəkildə özünü doğrultmaqdadır.

31 il əvvəl, tariximizin ağır günlərində təsəvvür belə etməzdik ki, vaxt gələcək müstəqil Azərbaycan güclü, qüdrətli dövlətə, beynəlxalq birliyin nüfuzlu, layiqli üzvünə çevriləcək. Lakin bütün bunlar indi reallıqdır və vaxtilə böyük Heydər Əliyevin xilas edərək inkişaf yoluna çıxardığı Azərbaycan artıq özünün azad, müstəqil yolu, qətiyyətli siyasi kursu olan, cazibəsi, inkişafı ilə fərqlənən qürurlu bir dövlətdir.

*Bu gün Ulu Öndərimiz Heydər Əliyev yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə tariximizin yeni şərəfli səhifələri yazılır. Qurtuluşla başlanan və Zəfərlə davam edən şanlı tariximiz təsdiq edir ki, Ümummilli Lider böyük Heydər Əliyev yolu və Prezident İlham Əliyev siyasəti müstəqil Azərbaycanın dönməz yüksəlişinin yeganə təminatçısıdır.*

**Bəxtiyar ƏSGƏROV,**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***



## Azərbaycanın QURTULUŞ salnaməsi:
## Heydər Əliyevdən İlham Əliyevə

31



# Böyük uğurların başlanğıcı

## Əbədi müstəqillik və azadlıq yolu



**Bəzi tarixi günlər xalqın gələcəyini müəyyən edən böyük başlanğıcların əsasını qoyur, onun taleyini dəyişir. Bu baxımdan, 15 iyun 1993-cü il milli təqvimimizə Azərbaycanın dövlətçilik və müstəqillik tarixinin dönüş nöqtəsi, xalqımızın xilasının, dövlətimizin qurtuluşunun ifadəsi kimi daxil olub.**

Milli Qurtuluş Günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Başqa sözlə, Qurtuluş Günü Azərbaycanın müasir tarixində sabitliyin, milli birliyin bərpasını simvolizə edir, gələcək nəsillərə vətənpərvərlik və dövlətçilik dəyərlərini aşılamaq üçün mühüm bir vasitədir. Keçilmiş yolun çətinliklərindən dərs almağı, gələcək üçün daha möhkəm və müstəqil bir Azərbaycan qurmağı şərtləndirir.

Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan qurtuluş məfkurəsi, eyni zamanda, Azərbaycan xalqının xilaskarlıq salnaməsidir. Dahi Öndər həmin tarixi mərhələni belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Prezident İlham Əliyev həmin dövrlə bağlı qeyd edir ki, Azərbaycan xalqı bir daha öz müdrikliyini göstərərək Ulu Öndərə üz tutdu, ona müraciət etdi və onu hakimiyyətə dəvət etdi: "1993-cü il müasir tariximizdə həlledici dönüş nöqtəsidir. Tam qətiyyətlə deyə bilərəm ki, əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, bugünkü Azərbaycanın mövcudluğu hətta şübhə altına düşə bilərdi".

1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərində xalqın böyük etimadı ilə Azərbaycan Prezidenti seçilən Heydər Əliyevin 10 illik (1993-2003) hakimiyyət illəri tariximizə sabitlik və inkişaf dövrü kimi düşdü. Ulu Öndər dövlətçilik tariximizdə siyasi varislik erası və ənənələrini yaratmaqla davamlı inkişaf üçün etibarlı zəmin yaratdı.

Ümummilli Lider Heydər Əliyevin müdrikliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və dövlətçilik bacarığı sayəsində Azərbaycan qısa müddət ərzində dövrün kataklizmlərindən uğurla çıxaraq, gələcəyə inamla baxan dövlətə çevrildi. Praqmatik və balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanı etibarlı tərəfdaşa çevirdi. Həmçinin Azərbaycan həqiqətlərinin, keçmiş Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynadı. Azərbaycanın ətrafında yaradılan informasiya blokadası yarıldı. Dahi şəxsiyyət, eyni zamanda bu çağırışı da edirdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordu olmalıdır. Ölkəmizdə nizami ordu formalaşdı, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində davamlı addımlar atıldı.

Ulu Öndər iqtisadi müstəqilliyi Azərbaycanın qüdrətlənməsi, ölkə əhalisinin sosial müdafiəsinin etibarlı təminatı üçün başlıca şərt kimi görürdü. Qısa müddət ərzində Azərbaycan iqtisadiyyatında dərin islahatlar həyata keçirildi. Neft sənayesinin inkişafı və xarici investisiyaların cəlb edilməsi nəticəsində ölkə iqtisadiyyatında böyük irəliləyişlər əldə edildi. Bu islahatlar Azərbaycanın iqtisadi müstəqilliyini təmin etdi və xalqın yaşam səviyyəsini yüksəltdi. Ulu Öndərin iqtisadi strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illərdə 71 faiz, 2002-ci ildə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 1993-cü ilə nisbətən 36,3 dəfə artdı. Əgər 1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənərək 128 dövləti əhatə etdi. Həmçinin 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artdı.

Həmin dövrdə həyata keçirilən rasional xarici siyasət kursunun mühüm istiqamətlərindən birini enerji resurslarından səmərəli istifadə olunması və bu kontekstdə Azərbaycanın etibarlı strateji tərəfdaşa çevrilməsi təşkil edirdi. 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişinin imzalanmasından sonra elə həmin il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu. Ölkəmizə gətirilən xarici sərmayə iqtisadi böhrandan çıxış yolu oldu. Beləliklə, bir çox sahədə uğurlarımızın iqtisadi rıçaqlarını təşkil edən "Heydər Əliyevin neft strategiyası"nın əsası qoyuldu. "Əsrin müqaviləsi" sonrakı mərhələdə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi Ərzurum, "Cənub qaz dəhlizi", eyni zamanda "Yeni əsrin müqaviləsi" kimi unikal layihələrin reallaşmasına yol açdı. Geosiyasi mühitin mürəkkəbləşdiyi müasir dövrdə vaxtilə uzaqgörənliklə düzgün müəyyənləşdirilmiş enerji siyasəti nəticəsində Azərbaycan bu gün Avropanın enerji arxitekturasının formalaşmasında etibarlı tərəfdaş kimi çıxış edir.

1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Bununla da ölkədə daha genişmiqyaslı islahatların aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlanıldı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin, ombudsman təsisatının və digər mühüm institutların yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı.

Ulu Öndər bütün fəaliyyəti dövründə insan amilinə böyük dəyər vermişdir. Xüsusilə hər bir Azərbaycan vətəndaşının həyatı onun üçün əziz idi. Bu səbəbdəndir ki, bilavasitə onun təşəbbüsü ilə ilk milli Konstitusiyamızın bütün maddələrində insan amilinə diqqət, dövlətçiliyin möhkəmləndirilməsi üçün vətəndaşların üzərinə düşən vəzifələr tam aydınlığı ilə müəyyənləşdirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünün ləğv olunması, amnistiya aktları və əfv sərəncamları ilə azadlıqdan məhrum edilmiş minlərlə məhbusun cəzasının çəkilməmiş hissəsindən azad olunması insan amilinə diqqətin nümunəsi kimi dəstəkləndi. Ümummilli Lider Heydər Əliyevin fərmanı əsasında senzuranın ləğvi, sözün həqiqi mənasında, azad, müstəqil mətbuatın formalaşmasında həlledici rol oynadı. 1998-ci il avqustun 6-da "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanın imzalanması ilə ölkə mətbuatının inkişafında yeni bir mərhələnin başlanğıcı qoyuldu.

Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin bir hissəsi yaradıcısı olduğu və hazırda ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası ilə sıx bağlıdır. 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis olunması və Ümummilli Liderin partiyaya Sədr seçilməsi faktiki olaraq Azərbaycanda müasir siyasi sistemin yaranmasını şərtləndirdi. Yeni Azərbaycan Partiyası yarandığı gündən tutduğu yola sadiqliyi, söz ilə əməl birliyi sayəsində milyonların sevgisini qazandı, cəmiyyətin avanqard qüvvəsinə çevrildi.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Azərbaycanı bütöv, Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Ümummilli Lider məcburi köçkünlərlə görüşlərinin birində bildirmişdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu - biz onlarsız yaşaya bilmərik".

44 günlük İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Zəfər də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyev 8 noyabr 2020-ci ildə Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!" fikirləri ilə 20 illik prezidentlik dövrünün əsas hədəflərini reallığa çevirdiyi üçün keçirdiyi hissləri daima güc aldığı və yanında olduğu xalqımızla bölüşdü. 44 günlük Vətən müharibəsindən sonra qısa müddət ərzində cənab Prezidentin son dərəcə düşünülmüş praqmatik siyasəti nəticəsində Azərbaycan öz ərazisini və suverenliyini tam bərpa etdi. Cənab Prezident bu il fevralın 7-də keçirilən prezident seçkilərində Xankəndidə səs verməklə ölkə ərazisində separatizmə son qoyulduğunu bir daha nümayiş etdirdi. Bu, XXI əsrin hərb tarixində görünməmiş qalibiyyətdir.

Tarixi Zəfərdən keçən qısa müddət ərzində bilavasitə cənab Prezident İlham Əliyevin ciddi nəzarəti və Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanıldı. Bu gün işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir. Azad Qarabağ və Şərqi Zəngəzur cənnətməkana çevrilir. Aparılan genişmiqyaslı tədbirlər nəticəsində həmin torpaqların əsl sahibləri - keçmiş məcburi köçkünlər öz doğma yurdlarına qayıdırlar. Mədəniyyət beşiyimiz olan Şuşa bir sıra beynəlxalq tədbirlərə, o cümlədən Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ənənəvi "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına evsahibliyi edir. Musiqinin dili ilə Azərbaycan buradan dünyaya sülh, əməkdaşlıq və inkişaf mesajı verir.

Dünyada Azərbaycanın rəmzi kimi tanınan Ulu Öndər Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Liderimizin siyasi kursuna sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycan BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata - Qoşulmama Hərəkatına iki dövr üzrə uğurla sədrlik edib. Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalayıb. Qazanılmış etimad və uğurun nəticəsidir ki, ölkəmiz bir sıra beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir. Bu ilin noyabr ayında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP 29) ölkəmizdə keçirilməsi ilə bağlı qərar böyük etimadla yanaşı, həm də ölkəmizin dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in fəal iştirakçılarından biri kimi tanınması və "yaşıl gələcək"lə bağlı hədəflərinin məntiqi davamıdır.

Beləliklə, ehtiram və hörmətlə qeyd etdiyimiz Milli Qurtuluş Günü böyük uğurların başlanğıcı olmaqla yanaşı, Ulu Öndərin xalqımız üçün əbədi açdığı müstəqillik və azadlıq qapısıdır. Bu yolun mahiyyətini Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev belə müəyyənləşdirmişdir: "Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq. Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!"

***Araz XUDADANOV,***
***Yeni Azərbaycan Partiyası Sabunçu Rayon Təşkilatının sədri***

# Tarixi Bəyannamə



**Tarix boyu Azərbaycan və türk xalqları hər zaman çətin, həm də şad günlərində bir-birinə arxa-dayaq olublar. Türkiyə daim bütün beynəlxalq təşkilatları Azərbaycan torpaqlarını işğal etmiş Ermənistanı işğalçı dövlət kimi tanımağa çağırıb. Eyni zamanda Vətən müharibəsində də Azərbaycana mənəvi və siyasi dəstək göstərib.**

Bu dostluğun, qardaşlığın ən yüksək zirvəsi olaraq 2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada iki dövlət arasında Şuşa Bəyannaməsi imzalandı. Bu, dünyaya Azərbaycan və Türkiyənin dost və qardaş dövlət olması barədə daha bir mesaj idi. Şuşa şəhərində iki qardaş dövlətin ay-ulduzlu bayraqlarının birgə dalğalanması birliyimizi nümayiş etdirirdi.

Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında bütün sahələrdə münasibətlərin davamlı inkişafına xidmət edir. Bəyannamədə iki ölkə arasında beynəlxalq aləmdə iqtisadi, siyasi, ordu quruculuğu, təhsil, ticarət sahələrində birgə əməkdaşlıq nəzərdə tutulur. Şuşa Bəyannaməsi regionda sülhə də böyük yol açır. Bəyannamə Qarabağ və Şərqi Zəngəzur üçün iqtisadi münasibətlərin qurulmasına böyük dəstək olacaq. Şuşa şəhəri də daxil olmaqla ətraf kənd və qəsəbələrdə turizmin inkişafı üçün geniş imkanlar yaranır. Bəyannamədə nəzərdə tutulan hərbi əməkdaşlıq və digər iqtisadi layihələrin həyata keçirilməsi nəticəsində beynəlxalq aləmdə Azərbaycanın nüfuzu artır.

Azərbaycan və türk xalqlarının qardaş və dost kimi sıx tellərlə bir-birinə bağlanmasında xalqlarımızın böyük liderləri Mustafa Kamal Atatürk və Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub. XX əsrin əvvəllərində Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", əsrin sonlarında Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət - iki dövlətdir" kəlamları xalqlarımızın bir-birinə ürəkdən necə bağlı olduğunun sübutudur.

Bu gün işğaldan azad edilmiş torpaqlarımızda böyük quruculuq işləri aparılır. Vətən müharibəsində olduğu kimi, quruculuq işlərində də Azərbaycan Türkiyə ilə sıx əməkdaşlıq edir. Şəhər və kəndlərimizin yenidən qurulması və bərpasında çoxsaylı türk şirkətləri fəaliyyət göstərir.

Zəngəzur dəhlizinin ölkəmiz üçün böyük geosiyasi və iqtisadi əhəmiyyəti var. Zəngəzur dəhlizi Şərqdən Qərbə bütün ölkələrin də istifadə edə biləcəyi iqtisadi layihədir. Bu dəhliz Azərbaycanla Türkiyəni dəmir yolu və avtomobil yolu ilə birləşdirəcək.

Şuşa Bəyannaməsində əks olunan müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələsi tarixi nailiyyətdir. Ölkələrimiz sənədə əsasən, bir-birinin təhlükəsizliyini təmin edəcək. Bəyannamə Ermənistandakı revanşist qüvvələrə və onlara havadarlıq edənlərə də bir mesajdır. Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırdı ki, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə təhdid yaradılarsa, ordusu ilə Azərbaycanın yanında olacaq.

Şuşa Bəyannaməsində həmçinin mühüm məsələlərdən olan xaricdə yaşayan Azərbaycan və türk icmaları arasında informasiya mübadiləsinin yaradılması nəzərdə tutulub. Bundan sonra xaricdəki Azərbaycan və türk diaspor təşkilatları ikitərəfli əlaqələri gücləndirəcək, bütün məsələlərdə həmrəylik təmin ediləcək. Şuşa Bəyannaməsi həm Azərbaycan, həm də Türkiyənin gələcəkdə daha güclü və qüdrətli dövlətlərə çevrilməsinə böyük təkan verir.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı***



## Azərbaycanın QURTULUŞ salnaməsi:

# Heydər Əliyevdən İlham Əliyevə

31



# Əbədi Qurtuluş

# Heydər Əliyevin qətiyyətinin ifadəsi - müstəqil Azərbaycan



**15 İyun Milli Qurtuluş Gününün müasir tariximizdə müstəsna yeri vardır. Çünki Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı nəticəsində Azərbaycan məhv olmaq təhlükəsindən xilas oldu.**

1991-1993-cü illər ərzində Azərbaycanda dövlətin suveren mövcudluğuna çoxsaylı təhdidlər yaranmışdı. 1993-cü ildə respublikada artıq həyatın bütün sahələrini böhran bürümüşdü. AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə nəticələnmişdi. Azərbaycan xalqı xilasını yalnız Ulu Öndər Heydər Əliyevin timsalında görürdü. Təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC-Müsavat cütlüyü də Heydər Əliyevdən kömək istəməyə məcbur oldu.

Ulu Öndər Heydər Əliyev xalqın təkidli dəvətini qəbul edərək 1993-cü il iyunun 9-da Bakıya gəldi. Belə bir vaxtda Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı müstəqilliyini itirmək təhlükəsindən xilas etdi, xalq öz nicatını Ümummilli Liderimizin hakimiyyətə qayıdışında tapdı. Ulu Öndər tarixi qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalan Azərbaycanı qorudu.

Azərbaycanın inkişafı, müstəqilliyi və gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan, ona arxa və dayaq olan Ümummilli Liderin uzaqgörən, praqmatik siyasəti nəticəsində ölkəmizin dövlətçilik tarixinin şanlı səhifəsi başlandı. Bununla da Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun 1993-cü il tariximizə Milli Qurtuluş Günü kimi yazıldı.

Ümummilli Liderin ölkə rəhbərliyinə tarixi qayıdışından sonra Azərbaycanda dövlət və cəmiyyət həyatının, sosial-siyasi vəziyyətin saflaşdırılması, sağlamlaşdırılması prosesi başladı. Həmin mürəkkəb dövrdə dahi şəxsiyyət Heydər Əliyevin yüksək idarəçilik məharəti, siyasi uzaqgörənliyi və sarsılmaz qətiyyəti vətəndaş müharibəsinin qarşısını aldı. Xalq saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və həlledici dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğuna bir daha əmin oldu.

Heydər Əliyevin ikinci dəfə Azərbaycan rəhbərliyinə gəlişi ilə ilk növbədə daxili ictimai-siyasi sabitlik təmin edildi, qanunsuz silahlı dəstələr ləğv olundu, ölkənin sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində də dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı. Ölkədə ordu quruculuğu, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı.

1993-cü il 15 iyun tarixi gün, eyni zamanda Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Ulu Öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi.

Xalqımız Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini həmişə uca tutur. Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onu hər zaman minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Bu gün Heydər Əliyevin memarı və qurucusu olduğu müstəqil Azərbaycan etibarlı əllərdədir. Dünya dövlətləri sırasında layiqli yer tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilmiş inkişaf xəttini Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən ötən dövrdə Azərbaycan cənab Prezidentin liderliyi ilə möhtəşəm nailiyyətlər əldə edib.

Ulu Öndər Heydər Əliyevin arzuları 27 ildən sonra reallaşıb, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirib, torpaqlarımız işğaldan azad olunub, bütün ərazilərimizdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Bu tarixi zəfərin əsasında məhz qurtuluş məfkurəsi dayanır.

Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, düşmənin yerlə yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək.

Hazırda Azərbaycan nəinki regionda, dünyada söz sahibi olan dövlətə çevrilib. Ulu Öndər Heydər Əliyevin nurlu zəkasının, sarsılmaz qətiyyətinin ifadəsi olan bugünkü müstəqil Azərbaycan Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində bundan sonra da möhtəşəm nailiyyətlərə imza atacaq!

**Pərvin KƏRİMZADƏ,**
***Milli Məclisin deputatı***



**Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyunundan 31 il ötür. Bu o tarixdir ki, həmin gün dövlətçiliyimizin yox olmaq təhlükəsindən xilas edilməsi üçün əsaslı sütunlar yarandı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.**

Ulu Öndər Heydər Əliyevin həyat yolu olduqca zəngin, mənalı və bacarıqlı siyasi lider, qüdrətli tarixi şəxsiyyət kimi yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunə məktəbidir. Heydər Əliyevi rəhbər kimi başqalarından fərqləndirən mühüm keyfiyyət ondan ibarətdir ki, bu dahi insan iki fərqli siyasi sistemdə Azərbaycana rəhbərlik etmiş və hər bir dövrün ictimai-siyasi tələblərinə uyğun olaraq özünün bütün fəaliyyətini Azərbaycan Respublikasının yüksəlişinə, xalqın mənəvi-mədəni inkişafına həsr etmişdir. Ulu Öndər Heydər Əliyevin bütün siyasi və dövlətçilik fəaliyyəti Azərbaycanın və xalqının, milli dövlətçiliyimizin inkişafı və möhkəmlənməsi tarixidir.

### Qarşıdurmadan milli birliyə

1991-ci ildə bərpa olunmuş dövlət müstəqilliyinin ilk aylarından başlayıb şiddətlənən mürəkkəb hadisələr, idarəçilikdə yol verilən nöqsanlar 1993-cü ilin birinci yarısında siyasi böhran həddinə gəlib çatmışdı. Ölkədə getdikcə geniş miqyas alan anarxiyadan sui-istifadə edən təcavüzkar Ermənistanın silahlı birləşmələri isə cəbhə xəttində həmlələrini gücləndirmişdi. Torpaqlarımızın etibarlı müdafiəsi təmin olunmamışdı. Orduda vahid komandanlıq yox idi. Belə bir taleyüklü məqamda növbəti yanlış və daha bir məsuliyyətsiz qərar dövlətçiliyimizin məhvi ilə nəticələnə bilərdi.

Soydaşlarımızın min bir məhrumiyyətdən keçib gəlmiş azadlıq arzusu, müstəqillik amalı ilk addımlarındaca puç ola bilərdi. Daxili və xarici düşmən qüvvələrin dağıdıcı həmlələri Azərbaycanı bir dövlət kimi məhv etmək üzrə idi. Xüsusən də müəyyən xarici qüvvələr Cənubi Qafqaz regionundakı maraqlarını daha böyük perspektivi olan Azərbaycanı parçalamaqla həyata keçirmək niyyətində idilər. Bunun üçün artıq müəyyən ictimai-siyasi zəmin də hazırlanmışdı.

Ozamankı hadisələr ölkədə hakimiyyətlə xalq arasında birliyin olmamasının, dövlət idarəçiliyində boşluğun hökm sürməsinin acınacaqlı nəticəsi idi. Cəmiyyətin mütləq çoxluğu öz düşüncəsi, ağlı ilə xilasolma istiqamətini - qarşıdurmadan milli birliyə, xaosdan sabitliyə, dağıntılardan quruculuğa aparan yolu seçdi. Xalq bu yola keçidin yeganə bələdçisi və təminatçısının Ümummilli Lider Heydər Əliyev olduğuna birmənalı qərar verdi.

Beləliklə, Azərbaycana rəhbərliyi dövründə onu öz əlləri ilə qurub-yaratmış, iqtisadiyyatını və mədəniyyətini əsaslı surətdə inkişaf etdirmiş qurucu lider, sovet dövlətinin ali rəhbərliyindəki fəaliyyəti ilə dünyaşöhrətli siyasətçi kimi tanınmış, xarizmatik şəxsiyyəti və misilsiz xidmətləri ilə dövlətçilik tariximizdə ilk dəfə Ulu Öndər və Ümummilli Lider məqamına yüksəlmiş Heydər Əliyev xilaskarlıq missiyası ilə yenidən respublikanın ali idarəçiliyi sükanı arxasına qayıtdı.

### Ulu Öndər siyasəti bu gün uğurla davam etdirilir

1993-cü ilin tarixi 15 iyun günündən sonrakı mərhələdə Ulu Öndər ilkin olaraq xalqı vətəndaş müharibəsi təhlükəsindən, dövləti ağır siyasi, iqtisadi böhrandan qurtardı. Çox keçmədən xalqın mütləq əksəriyyətinin iradəsi ilə müstəqil Azərbaycanın Prezidenti seçilən Heydər Əliyevin legitim rəhbərliyi ilə respublikanın ictimai-siyasi həyatında sürətli sabitləşmə, hərtərəfli dirçəliş, böyük quruculuğun əsaslarının müəyyənləşdirilməsi proseslərinə start verildi.

Ötən əsrin 70-ci illərindən etibarən 30 ildən artıq bir müddətdə Azərbaycanda elm, təhsil, mədəniyyət və iqtisadiyyatın təşəkkülü və inkişafı bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Ulu Öndərimizin genişmiqyaslı fəaliyyətində təhsilin inkişafı prioritet sahə kimi mühüm yer tuturdu. Təhsilin cəmiyyətin inkişafında rolunu və şəxsiyyətin formalaşmasında əhəmiyyətini daim yüksək qiymətləndirən dahi rəhbərin qəbul etdiyi qərarlar, uzaqgörənliklə irəli sürdüyü konseptual fikirlər və ideyalar, tarixi tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə öz töhfəsini verməkdədir.

Artıq 21 ildir ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi kurs ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf və davam etdirilir. Azərbaycanın iqtisadi inkişafı, ölkədə bərqərar olmuş siyasi sabitlik bütün digər sahələr kimi, təhsil sisteminin təşəkkülünə və islahatların aparılmasına da zəmin yaratmış, bu sahədə əsaslı nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur.

Azərbaycanda təhsilin inkişaf tarixinin təhlili göstərir ki, Ulu Öndər Heydər Əliyevin bütün islahat təşəbbüsləri möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yeni müstəvidə və beynəlxalq təcrübə əsasında davam və inkişaf etdirilmiş, ölkəmizin tərəqqisinə böyük töhfələr vermişdir. Birmənalı olaraq demək lazımdır ki, bu gün, Azərbaycan öz ərazi bütövlüyünü təmin etdikdən sonra artıq bütün sahələrdə olduğu kimi, ölkənin təhsil sahəsini də yeni, daha dinamik inkişaf dövrü gözləyir.

**Habil QURBANOV,**
***Elm və Təhsil Nazirliyi Elmi Təşkilatların Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri, hüquq elmləri doktoru, professor***

# İtaliya portalı Azərbaycanın Milli Qurtuluş Günündən yazıb




**İtaliyanın "Giornale Diplomatico" saytında 15 İyun Milli Qurtuluş Günü ilə bağlı məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, yazıda Milli Qurtuluş Gününün ölkəmizin tarixindəki yerindən bəhs edilib, Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarovun fikirlərinə yer verilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan 1991-ci ilin oktyabrında müstəqilliyini bərpa edib. Lakin müstəqilliyin ilk illəri siyasi hakimiyyət boşluğu, dövlətin əsaslarının və onun bütün təsisatlarının, o cümlədən ordunun və milli təhlükəsizlik qurumlarının hərtərəfli böhranı ilə xarakterizə olunurdu. Bu vəziyyət Ermənistanın hərbi təcavüzü ilə daha da gərginləşmişdi. 1993-cü ilin yayında Azərbaycanda artıq real vətəndaş müharibəsi təhlükəsi özünü büruzə verməyə başlayırdı. Vətən üçün həyati əhəmiyyət kəsb edən belə bir məqamda Heydər Əliyev xalqın istəyi ilə hakimiyyətə qayıtdı və 1993-cü il iyunun 15-də Azərbaycan Respublikasının Ali Sovetinə Sədr seçildi. O, öz xalqının köməyinə yetdi və məhz bu səbəbdən iyunun 15-i Azərbaycan tarixində Milli Qurtuluş Günü kimi qeyd olunur. Heydər Əliyev 1993-cü il oktyabrın 3-də Prezident seçildi və xalqın xilası yolunda yorulmadan çalışdı. "Mənim həyatım və fəaliyyətim müstəsna olaraq Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizi bu çətin vəziyyətdən çıxarmağa həsr olunacaqdır", - deyə Ümummilli Lider o zaman bildirmişdi.

Yazıda, həmçinin vurğulanıb ki, 1997-ci ilin iyununda 15 iyun tarixi Azərbaycan parlamenti tərəfindən milli bayram elan edilib.

Səfir İlqar Muxtarov bildirib ki, Milli Qurtuluş Günü Azərbaycan tarixinin əsas səhifələrindən birini təmsil edir və Ümummilli Lider Heydər Əliyevin dövlətimizin yaradılmasında mühüm rol oynadığını göstərir. Onun sayəsində Azərbaycan çoxsahəli tərəqqi yolu keçib, beynəlxalq aləmdə rolunu gücləndirib. "Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əlaqələrin inkişafı üçün də biz Heydər Əliyevə borcluyuq. O, 1997-ci ildə Vatikana səfər edib, Papa II İohann Pavel tərəfindən qəbul olunub və bu görüş 2002-ci ildə Papa II İohann Pavelin Azərbaycana səfərini təşviq etməklə bərabər, illər ərzində və Ümummilli Liderin qoyduğu irsi davam etdirərək daha da yüksələn ikitərəfli əlaqələrimizə böyük təkan verdi", - deyə diplomat vurğulayıb.



# Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə

31



# Qurtuluş missiyası

## Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı məhvolma təhlükəsindən xilas etdi

*Əvvəli 1-ci səh.*

Digər tərəfdən xalqın azadlıq ideallarının reallaşmasına mane olmaq, milli istiqlaliyyətinin bərpa edilməsini əngəlləmək üçün müxtəlif təxribatlar törədilirdi. Bu təxribatlar yalnız Ermənistanın təcavüzkar əməllərinin genişləndirilməsi ilə yekunlaşmırdı, həm də daxili siyasi vəziyyəti gərginləşdirməyə hesablanmışdı. Lakin nə Moskvanın təlimatlarından çıxa bilən A.Mütəllibov iqtidarı, nə də AXC-Müsavat hakimiyyəti dövlətin yaşamasını təmin etmək və cəmiyyətdə milli həmrəyliyin əldə edilməsinə nail olmaq iqtidarında idilər. Bu da təbii ki, vəziyyətin daha da ağırlaşmasına şərait yaradır, Azərbaycanın milli mənafelərinə ciddi təhlükə törədən proseslərə stimul verirdi.

Surət Hüseynovun məlum qiyamı zamanı ölkədə dövlət idarəetmə sisteminin acınacaqlı hal aldığı və xalqın maraqlarını qorumağa qadir siyasi hakimiyyətin yoxluğu üzə çıxdı. Ölkənin cənub bölgəsində ağalıq edən Əlikram Hümbətovun separatçı dəstələri xalqın azad gələcəyinə meydan oxuyur, müstəqillik arzularımızı boğmağa hazırlaşırdılar. Bir sözlə, xarici qüvvələrin təhriki ilə separatçı meyillər baş qaldırır, yeni münaqişə ocaqlarının təməli qoyulurdu. Havadarlarının hərbi-siyasi dəstəyinə arxalanan Ermənistan isə Azərbaycan ərazilərini kəndbəkənd, rayonbarayon işğal edirdi. Cəmiyyətdə ciddi rahatsızlıq, ümidsizlik hökm sürürdü. Sosial-iqtisadi böhran, güclü inflyasiya, dolanışığın getdikcə çətinləşməsi, insanların yeni dövrün reallıqlarına uyğunlaşa bilməmələri hamını çətin durum qarşısında qoymuşdu. Bu durumdan xilas olmaq üçün qətiyyətli, siyasi cəhətdən təcrübəli bir şəxsin rəhbərliyə gəlməsi zərurətə çevrilmişdi.

Ulu Öndər o dövrü xarakterizə edərkən deyirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı". O dövdə Azərbaycan 20 Yanvar, Xocalı faciələrini yaşadı, Laçın, Şuşa xəyanətlərin qurbanı oldu, ölkə ərazisinin 20 faizi işğal edildi, dövlət müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməli oldu.

Suverenliyimiz real təhdidlər qarşısında qalmışdı. 1993-cü ildə respublikada artıq həyatın bütün sahələrini böhran bürümüşdü. Dövlət əmlakının açıq-aşkar mənimsənilməsi halları kütləvi xarakter daşıyırdı. Ölkədə mənəviyyatsızlıq hökm sürürdü. Beləliklə, AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə nəticələndi. Hakimiyyəti zəbt etmiş qüvvələrin xəyanəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü.

### Xalqın tələbi

Vətəndaşlarımız Ulu Öndər Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışını təkidlə tələb edirdilər. Əhalinin böyük əksəriyyəti, xüsusilə ziyalılar böyük rəhbərin siyasi hakimiyyətə qayıdışı arzusunda idilər.

1993-cü il iyunun 15-də bu ideya reallığa çevrildi. Həmin gün Heydər Əliyev xalqın təkidli tələbi və yenilməz iradəsi ilə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Parlamentin tarixi iclasında Heydər Əliyev çıxış etdi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin Sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".

### Tariximizin qürurlu səhifəsi

Heydər Əliyevin ölkənin ali qanunvericilik orqanına Sədr seçilməsi ölkəmizin həyatında çox mühüm hadisə oldu. Bu siyasi qayıdış Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun, gələcək taleyinin ən həlledici anları idi. Azərbaycanı azərbaycanlılara, milləti özünə qaytardı. Hadisələrin sonrakı gedişi göstərdi ki, 15 iyun ölkənin müstəqillik tarixində yeni siyasi mərhələnin başlanğıcıdır. Ali Sovetin Sədri kimi Heydər Əliyevin ilk üç ay ərzindəki gərgin fəaliyyəti hər hansı bir nəzəriyyədən və ideyalardan uzaq idi. Ulu Öndər birinci gündən parlamentarizm ənənələrinə sadiq qalaraq aşkarlıq prinsipinə üstünlük verdi. İclaslar, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına çıxarıldı. Ölkədəki vəziyyət olduğu kimi xalqa çatdırıldı. İctimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülməyə başlandı. Bütün bunlar üç ayda ölkədə dərin siyasi və ictimai böhran prosesini dayandırmağa imkan yaratdı.

Möcüzəyə bənzər hadisələr baş verirdi. Əslində, tabeliyində heç bir qurum olmayan, yalnız öz sözünə və zəkasına arxalanan böyük siyasi xadim məhz zəngin rəhbərlik təcrübəsinə əsaslanaraq dövlətin dağıdılmasının qarşısını ala bildi. "Fəaliyyətlərini donduran" dövlət məmurlarının sabotajı, ancaq öz bölgə komandirlərinə tabe olan silahlı qurumlar, iqtisadiyyatı iflic vəziyyətinə düşmüş bir məmləkət - bunların hamısı acı gerçəklik idi. Heydər Əliyev deyirdi: "Azərbaycan xalqının birliyi yeni, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin edilə bilər. Doğrudur, bu yolda çətinliklər az olmayacaqdır. Fəqət nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək və onlar, tarix bizi bağışlamayacaqdır. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır.

Azərbaycan xalqı birləşməli, öz müqəddəs, doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası ictimai və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır. Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm". Bu, Heydər Əliyevin yeni mərhələdə siyasi platformasının, gələcək fəaliyyət proqramının əsas prinsiplərini özündə aydın əks etdirən bəyanat idi.

Ölkədə sabitliyin bərqərar olması üçün gərgin iş aparıldığı bir vaxtda Prezident Əbülfəz Elçibəy müəmmalı şəkildə Bakını tərk edərək doğulduğu kəndə getdi. Ölkə başsız vəziyyətdə, taleyin ümidinə qaldığından 1993-cü ilin 24 iyununda Ümummilli Lider Heydər Əliyev Ali Sovetin qərarı ilə Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərinin icrasını öz üzərinə götürməli oldu. Həmin gün Ulu Öndərin bununla bağlı xalqa müraciəti bir növ müstəqil Azərbaycan dövlətinə sadiqlik andı idi. Zaman keçdikcə Ümummilli Lider ən ağır məqamlarda yenə də öz andına sadiq qalacaq, Azərbaycanın müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin edəcəkdi.

### Xalqa və dövlətə xidmət missiyası

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın qazandığı tarixi nailiyyətlər bu böyük dövlət adamının qətiyyətinin, mətinliyinin, verdiyi bütün sözləri tutmasının sübutudur. Ulu Öndər 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi müddətdə ölkənin ali qanunverici orqanının fəaliyyətini demokratik prinsiplər, aşkarlıq, xalq qarşısında hesabatlılıq əsasında qurdu. Azərbaycan parlamentinə yeni bir ruh, müasir parlamentarizm ənənələri gətirdi, müstəqilliyini yenicə əldə etmiş ölkənin demokratik parlamenti necə olmalıdır, bunun mükəmməl örnəyini yaratdı.

Heydər Əliyev zəngin dövlətçilik təcrübəsi ilə Ail Sovetdə yüksək siyasi mədəniyyət formalaşdırdı. Özünəməxsus iclas aparmaq tərzi, təmkini, fikirlərini dəqiq əsaslandırması, edilən çıxışların məğzini tutmaq, qeyri-müəyyən məqamları əlavə suallarla aydınlaşdırmaq, tərəflər arasında sivil müzakirələr qurmaq, müzakirələri ümumiləşdirib ortaya faydalı nəticələr qoymaq bacarığı ilə əsl ustad dərsləri keçdi.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu məsələləri məhz Heydər Əliyevin ölkə parlamentinə rəhbərlik etdiyi dövrdən gündəmə gəldi. Çünki Ulu Öndər yaxşı bilirdi ki, Azərbaycan xalqının arzularındakı dövləti, cəmiyyəti qurmaqdan ötrü ilk növbədə qanunun aliliyi təmin olunmalı, buna maneə yaradan əngəllər ortadan götürülməlidir. Cəmiyyətdə ictimai-siyasi sabitlik təmin edilməli, hər bir vətəndaş özünü tam təhlükəsiz şəraitdə duymalı, onun naşı adamların idarəçiliyi dövründə dövlətə, hökumətə sarsılmış inamı bərpa olunmalıdır.

Ulu Öndər ölkədəki qanunsuz silahlı birləşmələrin fəaliyyətinə son qoydu. Nəzarətsizlik dövründə baş qaldıran kriminal ünsürləri zərərsizləşdirdi, cinayətkarlığın və hüquq pozuntularının qarşısını aldı, ictimai-siyasi sabitlik üçün dayanıqlı bir sistem qurdu. Heydər Əliyev xarici qüvvələrin təhriki ilə ölkədə baş qaldıran separatizm meyillərinin genişlənərək Azərbaycan dövlətçiliyini sarsıtmasına imkan vermədi. Bunun bariz nümunələrindən biri 1993-cü ilin 7 avqustunda ölkənin cənub bölgəsində elan edilmiş qondarma "Talış-Muğan Respublikası" ilə bağlı görülən tədbirlər idi. Xarici qüvvələr tərəfindən Azərbaycanın o dövrdəki kövrək müstəqilliyinə qəsd olan bu təxribatın qarşısını almaqdan ötrü Heydər Əliyev hər zamankı kimi, yenə də sağlam insanlara, sağlam düşüncəyə söykəndi.

Avqustun 13-də parlamentdə həmin bölgədən olan deputatlarla, ziyalılarla, ağsaqqallarla görüşüb vəziyyəti müzakirə etdi. Avqustun 17-də isə "Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında" qərar qəbul edilərək "Talış-Muğan Respublikası" avantürasına siyasi qiymət verildi, əhalinin dəstəyi ilə bu bədnam iddiaya son qoyuldu. Şimalda "Sadval" hərəkatının qarşısı qətiyyətlə alındı. 1993-cü ilin iyul-avqust aylarında xalqın böyük dəstəyi ilə bu hadisələri aradan qaldıran, bütün qanunsuz birləşmələri tez bir zamanda zərərsizləşdirən Ulu Öndər, eyni zamanda cəmiyyətdə milli həmrəyliyin, sabitliyin möhkəmləndirilməsinə, iqtisadi tənəzzülün qarşısının alınmasına yönəlmiş ardıcıl və sistemli tədbirlər həyata keçirdi.

Ümummilli Lider Azərbaycanı zamanın ağır təlatümlərindən xilas edərək rəvan, aydın inkişaf yoluna çıxardı. 1994-cü ildə cəbhə bölgəsində atəşkəsə nail olmaqla ölkənin sosial-iqtisadi problemlərinin həlli, ordu quruculuğu, demokratik hüquqi dövlətin əsaslarının formalaşması üçün zaman qazandı. Bu müddətdə Azərbaycanın gələcək inkişafına doğru strateji addımlar atıldı. 1994-cü il sentyabrın 20-də - çox ağır siyasi şəraitdə ölkənin dayanıqlı iqtisadi inkişafını və beynəlxalq əhəmiyyətini müəyyən edən "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə ölkənin sosial-iqtisadi inkişafına, mövcud çətinliklərin aradan qaldırılmasına böyük təkan verdi.

1995-ci ilin noyabrında Ümummilli Liderin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi əsasında qəbul edildi. Cəmiyyət həyatının bütün əhəmiyyətli sahələri üzrə müstəqillik dövrünün, müasir zamanın çağırışlarına uyğun mükəmməl qanunvericilik bazası formalaşdırıldı. Demokratik inkişafı əngəlləyən silahlı dövlət çevrilişi cəhdlərinə son qoyuldu. Seçki ənənələri formalaşdırıldı. Konstitusiyanın qəbulu ilə eyni gündə parlament seçkiləri keçirildi. Azərbaycan dövlətinin beynəlxalq əlaqələri genişləndirildi, ölkənin dünya birliyinə inteqrasiyası gücləndirildi.

Ulu Öndər cəmiyyətimizdə milli birliyi təmin etdi. Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası milli mənsubiyyətindən, dilindən, inancından, yaşadığı məkandan asılı olmayaraq, Azərbaycanı özünə tarixi vətən bilən hər kəsin tapındığı mənəvi ünvan, işıqlı məfkurə oldu və bu düşüncə dövlətimizin qüdrətlənməsində müstəsna rol oynadı.

Ümummilli Lider ordu quruculuğunu da böyük mətanətlə həyata keçirdi. Bu böyük dövlət adamının çağırışı ilə başqa ölkələrdəki peşəkar Azərbaycan zabitlərinin Vətənə axını başladı. Nizami ordu quruldu, ölkənin sosial-iqtisadi imkanları artdıqca Azərbaycan Ordusunun da təchizatı, inkişafı genişləndi, döyüş qabiliyyəti yüksəldi. Hər bir ölkənin siyasi müstəqilliyi üçün müstəsna dərəcədə mühüm əhəmiyyət daşıyan iqtisadi müstəqilliyi təmin edildi.

### Böyük arzu

İşğal olunmuş torpaqlarımızı azad görmək Ulu Öndərin ən böyük arzusu idi. Ümummilli Lider məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla, qətiyyətlə deyirdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu - biz onlarsız yaşaya bilmərik…"

Heydər Əliyevin arzuları 27 ildən sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

"Danılmaz həqiqətdir ki, Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır. Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi" - Prezident İlham Əliyev həmin gündən başlanan tarixi Azərbaycanın intibah mərhələsinə gedən böyük yolun başlanğıcı olduğunu bildirirdi.

Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib.

Bu gün azad yurdlarımıza həyat qayıdır, Şuşada, işğaldan azad olunmuş digər torpaqlarımızda bayram tonqalları alovlanır, Böyük qayıdış reallaşır, insanlarımız illərin həsrətindən sonra isti ocaqlarına qovuşur. Azərbaycan xalqı Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin verdiyi böyük əminlik, güvən duyğusu ilə gələcəyə doğru irəliləyir, tarixdə yeni səhifələr açır. Bu, 15 İyun Qurtuluş Günündən başlanmış tarixdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Xilaskar

**Hər bir xalqın tarixində onun xilaskarı kimi dərin izlər qoymuş böyük şəxsiyyətlər olub. Azərbaycan xalqının da həmişə qürur və fəxrlə yad etdiyi insan Ulu Öndər Heydər Əliyevdir. Ümummilli Liderin həyat və yaradıcılıq fəlsəfəsi həmişə xalqına sədaqətlə xidmət etmək, Azərbaycan Respublikasını müstəqil bir dövlət kimi formalaşdırmaq və onu inkişaf etdirmək olmuşdur.**

Keçdiyi şərəfli həyat yoluna diqqətlə nəzər salanda Ulu Öndərin fəaliyyətinin ilk dövründən başlayaraq ömrünün sonuna kimi gördüyü işlərin bu fəlsəfəni reallaşdırmaq məqsədi daşıdığını müşahidə edirik. Məhz elə buna görə də Heydər Əliyev irsini öyrənmək, qorumaq, təbliğ və tətbiq etmək bugünkü və gələcək nəsillərin qarşısında dayanan ən vacib və ən müqəddəs vəzifədir.

Heydər Əliyev Azərbaycana 1969-cu ilin iyul ayından rəhbərlik etməyə başlayıb. Ulu Öndər siyasi fəaliyyətə başladığı ilk gündən xalqına bağlı olduğunu, respublikanın və onun bölgələrinin sosial-iqtisadi inkişafına təkan vermək üçün böyük həvəs və əzmkarlıqla çalışdığını, əhalinin rifahının yaxşılaşmasına xüsusi önəm verdiyini göstərdi. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründəki fəaliyyəti onu SSRİ-nin rəhbərlərindən biri etdi. Heydər Əliyevi fərqləndirən başlıca xüsusiyyətlər işlədiyi vəzifənin kiçikliyi və ya böyüklüyündən asılı olmayaraq, özünə və ətrafındakılara qarşı tələbkarlığı, prinsipial mövqeyi, üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirməsi olmuşdur.

Bu müsbət və qeyri-adi xüsusiyyətlərinə görə Ulu Öndər Azərbaycan xalqının sonsuz sevgi və məhəbbətini qazanmışdır. O, Moskvada işlədiyi dövrdə də Azərbaycanda gedən siyasi prosesləri diqqətlə izləyir, öz xalqı ilə birgə nəfəs alırdı. 1990-cı il yanvarın 20-də sovet qoşunları Bakıda qırğın törədəndə buna ən sərt şəkildə etiraz edən, haqq səsini qaldıran da məhz Ümummilli Lider oldu. Həmin vaxt Heydər Əliyev böyük cəsarət və qətiyyət nümayiş etdirərək Azərbaycanın Moskvadakı nümayəndəliyinin binasında təşkil edilən mətbuat konfransında SSRİ rəhbərliyini kəskin tənqid edərək xalqı ilə birlikdə olduğunu bəyan etmişdi.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə Azərbaycanın üçrəngli bayrağı qaldırıldı və bununla da həmin vaxtdan müstəqilliyimizin bərpasının əsası qoyuldu. Böyük şəxsiyyətin təklifi ilə muxtar respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı və Naxçıvan MR Ali Soveti Ali Məclis adlandırıldı. Bununla yanaşı, dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edildi. Naxçıvan əhalisi Heydər Əliyevə böyük inam və ümid bəsləyərək onun muxtar respublikaya rəhbərlik etməsini arzulayırdı. Xalqın bu istəyi 1991-ci il sentyabrın 3-də reallaşdı və Heydər Əliyev yekdilliklə Muxtar Respublikanın Ali Məclisinə Sədr seçildi.

1993-cü il iyunun 4-də Gəncədə iqtidara tam etimadsızlıq göstərilərək qiyam baş verdi. Qardaş qanı axıdıldı, demək olar ki, vətəndaş müharibəsi başlandı. Bunu görən Azərbaycan xalqı böyük dövlətçilik təcrübəsi olan, tanınmış siyasi xadim, nadir şəxsiyyət Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etdi. Xalq inanırdı ki, yalnız Heydər Əliyev bu vəziyyətdən çıxış yolu tapıb Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlaya və inkişaf etdirə bilər.

Xalqın çağırışına səs verən Heydər Əliyev 1993-cü il iyunun 15-də ölkənin ali qanunverici orqanının Sədri, oktyabrın 3-də isə ümumi səsvermə yolu ilə xalqın böyük dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başladığı ilk günlərdən Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü il mayın 12-də atəşkəsə nail olundu. Bundan sonra ölkədə siyasi və iqtisadi sabitliyin bərqərar olması üçün əlverişli şərait yarandı. 12 noyabr 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi. Ulu Öndərin rəhbərliyi ilə uğurla həyata keçirilən düşünülmüş tədbirlər nəticəsində sosial-iqtisadi tənəzzülün qarşısı alındı.

Heydər Əliyev demişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizin, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

XX əsr dünya tarixinin parlaq simalarından, nadir şəxsiyyətlərindən biri olan, xalqımızın müstəqillik arzusunu dövlət modelində gerçəkliyə çevirərək milyonların qəlbində əbədi abidə ucaldan Ulu Öndər Heydər Əliyev həm də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifi kimi bu gün böyük ehtiramla anılır. Gəncliyində memar olmaq istəyən dahi şəxsiyyət möhtəşəm bir abidənin qurucusu olmuş, özünün şah əsəri olan müstəqil Azərbaycan dövlətini qurmuşdur.

Bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan Respublikası artıq 20 ildən çoxdur ki, Prezident İlham Əliyev tərəfindən uğurla idarə olunur. Dövlətimiz dünyanın aparıcı beynəlxalq təşkilatları tərəfindən regionun lider ölkəsi kimi tanınır. Dövlət başçısının apardığı quruculuq işləri və uğurla həyata keçirdiyi siyasət sayəsində əldə olunan nailiyyətlər bir daha təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına başçılıq etdiyi illər ərzində ölkəmizin müstəqilliyi istiqamətində həyata keçirdiyi genişmiqyaslı işlər hədər getməyib.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Əbədiyaşar ideyalar

**Dünyada xalqının tarixinə və taleyinə həlledici məqamlarda təsir göstərən, ölkəsinin adını bəşər tarixinə yazmaq üçün bir ömür mücadilə edən, əsrlər boyu formalaşan milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini müəyyənləşdirən dahi insanların sayı o qədər də çox deyil.**

O insanlar əbədiyaşarlıq ömrü qazanırlar ki, Vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər kəsə örnək olub zəkası, dühası, istedadı ilə dünyada tanınır və bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr edir. Ümummilli Lider Heydər Əliyev ümumxalq məhəbbəti qazanaraq belə dahilərin sırasına yüksəlmiş şəxsiyyətdir.

Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikamızın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayıb. Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə çoxşaxəli fəaliyyəti xalqımızda milli qürur, milli mənlik şüurunun formalaşmasına, azadlıq, müstəqillik duyğularının baş qaldırmasına gətirib çıxarmışdır.

1969-cu il iyulun 14-də ilk dəfə bütün ruhu, canı ilə azərbaycanlı olan Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi xalqımızın həyatında həlledici və şərəfli bir mərhələnin başlanğıcı oldu. Ulu Öndərin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illər Azərbaycanda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü. Respublikamız çox qısa bir müddətdə iqtisadi artım tempinə görə orta ittifaq səviyyəsini geridə qoydu. Həmin illər milli gəlir 2,6, sənaye məhsulunun həcmi 2,7, kənd təsərrüfatı məhsulları istehsalı 2,3 dəfə artdı. Respublikamızda 250-dək yeni iri sənaye müəssisəsi yaradıldı və Azərbaycanın sənaye potensialı əvvəlki 50 ildəkini 2 dəfə üstələdi. Həmin illərdə 800 mindən çox yeni iş yeri açıldı, əhalinin sosial rifahı qat-qat yüksəldi.

O illər Azərbaycanın elmi-texniki potensialında da əhəmiyyətli yüksəliş yaşandı: müxtəlif elm sahələri üzrə 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Ötən əsrin 80-ci illərinin əvvəllərində keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə respublikamızdan göndərilən gənclərin sayı ildə 1000-1400 nəfərə çatırdı. Ulu Öndərin böyük uğurla həyata keçirdiyi möhtəşəm fəaliyyət nəticəsində Azərbaycan keçmiş ittifaqın öz daxili iqtisadi imkanlarına və intellektual potensialına arxalanaraq özünü tam şəkildə idarə etmək iqtidarında olan iki respublikasından biri oldu.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa bir zamandan sonra dövlət idarəetməsində səriştəsi olmayan, naşı adamların təcrübəsizliyi və yersiz iddiaları ucbatından müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi. Ölkədə yaranan hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı. Dövlət orqanlarının idarəetməyə nəzarəti tamamilə itirmələri bütün ölkədə xaos və anarxiya yaratdı. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa təhlükə altına aldı.

Ümumiyyətlə, 1991-1993-cü illər müasir Azərbaycan tarixində baş verən hadisələri təhlil edəndə adam həmin dövrü hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xarakterizə etmək məcburiyyətində qalır. Bütün bunlar isə müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin respublikaya rəhbərlik etməsinə görə baş verirdi. Təsadüflər nəticəsində hakimiyyətə sahiblənən, hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirirdi.

Xalqımızın tarixində elə günlər var ki, o, Azərbaycanın taleyini dəyişən, ölkəmizin həyatında böyük əhəmiyyət daşıyan, ölkənin gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulan gün kimi tarixə əbədi həkk olunub. Belə günlərdən ən önəmlisi tariximizdə əbədiyaşarlıq qazanmış, Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyət kəsb edən, xalqımız və dövlətimiz üçün möhtəşəm tarixi olan 15 İyun Milli Qurtuluş Günüdür. Bu tarixi yaradan, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan böyük xilaskar, Ümummilli Lider Heydər Əliyevdir.

Ölkəmiz üçün həlledici bir məqamda Heydər Əliyevin hakimiyyətə dönüşü müasir Azərbaycanın tarixində şərəfli bir mərhələnin uğurlu başlanğıcını qoydu. Ulu Öndər öz tükənməz enerjisi və fəaliyyəti ilə dövlətimizin müstəqilliyini əbədi və dönməz bir yola çıxardı. Müstəqilliyimizin ilk illərində Ulu Öndər ölkəmizin inkişaf strategiyasını müəyyən etdi, rifahın, tərəqqinin Azərbaycan modelini yaratdı, respublikamızı xarici siyasətdə etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən dövlət kimi tanıdaraq dövlət-vətəndaş birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrildi.

1993-2003-cü illəri əhatə edən ikinci hakimiyyət dövrü Ulu Öndərin dünyanın ən nadir şəxsiyyətlərindən, görkəmli siyasi xadimlərindən biri olduğunu növbəti dəfə nümayiş etdirdi. Heydər Əliyevin siyasi müdrikliyi, iradəsi və qətiyyəti, mükəmməl idarəçilik qabiliyyəti sayəsində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan keçid dövrünün çətinliklərini uğurla arxada qoyub, 1996-cı ildən etibarən yenidən dirçəliş mərhələsinə daxil oldu. 1996-2003-cü illərdə ölkədə makroiqtisadi göstəricilər 2-3 dəfə artdı, 3 min yeni sənaye müəssisəsi yaradıldı. Bu dövr iqtisadiyyatına 20 milyard dollar investisiya qoyulan Azərbaycanda ümumi daxili məhsul istehsalı 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş vüsət aldı və respublikamızın beynəlxalq nüfuzu durmadan yüksəlməyə başladı.

Balanslaşdırılmış və milli mənafeyə əsaslanan dövlət siyasəti, ictimai-siyasi sabitliyin dayanıqlılığı, iqtisadi qüdrət və güclü sənaye potensialı, elmi-texniki tərəqqi, təhsil və səhiyyənin inkişafı, müasir ordu quruculuğu, xalqın rifahının və həyat tərzinin durmadan yaxşılaşdırılması, milli irsin qorunması və milli-mənəvi dəyərlərin möhkəmləndirilməsi Ümummilli Liderin başlıca strateji hədəflərinə çevrildi. Çünki Ulu Öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil bir dövlət qurmaq idi. Tarixə müasir Azərbaycanın memarı kimi düşən Ümummilli Lider ölkəmizi özünə güvənən qüdrətli dövlətə çevirdi.

Bu gün xalqımız əmindir ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. 2003-cü ildən bəri müstəqil dövlətimizin qurucusu və xalqımızın xilaskarı, dahi şəxsiyyət Heydər Əliyevin ideyaları və böyük dühası yaşayır və inkişaf etdirilir. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev həm ata vəsiyyətini yerinə yetirən övlad, həm də onun memarı olduğu dövlətin rəhbəri, qurduğu qüdrətli ordunun Ali Baş Komandanı kimi Heydər Əliyev ideyalarını ləyaqətlə həyata keçirir. İlham Əliyev Azərbaycanı ən yüksək məqama - tam müstəqilliyinə və ərazi bütövlüyünə qovuşdurub. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 30 il düşmən əsarətində olan Qarabağı və Şərqi Zəngəzuru azad etməklə həm də Heydər Əliyev ideyalarının ölməzliyini bir daha sübut edib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*




# Qurtuluş Günü Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması ilə əlamətdardır

**"Azərbaycan xalqı 15 İyun Milli Qurtuluş Günü ərəfəsindədir. Hər il xalqımız bu bayramı böyük coşqu ilə qeyd edir. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, ölkənin inkişafının sarsılmaz təməlləri qoyuldu.**

1993-cü il iyunun 15-i tarixi gün olmaqla yanaşı, Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması ilə əlamətdardır". Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Fatma Yıldırım səsləndirib.

Deputat bildirib ki, 1990-cı illərin əvvəllərində ölkəmizdə yaranmış siyasi böhran, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizinin zəbt olunması və bunun nəticəsində 1 milyona yaxın soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş və beləliklə, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkədə siyasi institutların darmadağın olması, dərin xaos və anarxiyanın güclənməsi, ideoloji əsasların sıradan çıxması, eyni zamanda, xarici təhdid və Ermənistanın işğalçılıq planlarının artması müstəqilliyimizi təhlükə altına almışdı. Belə bir vəziyyətdə ölkəni xilas edə biləcək, milli-ideoloji əsaslarla suveren dövlətçilik institutlarını yaratmaq üçün milli liderə çox ehtiyac var idi. Həmin lider isə Ulu Öndər Heydər Əliyev idi.

1993-cü il iyunun 9-da Heydər Əliyevin xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib Bakıya gəldiyini xatırladan F.Yıldırım deyib: "Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı. 1993-cü il iyunun 15-də Azərbaycan xalqının tələbi ilə Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ölkə tarixinə Milli Qurtuluş Günü kimi qızıl hərflərlə yazıldı. Beləliklə, Azərbaycan ağır fəlakətlərdən, təhlükələrdən qurtuldu. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə siyasi sabitlik bərqərar oldu, cəbhədə atəşkəs əldə edildi, iqtisadi inkişaf istiqamətində islahatlara başlanıldı. Ən vacib hadisələrdən biri 1994-cü ildə Azərbaycanın dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzalaması oldu. Bununla ölkəmizdə enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Heydər Əliyev 1994-cü ildə, eyni zamanda bazar iqtisadiyyatına keçidi təmin edən mükəmməl qanunvericilik yaratdı. Ölkədə azad biznes mühitinin təmin edilməsi, yerli və xarici sərmayəçilərin hüquqlarının etibarlı şəkildə qorunması, onların fəaliyyətini tənzimləyən hüquqi normativ sənədlərin qəbul olunması islahatların əsas məqamlarından biri sayılır.

F.Yıldırım qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə 2003-cü ildən etibarən Azərbaycanın inkişafında yeni mərhələ açılıb. Ölkəmiz ötən dövrdə uğurlu inkişaf yolu keçib, beynəlxalq miqyasda mövqelərimiz daha da möhkəmlənib.

"Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis, qətiyyətli lider yetişdirməsidir. Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu, səmərəli daxili və xarici siyasət həm Azərbaycanın yüksəlişi və inkişafında, milli maraqların qorunmasında, həm də ölkəmizin dünya siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın güclü, bütün məsələlərlə bağlı öz prinsipial mövqeyi olan, müstəqil siyasi iradə nümayiş etdirən ölkə kimi tanınmasını təmin edib. Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və Qarabağın erməni separatçılarından təmizlənməsi də bu uğurların məntiqi nəticəsidir. İşğaldan azad edilmiş torpaqlarımızda təməllər atılır, bayram tonqalı alovlandırılır, Böyük qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bundan sonra da möhtəşəm nailiyyətlər əldə edəcək, işğaldan azad olunmuş ərazilərimiz ən yüksək səviyyədə bərpa olunacaq və bütün keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdacaqlar", - deyə Fatma Yıldırım vurğulayıb.

# Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq

**Milli Kitabxanada Milli Qurtuluş Günü ilə əlaqədar tədbir keçirilib. Kitabxanadan bildirilib ki, tədbirdə tarixi günlərin xalqın gələcəyini müəyyən edən böyük başlanğıcların əsası qoyduğu vurğulanır. Bildirilib ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyun tarixi də belə tarixi günlərdən ən önəmlisidir.**



Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan Ümummilli Lider Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Azərbaycanı böyük bəladan - parçalanma təhlükəsindən xilas etdi. Ölkənin sosial-iqtisadi və siyasi cəhətdən inkişaf etməsində, möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Ümummilli Lider Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri etdi, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrildi. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir.

Diqqətə çatdırılıb ki, bu gün qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində böyük iqtisadi uğurlara imza atılıb, 44 günlük Vətən müharibəsi isə bu uğurun zirvəsi hesab oluna bilər.

Xüsusi olaraq vurğulanıb ki, müstəqil Azərbaycan dövləti durduqca Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq və heç vaxt unudulmayacaq.

Sonda tədbir iştirakçıları "15 İyun Milli Qurtuluş Günü" adlı ənənəvi kitab sərgisi ilə tanış olublar.

# Samuxda Milli Qurtuluş Günü qeyd olunub

**Samuxda 15 İyun Milli Qurtuluş Günü münasibətilə rayon tədbiri keçirilmişdir.**



Samux Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulmuşdur.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev diqqətə çatdırmışdır ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü il iyunun 15-i bütün xalqımız üçün müqəddəs tarixdir: "Bu tarixi yaradan Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan Ulu Öndər Heydər Əliyevdir. Onun siyasi kursu bu gün Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir".

Sonra rayonun ictimai-siyasi və mədəni həyatında fərqlənən bir qrup şəxsə Samux Rayon İcra Hakimiyyətinin fəxri fərmanları və hədiyyələri təqdim olunmuşdur.

Tədbir Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı ilə yekunlaşmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*










# Makron ədalətsiz siyasətinin nəticəsi ilə üz-üzə qaldı

**"Avropa Parlamentinə keçirilmiş seçkilər Makronun siyasi karyerasını iflasa uğratdı. Fransa Prezidenti ədalətsiz siyasətinin acı nəticəsi ilə birbaşa üz-üzə qaldı. Seçicilər Avroparlamentdə Makronun partiyasını görmək istəmədilər. Seçki nəticələri Fransada Makron hakimiyyətinin nüfuzdan düşməsinin millətçilərə sərf etdiyini təsdiq etdi".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. Deputat qeyd edib ki, millətçilərin qalib gəlməsinin bir səbəbi Fransada hakimiyyətin yarıtmaz fəaliyyəti ilə əlaqədar olsa da, bunun digər səbəbləri də var: "Avropanın bir çox ölkələrində baş verən tendensiyalar da millətçilərin qalibiyyətini şərtləndirdi. Problemlərin pik həddə çatması, Rusiya-Ukrayna və İsrail-Fələstin müharibələrinin yeni fazaya daxil olması, xüsusilə də avropalıların həyat səviyyəsinin müəyyən qədər aşağı düşməsi Avroparlamentə keçirilən seçki nəticələrinə təsirsiz ötüşmədi. Bu, gərgin geosiyasi vəziyyət fonunda Makronun Fransa tarixinin ən zəif prezidentlərindən biri kimi yarıtmaz fəaliyyəti onun partiyasının məğlubiyyətə düçar olmasına gətirib çıxardı".

Deputat qeyd edib ki, Makronun partiyasının uduzması Avropa Parlamentində ciddi mövqe dəyişikliyinə səbəb olacaq: "Makronun xarici, eləcə də daxili siyasətdə həyata keçirdiyi uğursuz "islahat"lar hələ bundan sonra da Fransa rəhbərliyinə baha başa gələcək. Millətçilərin Avropa Parlamentində üstünlük əldə etməsi Avropanın siyasi mənzərəsini dəyişəcək. Misal üçün, Avroparlamentin bir sıra ölkələrlə münasibəti daha da yaxşılaşa, əlaqələri möhkəmlənə bilər. Nəzərə almaq lazımdır ki, əhalisinin sayına görə sözügedən parlamentdə fransalı deputatlar üstünlük təşkil edir".

Cavanşir Paşazadə, həmçinin Makronun bu məğlubiyyətdən dərs çıxarmalı olduğunu da vurğulayıb. Qeyd edib ki, Fransa prezidenti ölkəsinin daxili problemləri ilə maraqlanmaq əvəzinə, Cənubi Qafqazda yeni müharibə ocağı yaratmaq cəhdlərinin cəzasını çəkməli idi: "Onun anti-Azərbaycan siyasəti, regionda hərbi mövcudluğa nail olmaq istəyi, eləcə də müstəmləkəsi altında saxladığı ölkələrdə törətdiyi cinayətlər yavaş-yavaş "nəticə" verdi. Nəhayət, çarəsiz qalan Makron parlamentini buraxmağa məcbur oldu".

Deputat yekunda bildirib ki, Avroparlamentdə ölkəmiz əleyhinə, xüsusilə Vətən müharibəsindəki qələbəmizdən sonra davamlı olaraq qətnamələr qəbul edilib: "Azərbaycana qarşı yönəlmiş belə müzakirələrin və qəbul edilmiş qətnamələrin əsas səbəbkarları isə erməni lobbisinin təsiri altında fəaliyyət göstərən fransalı parlamentarilər olub. Bu baxımdan, Makron partiyasının məğlubiyyəti Avropa Parlamentinin Azərbaycanla bağlı fərqli yanaşma təqdim etməsinə şərait yaradacaq".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Sergey MARKOV: "Paşinyan ABŞ və Aİ-yə yarınmağa çalışır"

**"Ermənistan lideri Nikol Paşinyan Belarusa və şəxsən Prezident Aleksandr Lukaşenkoya qarşı demarşı ilə sadəcə olaraq, ABŞ-yə və Aİ-yə yarınmağa çalışır". AZƏRTAC xəbər verir ki, bu barədə Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov sosial şəbəkədəki hesabında yazıb.**



Ermənistanın baş naziri Nikol Paşinyan mayın 13-də bildirib ki, Aleksandr Lukaşenko prezident olduğu müddətdə Ermənistan rəsmiləri Belarusa səfər etməyəcək. Siyasətçi bu qərarı Minskin 2020-ci ildə 44 günlük müharibə zamanı Qarabağla bağlı tutduğu və A.Lukaşenkonun bu yaxınlarda Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü zamanı bir daha təsdiqlədiyi mövqeyi ilə izah edib. Paşinyanın bu bəyanatından sonra Belarus və Ermənistan müvafiq olaraq İrəvan və Minskdəki səfirlərini geri çağırıblar.

"Bundan əvvəl Lukaşenko Belarusun Azərbaycana Qarabağı bərpa etməyə kömək edəcəyini bildirmişdi. Sakit bəyanatdır. Dünyanın bütün ölkələri Qarabağın Azərbaycana məxsus olduğunu qəbul edirlər. Paşinyan özü də bunu etiraf edir. Beləliklə, Lukaşenkoya münasibətdə Paşinyan sadəcə olaraq, ABŞ-yə və Aİ-yə yarınmağa çalışır", - deyə ekspert qeyd edib.

# Ermənistan Belarusa "müharibə" elan etdi

## İrəvanda isə müxalifətçilərin kütləvi repressiyaları davam edir





**Hayastanın baş naziri Nikol Paşinyan Belarusa və bu ölkənin Prezidenti Aleksandr Lukaşenkoya açıq "müharibə" elan edərək Minskdəki səfirini geri çağırıb.**

Bu azmış kimi, Ermənistanın baş nazirinin aparat rəhbəri Arayik Arutyunyan məmurların Belarusa səfərlərini qadağan edən əmr imzalayıb. Paşinyan bu addımını "Minskin Bakıya dəstəyi, Belarusun Azərbaycanın qələbəsindən ruhlanması" ilə əlaqələndirir. Aydın məsələdir ki, bu rəsmi İrəvanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə "körpüləri yandırmaq" üçün gedişidir.

Nikol Paşinyan bildirib ki, bundan sonra Belarusa getməyəcək, Lukaşenko prezident olduğu müddətdə Hayastanın heç bir rəsmi nümayəndəsi bu ölkəyə səfər etməyəcək və onunla KTMT formatında heç bir müzakirə aparmayacaq.

Göründüyü kimi, Paşinyan Rusiya Prezidenti Putinə qarşı müttəfiqi Lukaşenko üzərindən "yeni cəbhə" açır və Moskvanı Belarus-Hayastan seçimi qarşısında qoyur, bununla KTMT-dən çıxmağı asanlaşdırır.

Daha dərinə getdikdə, bunun İrəvan üçün riskli tərəflərinin çox olduğunun şahidi olarıq. Belə ki, Hayastan KTMT-dən çıxsa belə, iqtisadi amillərə görə Avrasiya İqtisadi İttifaqına (Aİİ) ehtiyacı var və Lukaşenko ilə bu ittifaq çətiri altında üz-üzə gələcək. Bunlara paralel olaraq isə Lukaşenko Rusiyanın müttəfiqi kimi Aİİ-də daha güclü mövqeyə sahibdir və istisna deyil ki, təşkilatdakı mövqelərindən Ermənistana qarşı istifadə edəcək.

Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev də İrəvana ciddi xəbərdarlıq edib. O qeyd edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi İttifaqı çərçivəsində müttəfiqlik münasibətləri ilə möhkəmlənən iki ölkənin xalqları arasında çoxəsrlik dostluq çoxdan Vaşinqton və onun müttəfiqlərinin gözündə tikan olub. Qafqaz ölkəsini Avro-Atlantik düşərgəyə çəkmək üçün əhəmiyyətli qüvvələr cəlb edilib. O, xəbərdarlıq edib ki, İrəvana tam sədaqət müqabilində Avropa İttifaqına üzvlük də daxil olmaqla, qızıldan dağlar təklif olunur: "Ancaq özünüzü aldatmayın: bu cür vədlər sadəcə olaraq neokolonial siçan tələsinin yemidir. Heç kim "elita klubu"nun qapılarını erməni xalqının üzünə açmaq fikrində deyil. Avropa Parlamentinin 2024-cü ilin martında qəbul etdiyi Aİ ilə Ermənistan arasında münasibətlərin möhkəmləndirilməsinə dair qətnamə, əslində, öhdəlikləri olmayan sıradan bir kağız parçasıdır".

Bütün bunların fonunda İrəvanda həm də daxili siyasi xaos hökm sürməkdədir. Sülh müqaviləsinin imzalanmasının aktual olduğu dönəmdə yaranmış siyasi böhran etiraz aksiyaları ilə daha gərgin mərhələyə keçib. İqtidar küçələrə hərbi və polis qüvvələri çıxararaq hakimiyyəti güc yolu ilə saxlamağa hazır olduğunu göstərir. Kütləvi etirazlar zamanı polisin səs qumbaralarından istifadə etməsi nəticəsində onlarla insan xəstəxanaya yerləşdirilib, həbslər var, hətta bir nəfərin əli qoparılıb.

Revanşistlərin əsas istəyi aksiyaya maksimum sayda vətəndaş cəlb etməklə paytaxtı iflic etməkdir. Dünən də etirazçılar hökumət binasının girişlərini bloklamağa cəhd göstəriblər. Polislə qarşıdurma zamanı aksiyanın əsas fəalları kütləvi etirazlara çağırışlarına görə həbs olunublar.

Yaranmış vəziyyətdə hakimiyyət küçələrə xüsusi texnika və zirehli maşınlar çıxarıb. Bundan əvvəl isə Hayastan polisi bildirib ki, müxalifət tərəfindən başladılmış aksiyalar İrəvan küçələrində nəqliyyatın hərəkətinin bilərəkdən dayandırılması, təşkilatların normal fəaliyyətinin əngəllənməsi ilə müşayiət olunur. Təşkilatçılara 3 gün ərzində edilən şifahi xəbərdarlıqlara əməl edilməyib və bu səbəbdən polis aksiyaları dayandırmaq üçün tədbirlər görməli olacaq. Lakin keçmiş hərbi xuntanın tərəfdarları aksiyaları dayandırmağa hazırlaşmır.

Ölkədə insan hüquqları sahəsində yaşanan problemlərin miqyası sürətlə genişlənməkdə, vəziyyət ifrat həddə pisləşməkdədir. Hakimiyyətin öz maraqlarını təmin etmək məqsədilə repressiv metodlardan daha çox istifadə etməsi etirazları bir qədər də artırıb. Amma iqtidar mənsubları hələ də buna əhəmiyyət verməyərək rəqib və təhlükə saydıqları qüvvələri ən sərt üsullarla neytrallaşdırmağa çalışırlar.

Hər halda proseslərin gedişi Hayastanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# COP29 Akademiyası fəaliyyətə başlayır

**Bu ilin 11-22 noyabr tarixlərində ölkəmizdə baş tutacaq COP29 konfransı çərçivəsində aktiv iqlim fəaliyyəti ilə planetimizə töhfələrin verilməsi, eyni zamanda paytaxtımıza üz tutacaq on minlərlə xarici qonağın ən yaxşı təcrübə və qonaqpərvərliklə qarşılanmasının təmin edilməsi istiqamətində göstərilən səylərlə yanaşı, tədbirin ölkəmizə təsirləri də dəyərləndirilir.**




Bu istiqamətdə COP29 Azərbaycan Əməliyyat Şirkəti növbəti layihəyə start verərək ekoloji maarifləndirmə və iqlim dəyişmələri istiqamətində gənclərin fəal iştirakının təmin edilməsi məqsədilə COP29 Akademiyasının fəaliyyətə başladığını elan edir.

Akademiyanın yaradılması iqlim və dayanıqlılıq mövzularında peşəkar səriştələr, liderlik, dərin bilik nümayiş etdirən və fərqlənən universitet məzunlarını tanımaq və dəstəkləməyi, ölkənin parlaq gəncləri vasitəsilə dayanıqlılığın əhəmiyyəti barədə cəmiyyətin məlumatlandırılmasını hədəfləyir.

Bu proqram iştirakçılara mentorluq, davamlı peşəkar inkişaf və özünüinkişaf üçün imkanları təklif etməklə iştirakçıların dayanıqlılıq sahəsində biliklərə yiyələnməsi, bu biliklərin həmyaşıdları, ailələri və ictimaiyyət ilə paylaşmaları üçün bir platforma rolunu oynayacaq.

İstənilən ixtisas sahəsi üzrə məzunların müraciətlərini qəbul edəcək akademiya qeydiyyatdan keçən gənclər üçün ünsiyyət, layihələrin idarəedilməsi, peşəkar davranış kodeksi və s. kimi yumşaq bacarıqlara yiyələnmək üçün müvafiq mütəxəssislərin iştirakı ilə seminarlara qatılma imkanı yaradacaq. Akademiyanın iştirakçıları Əməliyyat Şirkəti tərəfindən işlə təmin edilərək COP29 tədbirinin təşkilinə işçi heyətinin üzvü qismində töhfə verməyə cəlb olunacaqlar.

2023-cü və 2024-cü illərdə akkreditə olunmuş universitetlərdən məzun olan, Azərbaycan vətəndaşlığını daşıyan və əmək fəaliyyəti ilə məşğul olmayan, sosial aktiv, xarici dil bilikləri yüksək olan bütün namizədlər 22 iyun 2024-cü il tarixinədək ərizə formasını dolduraraq qeydiyyatdan keçə bilərlər. Proqram tələblərinə əsasən, seçilən namizədlər müsahibə mərhələsinə dəvət olunacaqlar.

Ümumilikdə tədbir həm gənclər, həm ölkənin ümumi işçi qüvvəsinə əsaslı şəkildə təsir edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*






# Son zəng - gələcək uğurlara çağırış

**Yaşadığımız bu gözəl həyatda unudulmaz günlərimiz, anlarımız çox olur. Belə günlərimizdən biri də orta məktəbi bitirdiyimiz, yeni həyata ilk addımlarımızı atdığımız gündür.**

Həmin gün çalınan son zəngdir. Son zəngin sədalarını hamımız eşitmişik. O unudulmaz anları hamımız yaşamışıq. Son zəng çalınan həmin günün, həmin anın üstündən illər karvanını səssiz-səmirsiz çəkib getsə də, onun sədaları qulaqlarımızdan heç vaxt getmir. Ömrümüzün sonuna qədər yaddaşımızda qalır. Olub-keçənləri xatırlatmaq, o anların sevincini təzədən bizə yaşatmaq üçün qalır.

Dünən Azərbaycanın ümumtəhsil məktəblərində son zəng çalındı. Həmişə kövrək hisslərlə xatırlanacaq bu səslə şagirdlərin ömürlərinin ən şirin, duyğulu və qayğısız günlərinin keçdiyi məktəb illəri sona yetdi. Bu zəngin sədaları qəlblərin kövrək simlərini titrətdi, könüllərə həzin sığal-tumar çəkdi.

Başqaları üçün adi bir gün olsa da, son zəngin çalındığı gün 11-cilər üçün unudulmaz oldu. Məzunlar bir anlıq valideynlərinin əlindən tutub dərsə gəldikləri ilk günü, çətinliklə yazdıqları hərfləri, əzbərlədikləri şeirləri, on bir il çiyinlərində daşıdıqları məktəb çantalarını, hər gün qarşısına çıxdıqları lövhəni, onlara qələm tutmağı öyrədən müəllimləri xatırladılar.

Son zəngin xoş və unudulmaz sədaları bu yay günündə məktəbliləri müstəqil həyata səsləyirdi. O həyata ki, şagirdlər onu illərdən bəri arzulayırmışdılar, intizarını çəkmişdilər. Əminik ki, təhsilini başa vurmuş şagirdlər ölkəmiz üçün dəyərli vətəndaş, valideynlər üçün qürurlu övlad olacaqlar, səsləri zirvələrdən gələcək, uğurları, zəfərləri ilə ad-san qazanacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



Füzulidə son zəng



Tərtərdə son zəng



Zabuxda son zəng








Bakıda son zəng



Naxçıvanda son zəng



Sumqayıtda son zəng



Talış kəndində son zəng

# *Allahşükür PAŞAZADƏ:* "Qurban bayramı ilə Milli Qurtuluş Gününün eyni zamana təsadüf etməsi həmrəyliyimizi daha da gücləndirir"

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik edib.**



AZƏRTAC xəbər verir ki, builki Qurban bayramının müstəqil dövlətçilik tariximizdə mühüm əhəmiyyət daşıyan Milli Qurtuluş Günü ilə eyni günə təsadüf etdiyini bildirən Şeyxülislam bu iki müqəddəs günün üst-üstə düşməsinin həm dini, həm də milli dəyərlərimizi daha da möhkəmləndirdiyini, həmrəyliyimizi gücləndirdiyini söyləyib. QMİ sədri qeyd edib: "Bu əziz bayramı dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması, qəhrəman Azərbaycan əsgərinin Xankəndidə, Əsgəranda, Xocalıda dövlətimizin üçrəngli bayrağını ucaltması, Şuşa, Ağdam, Zəngilan məscidlərinin minarələrindən azanların səslənməsi ilə qarşılayırıq. Müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizdə Böyük qayıdışın ruh yüksəkliyi yaşanır, məbədlərimiz bərpa və inşa edilir, ata-baba yurdlarına qayıdanlar bu torpaqlara yeni nəfəs, yeni həyat verir. Bu mübarək günləri bizə, bütün xalqımıza yaşatdığı üçün Uca Yaradana sonsuz həmd-sənalar edir, Qələbənin müəllifi və sərkərdəsi, Azərbaycan xalqının böyük oğlu, adı tarixin qızıl səhifəsinə Qarabağ Fatehi kimi yazılan Ali Baş Komandan İlham Əliyevə xeyir-dualar diləyirik!"

Şeyxülislam builki Qurban bayramının müstəqil dövlətçilik tariximizdə mühüm tarix - Milli Qurtuluş Günü sevinci ilə eyni zamana təsadüf etdiyini bir daha xatırladaraq əlavə edib: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlətçiliyimizin xilası günü münasibətilə xalqımızı ürəkdən təbrik edir, dövlət müstəqilliyimizin daimi, zəfərlərimizin davamlı olmasını diləyirik. Dünya ictimaiyyəti Azərbaycanın siyasi Liderinin qüdrətinin və ölkəmizdəki sarsılmaz xalq-dövlət birliyinin şahididir. Ulu Öndər Heydər Əliyevin siyasi məktəbini şərəflə davam etdirən Prezident İlham Əliyevin misilsiz uğurlarına görə, biz Azərbaycanın gələcəyinə böyük inam, ümidlə baxırıq və inanırıq ki, Allahın köməyi ilə xalqımız müzəffər lideri ilə birlikdə daha böyük zəfərlərə imza atacaq".

"Qazılar Şurasının fətvasında qeyd olunduğu kimi, builki bayram qəməri təqvimlə zilhiccə ayının 10-na, miladi tarixlə iyunun 16-na təsadüf edir. Həmişə xalqın dini inanclarının qayğısına qalan dövlətimiz iki günü - iyunun 16-17-də qeyri-iş günü elan edib və bu xüsusi münasibətinə görə biz müsəlmanlar dövlətimizin başçısına minnətdarlığımızı bildiririk. Şəri hökmlərə əsasən, qurban kəsimi üç gün ərzində icra oluna bilər. Hədislərdə qeyd olunduğu kimi, Qurban bayramının gecəsi və günü duaların qəbul olunduğu zamandır. Həmrəylik, yardımlaşma və mənəvi təmizlənmə rəmzi olan bu müqəddəs gündə Vətən uğrunda mübarizədə şəhid olan qəhrəman övladlarımızı rəhmət duaları ilə yad etmək, qazilərimizə, yaralılarımıza Allahdan şəfaət və səadət diləmək, yaşlılara və imkansızlara şəfqət göstərmək bizim vəfa borcumuzdur. Bir daha bu əziz bayram münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik edir, Qurban bayramının daşıdığı mənəvi dəyərlərə həmişə sadiq qalmağı Uca Yaradandan təmənna edirik. Allah bütün müsəlman ümmətinin ibadətlərini qəbul etsin, Azərbaycanı və dövlətimizin başçısını qorusun, Allahın mərhəmət nəzəri daim Vətənimizin və xalqımızın üzərində olsun! Qurban bayramımız mübarək olsun!", - deyə A.Paşazadə təbrikində bildirib.






# Birlik və mərhəmət bayramı

**İslam dünyasının müqəddəs bayramlarından biri olan Qurban bayramı bütün müsəlman ölkələrində böyük təntənə ilə qeyd olunur. Azərbaycanda isə Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" qanununa əsasən, Qurban bayramı dövlət səviyyəsində qeyd edilir.**

İnsanları halallığa və mərhəmətə səsləyən bu bayramın maraqlı tarixi və şərtləri var. Tarixinə nəzər yetirəndə görürük ki, qurban ayini islamdan çox-çox əvvəllər, müxtəlif coğrafiyalarda müxtəlif formalarda icra olunub. Qədim dövrlərdə qurban verilənlərin əksəriyyəti hərbi əsirlər olmuşlar. Çünki müharibədə ələ keçirilən əsirləri saxlamaq əlverişli deyildi, onlar izafi məhsul yaratmır, xüsusi gözətçi tələb edir və başqa əlavə problemlər yaradırdılar. Buna görə də onların qurban verilməsi ən əlverişli və müqəddəs əməliyyat sayılırdı.

Qurban bayramının ən önəmli cəhəti isə ondan ibarətdir ki, insan Allahın yaratdığı ən şərəfli və ən üstün canlıdır. Tanrı insan qanının tökülməsinin əleyhinədir.

İslam dini ərəb tayfalarının həmişə icra etdikləri qurban vermək adətinə müqəddəslik mahiyyəti qataraq onu Qurban bayramı adlandıraraq müsəlmanlığın əsas tələblərindən birinə çevirib. İslamın bu adətə etdiyi yeganə əlavə ondan ibarət olmuşdur ki, bu mərasimi hər il hicri tarixi üzrə Zilhiccə ayının 10-da keçirməyi bir növ qanunilәşdirmişdir. Bayram günü məscidlərdə xüsusi bayram namazı qılınır, dəvə, mal-qara, davar qurban kəsilir, vəfat etmiş əziz adamların xatirəsini yad etmək əlaməti olaraq evlərdə və qəbiristanlıqlarda dua oxunur, ehsan verilir.

Şəriətə görə, qurbanlıq heyvanın qüsuru olmamalı və onu kəsən bıçağa xüsusi qurban duası oxunmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olmasına üstünlük verilir. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Bir qurbanlıq heyvan yeddi dindarın adından kəsilə bilər. Lakin fərdi qurban daha savab sayılır.

"Qurban" sözü ərəb dilində Allahın rəhmətinə yaxınlaşma anlamını verir. Qurban bayramı Həzrət İbrahim və onun oğlu İsmayılın adı ilə adlansa da, əslində "Qurban" sözünə Həzrəti Adəmin dövründə oğlanları arasında baş verən hadisələrdə də rast gəlinir.

Əsrlərdir ki, dindarlar hər il qurban kəsərək Tanrıya öz itaətkarlıqlarını bildirirlər. Ömründə bir dəfə vacib Məkkəyə Həcc ziyarətinə getməsi və orada qurban kəsməsi dindarın borcu hesab olunur.

İnsanları mehribanlığa, birliyə çağıran bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Tanrının imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır.

Qurbanlığın ən gözəl xüsusiyyətlərindən biri də odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın.

Müqəddəs bayramın şərtlərindən biri də qurban kəsməyin yalnız buna imkanı olan adamların boynundakı haqq olmasıdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq da islamda qəbul olunmur. Çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığı və həmrəyliyidir.

Həmişə olduğu kimi, bu il də ölkəmizdə Qurban bayramı elliklə qeyd ediləcək. Qurbanlar kəsiləcək, dualar oxunacaq, ibadət olunacaq. Allah kəsilən qurbanları, edilən ibadət və duaları qəbul etsin! Bayramınız mübarək!

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri Gürcüstanın Rustavi və Qardabani şəhərlərində olublar

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti iyunun 13-də Gürcüstanın Rustavi və Qardabani şəhərlərində olub.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin Rustavi şəhərində yerləşən abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıb.

Nümayəndə heyəti Rustavi şəhərində yerləşən "Cümə" məscidini ziyarət edib. Məscidin dini icmasının üzvləri ilə müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Ramin Məmmədov Gürcüstanda yaşayan azərbaycanlıların dini dəyərlərə, milli və etnik köklərə bağlılığının mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Sonra dövlət komitəsinin sifarişi ilə çap edilmiş kitablar məscidə hədiyyə olunub.

Dövlət komitəsinin sədri Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Qardabani şəhərindəki "Marağa" məscidini ziyarət etdikdən sonra "Əl-Hikmət" mərkəzinə gəlib. Burada Gürcüstandakı soydaşlarımıza göstərilən diqqət və qayğıdan, humanitar, mədəniyyət, təhsil sahələrində, o cümlədən dini icmaların inkişafına verilən dəstəkdən bəhs edilib.

Komitə sədri Gürcüstandakı azərbaycanlıların milli-mənəvi dəyərlərə bağlılığının qorunub saxlanılmasının Azərbaycan dövlətinin daim diqqət mərkəzində olduğunu vurğulayıb.

# Artıq çəkidən niyə əziyyət çəkirik?

## Hər il təxminən 3 milyon insan bu problemin yaratdığı fəsadlardan həyatını itirir

**Artıq çəki qarşısı alına bilən ölüm səbəbləri arasında siqaret aludəçiliyindən sonra ikinci ən geniş yayılmış problemdir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada 1 milyarddan çox insan piylənmədən əziyyət çəkir. Hər il təxminən 3 milyon insan artıq çəkinin yaratdığı fəsadlardan həyatını itirir.**



Araşdırmalara əsasən, piylənmə xüsusilə son 42 ildə sürətlə artaraq bütün dünyada epidemiya halını alıb. Bu sağlamlıq problemi ilə üzləşən insanların sayı ilbəil artır. ÜST 2030-cu ilədək dünya əhalisinin təxminən yarısının artıq çəki və piylənmədən əziyyət çəkəcəyini proqnozlaşdırır.

Bəs artıq çəki problemi hansı fəsadlara səbəb olur? Bu problemlə mübarizə aparmaq hər zaman insanın özündən asılıdırmı? Piylənmənin qarşısını almaq üçün hansı tədbirlər görülməlidir?

### Artıq çəki insan ömrünü ən az on il qısaldır

Əvvəllər yalnız inkişaf etmiş ölkələrdə müşahidə olunan piylənmə problemi bu gün az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə də artmaqdadır. Gələcəkdə piylənmə problemi ilə üzləşəcək 10 ölkədən 9-u Asiya və Afrika qitələrinin payına düşəcək. Beynəlxalq ictimaiyyət həmin ölkələrin bu xəstəliklə mübarizə apara bilməyəcəyini bildirir. ÜST-ün məlumatına görə, hazırda Avropada böyüklərin təxminən 60 faizi, uşaqların üçdəbiri artıq çəkidən və ya piylənmədən əziyyət çəkir. ABŞ, Çin, Braziliya, Hindistan və Rusiyada piylənmə ilə mübarizə aparanların sayı digər ölkələrlə müqayisədə üç dəfə çoxdur.

Hormonal sistemi pozaraq çəki artımına səbəb olan zəhərli kimyəvi maddələrin - "obesogenlər"in bir çox təsirləri var. Plastik, qatqılı qidalar, pestisidlər, təmizlik məhsulları, bəzi oyuncaqlar, siqaret tüstüsü və hava çirkliliyi "obesogenlər" kimi müəyyən edilir. Onlar yağ hüceyrələrini artırır, maddələr mübadiləsini yavaşladır, aclıq və toxluq mexanizmlərini pozur, tiroid istehsalına təsir edir, insulin müqaviməti yaradır və ya mədəaltı vəzi məhv edir. Zəhərli kimyəvi maddələrə qarşı körpələr, uşaqlar, hamilə qadınlar və yaşlılar daha həssasdırlar.

"Obesogenlər" bir çox xəstəliklərin yaranmasının bilavasitə səbəbidir. Həkimlərin məlumatına görə, insan ömrünü ən az on il qısaldan artıq çəki insan orqanizmində ürək-damar, tənəffüs sistemi, erkən yetkinlik, yüksək təzyiq, sonsuzluq, xərçəng, autizm, şəkərli diabet və dayaq-hərəkət sistemi xəstəlikləri kimi bir çox problemlərə yol açır. Tədqiqatlar göstərir ki, Avropada piylənmə ilə mübarizə aparan xəstələrin 80 faizi 2-ci tip şəkərli diabet xəstəliyindən, 35 faizi ürək-damar xəstəliyindən, 55 faizi isə hipertoniyadan əziyyət çəkir.

### Fiziki aktivlik və pəhriz arıqlamaq üçün ən yaxşı vasitələrdir

Oturaq həyat tərzi və inkişaf edən texnologiya ilə qidalanma vərdişlərinin sürətlə dəyişməsi piylənməni sürətləndirən səbəblərdəndir. Artıq çəki ilə mübarizə apararkən orqanizmimizi daha böyük fəsadlarla üz-üzə qoymamalıyıq. Piylənmə və pəhrizlə bağlı aparılan 87 tədqiqatın təhlili göstərib ki, bitki mənşəli pəhriz arıqlamaq üçün ən təsirli üsuldur. Fiziki məşq və yemək vərdişlərində əhəmiyyətli dəyişikliklər edir.

Mütəxəssislər konservləşdirilmiş və hazır qidaların istehlakını azaltmağı, tərkibində ağır metallar olan dəniz balıqlarından və yağlı ətlərdən istifadə etməməyi məsləhət görürlər. Onların əvəzinə mövsümə uyğun meyvə-tərəvəz, paxlalı bitkilər qida rasionuna əlavə edilməlidir. Havaların isinməsi ilə istifadəsi artan fruktoza ilə zəngin meyvə şirələri, qazlı və enerji içkiləri istehlakdan çıxarılmalıdır. Maye kalorilər tərkibində lif olmadığı üçün aclıq hissini təmin etmir.

Odadavamlı, yapışmayan qazan və tavalardan istifadə etmək də tövsiyə edilmir. Qida istehlakı və saxlanması zamanı plastik əvəzinə şüşə məhsulları seçilməlidir.

Ev və ofislərdə antibakterial və kimyəvi məhsullardan mümkün qədər az istifadə edilməlidir. İstifadə edildikdə isə həmin səthlər bol su ilə durulanmalıdır. Həmçinin otaq ətirlərindən istifadə etmək əvəzinə, otaqlar tez-tez havalandırılmalı, həşərat, milçək qovucuları yerinə lavanda, nanə və limon kimi təbii efir yağlarından istifadə edilməlidir. Bir sözlə, gündəlik həyatımızdakı kimyəvi maddələri mümkün qədər azaltmalıyıq.

İnsanlarda artıq çəkinin qarşısının alınması üçün sağlam həyat tərzinə, rasional qidalanmaya riayət edilməli, gündəlik kalori qəbuluna, eləcə də yaş və sağlamlıq vəziyyətindən asılı olaraq fiziki aktivliyə nəzarət edilməli, siqaret, spirtli içki və stressdən uzaq olmalı və ən nəhayət, yuxu rejimi qaydaya salınmalıdır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***



TheLandmark
World-class offices in the heart of Baku

Azərbaycan xalqını Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında və inkişafında müstəsna əhəmiyyət kəsb edən **Milli Qurtuluş Günü** və dünya müsəlmanlarının humanizm, xeyirxahlıq, mərhəmət kimi mənəvi dəyərlərinin təcəssümü və həmrəylik rəmzi olan **Qurban bayramı** münasibətilə təbrik edir, Azərbaycan xalqına rifah, tərəqqi və əmin-amanlıq arzu edirik.

Təsadüfi deyil ki, 1997-ci ildən Azərbaycanda ilk iş mərkəzi olaraq fəaliyyət göstərən LANDMARK Kompleksinin tikintisi 1993-cü ildə başlanmışdır. Bu, məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sürətli sosial-iqtisadi inkişaf və quruculuq işləri üçün etibarlı zəmin yarandıqdan sonra mümkün olmuşdur. Ümid edirəm ki, Milli Qurtuluş Gününün əsasını qoyduğu qarşısıalınmaz davamlı tərəqqinin təmin olunmasında öz töhfəmizlə hər zaman Azərbaycan xalqının yanında olacağıq.

**Eran MÜDÜROĞLU,**
**LANDMARK Kompleksinin investoru və rəhbəri**

# Qanlı müharibələrin ağır fəsadları

## Dünyada məcburi köçkünlərin sayı rekord səviyyəyə yüksəlib



**2023-2024-cü illər dünyada məcburi köçkünlük ən yüksək səviyyədə olub. Bu barədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) illik hesabatında məlumat verilib. Hesabatda qeyd edilir ki, 2024-cü ilin may ayında məcburi köçkünlərin sayı 120 milyon nəfərə çatıb. Bu rəqəm 12-ci ildir ki, artmaqdadır. Səbəb isə davam edən böhranlar və yeni münaqişələrdir.**

BMT hesab edir ki, göstəricilərin kəskin artmasının əsas səbəbi Sudandakı münaqişədir. Bunun nəticəsində 2023-cü ilin sonuna kimi 10,8 milyon insan evini tərk etmək məcburiyyətində qalıb. Bundan əlavə, ötən il Konqo Demokratik Respublikası və Myanmada gedən döyüşlər səbəbindən də milyonlarla insan məcburi köçkünə çevrilib. Birləşmiş Millətlər Təşkilatının Fələstinli Qaçqınlara Yardım Agentliyinin (UNRWA) hesablamalarına görə, Qəzza zolağı əhalisinin təxminən 75 faizi (təxminən 1,7 milyon nəfər) evlərini tərk etmək məcburiyyətində qalıb. Suriya isə ölkə daxilində və xaricində köçkünlərin sayına görə rekorda sahibdir - 13,8 milyon insan yurdundan məhrum olub.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Filippo Qrandinin dediyinə görə, bu nəhəng və artan rəqəmlərin arxasında saysız-hesabsız insan faciələri dayanır. Bu əzab məcburi köçkünlüyün əsas səbəblərini aradan qaldırmaq üçün beynəlxalq ictimaiyyəti təcili tədbirlər görməyə vadar etməlidir. Qaçqınlar üzrə Ali Komissarlığın hesabatında qeyd edilir ki, münaqişə səbəbindən evlərini tərk edən insanların çoxu öz ölkələrində didərgin düşüb. Məlumata görə, bu rəqəm 5 il ərzində təxminən 50 faiz artaraq 68,3 milyon nəfərə çatıb. Bundan əlavə, qaçqınların və beynəlxalq müdafiəyə ehtiyacı olan şəxslərin sayı 43,4 milyon nəfərə yüksəlib. Qrandi bildirib ki, savaşan tərəflər müharibənin əsas qanunlarına və beynəlxalq hüquqa hörmət etməlidirlər. Münaqişələrin həlli, insan hüquqlarının pozulmasına son qoyulması və iqlim böhranının həlli üçün daha geniş əməkdaşlıq və birgə səylər olmasa, köçkünlərin sayı artmaqda davam edəcək.

Hesabata görə, 2023-cü ildə dünya üzrə 5 milyondan çox məcburi köçkün və 1 milyona yaxın qaçqın evlərinə qayıdıb. Həmin il köçkünlərin sayı 154,3 min nəfər artıb. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı keçən il milyonlarla insanın evlərinə qayıtdığını bildirib və bu məlumatı "ümid işığı" adlandırıb. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türkün dediyinə görə, həll yolları artıq mövcuddur - "biz Keniya kimi ölkələrin qaçqınların inteqrasiyasında öndə getdiyini görürük - lakin bu, tərəflərdən real öhdəliklər tələb edir". O, həmçinin bildirib ki, qaçqınların və onları qəbul edən icmaların həmrəyliyə və yardıma ehtiyacı var: "Onlar ölkəyə daxil olduqda, cəmiyyətə töhfə verə bilərlər və bunu edirlər".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*








# Avro-2024





### Qlazqodan Münxenə piyada gedib



Şotlandiyalı azarkeş Kreyq Ferqyuson "Avro-2024"ün açılış matçı üçün Qlazqodan Münxenə piyada gedib. O, Almaniya paytaxtına çatmaq üçün 42 günə 1600 kilometr məsafə qət edib. Fanat Berlində həmvətənləri tərəfindən su və şampanla qarşılanıb.

### "Avro-2024"ə ən çox futbolçu göndərən komandalar

Almaniyada keçiriləcək "Avro-2024"də İngiltərənin "Mançester Siti" və İtaliyanın "İnter" klublarının futbolçuları üstünlük təşkil edəcək. Belə ki, hər iki klubu turnirdə 13 futbolçu təmsil edəcək.

İngiltərə komandasından Fil Foden, Con Stounz, Kayl Uoker (hamısı İngiltərə), Ruben Dias, Bernardo Silva, Matheus Nunes (hamısı Portuqaliya), Kevin De Brüyne, Ceremi Doku (hər ikisi Belçika) Yoşko Quardiol, Mateo Kovaçiç (hər ikisi Xorvatiya), Rodri (İspaniya), Manuel Akanji (İsveçrə) və Natan Ake (Niderland) "Avro-2024"ə yollanıb.

Eyni zamanda "İnter"dən isə Nikolo Barella, Alessandro Bastoni, Federiko Dimarko, Davide Frattesi, Matteo Darmian (hamısı İtaliya), Benjamin Pavard, Markus Thuram (hər ikisi Fransa), Hakan Çalhanoğlu (Türkiyə), Denzel Dumfries, Stefan de Vrij (hər ikisi Niderland), Kristian Aslani (Albaniya), Yan Sommer (İsveçrə) və Marko Arnautovic (Avstriya) turnirdə iştirak edəcək.



# "Skuadra Adzurra"dan "Qırmızı furiya"dək

## Türkiyə millisi 16 il əvvəlki uğuru təkrarlaya biləcəkmi?

**"Avro-2024"də komandaların sayının, xüsusən də qələbəyə iddialı kollektivlərin çox olması azarkeşlərə maraqlı və gərgin idman mübarizəsi vəd edir.**

Belə ki, son Avropa birinciliyinin qalibi İtaliya, hazırkı dünya ikincisi Fransa, çempionatlara xüsusi oyun planı ilə rəng qatan Almaniya, "Biz bitdi demədən bitməz" deməklə sürpriz nəticələr qazanan Türkiyə, eləcə də heyətlərində ulduz futbolçuların yer aldığı Portuqaliya, İngiltərə favoritlər hesab olunur.

Azərbaycan azarkeşlərinin daha çox dəstəklədikləri komanda qardaş Türkiyə seçməsidir. "Ay-ulduzlu"lar seçmə mərhələdə qrupda Xorvatiya və Uels kimi komandalarla mübarizə aparmalı olub. Almaniyalı çalışdırıcı Ştefan Kuntsun rəhbərlik etdiyi yığma tsiklin əvvəlində Ermənistanda qələbə qazansa da (2:1), evdə Xorvatiyadan buraxılan iki cavabsız qol həyəcan təbili çalıb. Latviya ilə səfər (3:2), Uelslə ev (2:0) matçlarındakı qalibiyyətlər komandanı toparlayıb. Amma evdə Ermənistanı məğlub edə bilməmək, hətta yenilgidən son dəqiqələrdə qurtulmaq sonda baş məşqçi dəyişikliyinə çıxarıb.

Almaniyalı postunu italiyalı Vinçentso Montellaya verməli olub. Səfərdə Xorvatiyanı 1, evdə Latviyanı 4 cavabsız qolla keçən Türkiyə Almaniyaya biletini təmin edib. Sonda Uelsdəki xal itkisi (1:1) də yığmanın 1-ci yeri tutmasına mane olmayıb.

Türkiyə ardıcıl 3-cü dəfə Avropa çempionatının final mərhələsində oynayacaq. Lakin "Avro -2016" və "Avro-2020" heç də yaxşı xatirələrlə zəngin olmayıb. "Ay-ulduzlu"lar hər iki turnirdə qrupda qalmaqla azarkeşləri üzüb. Türkiyənin Avropadakı ən böyük uğuru isə 2008-ci ilin yarımfinalı olub. Almaniya ilə görüşün (2:3) son dəqiqəsində buraxılan qol final arzusunun üstündən xətt çəkib.

İngiltərə isə 1966-cı ildə qazanılan dünya çempionluğundan sonra mundial və qitə çempionatlarını qazanmayıb. Çox maraqlıdır ki, ingilislər qatıldıqları bütün yarışların favoritləri sırasında olublar. Əvvəllər onlara daha çox futbolun yaradıcıları olduqları üçün belə yanaşıblar. Qaret Sautqeytin baş məşqçi təyinatından sonra İngiltərə yaxşı komanda formalaşdırıb. Yığmanın ulduzları isə hər yerdə özündən söz etdirir. "Tottenhem"i "Bavariya"ya dəyişən "qol maşını" Harri Keyn planetin ən yaxşı hücumçularından biridir. "Mançester Siti"nin liderlərindən olan Fil Foden də millinin gücünə güc qatır. "Qızıl top"a əsas namizəd sayılan "Real"ın gənc ulduzu Cud Bellinqem isə "Avro-2024"ə ən yaxşı olmaq üçün yollanacaq. Sautqeytin sərəncamındakı ulduz toplusu bu "üçlük"lə bitmir. Bukayo Saka və digərləri də Almaniyaya titul arzusu ilə gedəcək.

Çempionluğa əsas namizədlərdən biri kimi göstərilən İspaniya millisi 12-ci dəfə Avropa çempionatına qatılacaq. Üçqat qitə çempionu olan pireneylilər titul sayında Almaniya ilə şərikli rekordçudur. Amma "Qırmızı furiya" yarışın tarixinə heç kimin bacarmadığını reallaşdırmaqla düşüb. İspaniya ardıcıl iki dəfə çempion olan yeganə komandadır. "Avro-2008" və "Avro-2012"nin qalibi tarixinin ən yaxşı dövründə titulunu qoruyub.

Nəsildəyişmədən sonra komandanın zəifləyəcəyini düşünənlər az deyildi, amma ötən Millətlər Liqasını qazanmaqla Avropada ən güclü olan "Qırmızı furiya" eyni uğuru Almaniyada təkrarlamağa iddialıdır. İspaniyalıların yeganə problemi uzun illərdir "vuran ayağı"nın olmamsıdır. Nə Alvaro Morata, nə də digərləri əsl mərkəz hücumçusu kimi fayda verir. Amma ispaniyalılar orta sahədəki hegemonluqla hücumçusuz da qələbələr qazanmağa adət edib.

Niderlandın seçmə mərhələlərdə nadir hallarda büdrədiyini söyləmək olar. Ara-sıra final turnirlərindən kənarda qalan "narıncılar" Almaniya yoluna nokautla başlayıb. Niderland millisini böyük turnirlərin böyük uğursuzu saymaq olar. Komanda final və yarımfinaldakı məğlubiyyət sayı ilə belə imici formalaşdırıb. Mundiallarda üç final oynayan yığma iki dəfə yarımfinalda dayanıb. Son dörd dünya çempionatında gümüş və bürüncü olan "narıncılar" fiasko yaşayıb seçmə mərhələdə ilişdiklərini də unutmayıblar. 11-ci dəfə Avropa çempionatına yollanacaq komanda 5 dəfə yarımfinal oynayıb. Onların yalnız birində sevinən milli uzaq 1988-ci ilin çempionudur. Həmin uğurdan sonra Niderland yalnız bir dəfə final mərhələsini buraxıb. Bu da 8 il əvvələ təsadüf edib.

İtaliya millisi son Avropa çempionatının qalibidir. "Skuadra Adzurra" Almaniyada titulunu qorumağa çalışacaq. İndiyədək yalnız bir dəfə - 2012-ci ildə əvvəlki çempion adını qorumağı bacarıb. İkiqat Avropa çempionu olan apenninlilər son üç yarışda iki final oynayıblar. Avropa çempionu turnirdən kənar qalmaq təhlükəsindən son anda qaçıb. Seçmə mərhələdə İngiltərəyə iki dəfə uduzan İtaliya Almaniyaya vəsiqəni çətinliklə qazanıb. Şimali Makedoniya ilə görüşdə də xal itirən komanda ikincilik mübarizəsində Ukraynanı əlavə göstəricilərdə üstələyib. Son turda məhz əsas rəqibinin qonağı olan "Skuadra Adzurra" uduzmamaq vəzifəsinin öhdəsindən gəlməklə (0:0) ikinci yerini qoruyub.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



## Günün təqvimi

### 15 iyun

A qrupu: 17:00 Macarıstan - İsveçrə
B qrupu: 20:00 İspaniya - Xorvatiya
B qrupu: 23:00 İtaliya - Albaniya

### 16 iyun

D qrupu: 17:00 Polşa - Niderland
C qrupu: 20:00 Sloveniya - Danimarka
C qrupu: 23:00 Serbiya - İngiltərə

### 17 iyun

E qrupu: 17:00 Rumıniya - Ukrayna
E qrupu: 20:00 Belçika - Slovakiya
D qrupu: 23:00 Avstriya - Fransa

### 18 iyun

F qrupu: 20:00 Türkiyə - Gürcüstan
F qrupu: 23:00 Portuqaliya - Çexiya

### 19 iyun

B qrupu: 17:00 Xorvatiya - Albaniya
A qrupu: 20:00 Almaniya - Macarıstan
A qrupu: 23:00 Şotlandiya - İsveçrə

### 20 iyun

C qrupu: 17:00 Sloveniya - Serbiya
C qrupu: 20:00 Danimarka - İngiltərə
B qrupu: 23:00 İspaniya - İtaliya

## Ötən günün nəticəsi

**A qrupu**

Almaniya - Şotlandiya 5:1





# Vətən deyəndə...





**Qarabağ Azərbaycandır!**

## Qalib olmaq qürurludur

**27 sentyabr 2020-ci il səhər saat 06:00 radələrində erməni işğalçıları 1994-cü il may ayının 12-də elan olunmuş atəşkəs rejimini kobudcasına pozaraq mövqelərimizin üzərinə hücuma keçdilər. İllərdən bəri hər an gözlənilən tarixi gün, tarixi an - yurdumuzun işğaldan azad ediləcəyi gün qapımızı döydü.**



Həmin vaxt hələ heç günəş üfüqdən boylanmamış Qarabağın azadlığı uğrunda müharibənin başladığını bildirən ilk güllələr atıldı. Barmaqlar tətiyə uzandı, uzun illərdən bəri susan silahlar işə düşdü. Yer-göy atəş səslərindən lərzəyə gəldi. Bütün cəbhəboyu torpaqlarımızın işğaldan azad olunması uğrunda qanlı döyüşlər başladı. Sanki illərdən bəri qınında pas atmış qılınc qəflətən sıyrıldı. Zabit və əsgərlərimiz 30 ilə yaxın düşmən tapdağında qalmış yurd yerlərimizi işğaldan azad etmək üçün döyüşlərə atıldılar.

Qısa müddət ərzində yağıları geri qovan Azərbaycan Ordusu torpaqlarımızın qurtuluşu naminə gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər. Erməni işğalçıları bu hünərin, bu qəhrəmanlığın qarşısında duruş gətirə bilməyərək silah-sursatını, zirehli texnikalarını, yaralılarını atıb qaçdılar. Düşmənlərin mövqelərindən geri çəkildiklərini gördükcə qürur hissləri keçirirdik. Deməli, artıq erməni qəsbkarları əsgərlərimizin əks-hücumları qarşısında dayana bilmirdilər, addım-addım məhvə, məğlubiyyətə sürüklənirdilər.

Döyüşlərin elə ilk dəqiqələrindən cəsarəti və hünəri ilə üstünlüyü ələ alan və onu sonadək qoruyub saxlayan Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vururdu. Silahlar gurladıqca uzun illərdən bəri hökm sürən sükut çilik-çilik olub ətrafa səpələnirdi. Vətənpərvərlik duyğularından güc alan zabit və əsgərlərimiz işğal altındakı Vətən torpaqlarını azad etmək üçün əldə silah düşmən üzərinə yeriyirdilər. Təlimlərdə topladıqları döyüş təcrübələrindən bəhrələnən hərbçilərimiz erməni qəsbkarlarının mövqelərini dəqiq atəş zərbələri ilə darmadağın edirdilər.

Xalqın ordusuna bəslədiyi ümidlər özünü doğruldurdu. Bir-birindən cəsur, igid zabit və əsgərlərimiz cəsarətlə yağıların üzərinə atılaraq, onları məhv edir, sağ qalanlarını da mövqelərindən geri qovurdular. Böyük strateji əhəmiyyətə malik olan yüksəkliklər, yaşayış məntəqələri bir-birinin ardınca erməni qəsbkarlarından azad edilirdi. Bu uğurlardan xalqın uzun illər kədər yağan üzü gülürdü. Bu uğurlardan şəhidlərimizin göylərdə narahat dolaşan ruhları da rahatlıq tapırdı. Bu uğurlardan qələbələrə gedən yollar üzümüzə geniş açılırdı. Bu uğurlar, bu zəfərlər Azərbaycan Ordusunun gücündən, onun sıralarında xidmət edən zabit və əsgərlərin vətənpərvərliyindən, qəhrəmanlığından xəbər verirdi.

Azərbaycan əsgərinin düşmən üzərində qazandığı zəfərlər hamımızı sevindirirdi. Xalqda ordusuna, əsgərinə böyük inam yaradırdı. Bu inamı qəhrəmanlığı ilə doğruldan Azərbaycan Ordusu 44 gün ərzində işğalçıları torpaqlarımızdan qovdu. 28 il əvvəl doğma ocaqlarından didərgin düşmüş insanlar bu gün böyük sevinc içində Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq hissi ilə ata-baba yurdlarına dönürlər.

İkinci Qarabağ müharibəsindən əvvəl cəbhə bölgələrində ezamiyyətlərdə olarkən səngərlərdə dayanıb yurdumuza keşik çəkən zabit və əsgərlərimizlə görüşlərimiz zamanı maraqlı hadisələrlə, yaddaqalan məqamlarla qarşılaşırdıq. Bundan qürur duyur, hərbçilərimizin vətənpərvərliyinə heyran qalırdıq. Füzuli istiqamətindəki səngərlərin birində olarkən yurdumuzu qoruyan zabit və əsgərlərin mövqelərində Lələtəpə yüksəkliyinin modelini düzəltdiklərini gördük. Hərbçilərimiz səliqə ilə düzəltdikləri bu abidənin üstünə yüksəklik uğrunda gedən əməliyyatlarda şəhid olan zabit və əsgərlərin adlarını yazmışdılar.

Mövqelərin birində olarkən isə əsgərlərimizin düzəltdikləri bir lövhə diqqətimizi cəlb etdi. Lövhənin üstündə böyük hərflərlə bu sözlər yazılmışdı: "Döyüşsüz, hadisəsiz keçən günlər". Diqqətlə baxanda gördük ki, lövhədə üç rəqəm ard-arda düzülüb. Deməli, xeyli müddət idi ki, bu istiqamətdə elə bir ciddi hadisə, atışma baş verməmişdi. Hərbçilərimiz tezliklə yurdumuzun azadlığı uğrunda döyüşlərin başlanmasını, Qarabağımızın işğaldan azad olunmasını, erməni qəsbkarlarından təmizlənməsini istəyirdilər.

Hərbçilərimiz İkinci Qarabağ müharibəsində qəhrəmanlıqları ilə Azərbaycan Ordusunun zəfərlərinin, uğurlarının sayını daha da artırdılar. Çünki Azərbaycan əsgəri qalib əsgərdir, Azərbaycan zabiti qalib zabitdir!

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**Yurdu yaşadan qəhrəmanlar**

## Oğlunun da hərbçi olmasını arzulayırdı

**2020-ci ilin payızında işğalçı Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Azərbaycan xalqı qələbə ovqatına kökləndi. Ölkənin hər yerində böyükdən-kiçiyədək hər kəs müharibənin ilk günündən - sentyabrın 27-dən sonsuz həyəcanla, ümidlə ön cəbhədən qələbə xəbərlərini gözləyirdi.**



Çünki 30 ilə yaxın idi ki, bu ölkənin əzəli ərazilərinin iyirmi faizi təcavüzkar Ermənistanın işğalı altındaydı. Qarabağ və Şərqi Zəngəzur ərazilərimizin qəsbkarlardan qurtulması hər bir azərbaycanlının ən böyük arzusu idi. İkinci Qarabağ müharibəsində döyüşən Azərbaycan oğulları üçün isə bu yalnız arzu deyildi, həm də müqəddəs vəzifə, ali məqsəd idi. Bu amal uğrunda döyüşlərə atılan qəhrəmanlarımızdan biri də Emin Pünhan oğlu Mahmudov oldu.

Emin Mahmudov 1994-cü il iyunun 1-də Tovuzun Abulbəyli kəndində dünyaya gəldi. Uşaqlıqdan hərbçi olmaq xəyalına düşdü. Odur ki, orta məktəbdən sonra 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil oldu. Hərbi məktəbi bitirib Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə leytenant rütbəsi ilə xidmətə başladı. Hərbi xidmətini müxtəlif bölgələrdə davam etdirdi, 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı oldu.

Emin idmanı çox sevirdi. Hərbi xidmətdə də idmanla məşğul olurdu. O, həm fiziki, həm də mənəvi-psixoloji hazırlığı ilə seçilən gənc hərbçilərimizdən idi. Hərbi xidmət zamanı göstərdiyi peşəkarlıq, komandirlərinin tapşırıqlarını layiqincə yerinə yetirməsi, nümunəvi davranışı Emin Mahmudova təşəkkürlər, təltiflər, fəxri fərmanlar qazandırırdı. O, 2013-cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", 2018-ci ildə isə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif olundu.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Emin də ilk günlərdən döyüşlərə atıldı. Suqovuşan qəsəbəsinin azad edilməsində fədakarlıq göstərdi. Cəbrayılın, Füzulinin bir sıra kəndləri uğrunda gedən döyüşlərdə də Emin cəsarətlə vuruşdu, Hadrut qəsəbəsinin düşməndən təmizlənməsində fərqləndi. Silahdaşları sonralar danışıblar ki, peşəkar hərbçi Emin Mahmudov özü yaralansa da, döyüş bölgəsində son nəfəsinədək qəhrəmancasına vuruşub. Hadrutda 80 əsgərimizin düşmənin silahlı qüvvələrinin mühasirəsindən çıxmasında böyük şücaət göstərib.

Oktyabrın 11-də səhər doğmaları ilə telefonda danışmışdı. Heç zaman çətinliklərindən söz açıb onları həyəcanlandırmaq istəməzdi. Hər an hər cür dəhşətli hadisələrin baş verə biləcəyi, ölüm-dirim savaşının getdiyi bir vaxtda da onların təşvişini artırmamağa çalışırdı: "Məndən narahat olmayın, hər şey yaxşı olacaq", - deyirdi. Amma həmin gün həyat yoldaşı ilə danışanda onunla vidalaşırmış kimi söylədi: "Hər şey ola bilər, sən zabit yoldaşısan, nə olsa da, ağlama".

Azərbaycan Ordusunun baş leytenantı Emin Pünhan oğlu Mahmudov oktyabrın 11-də, axşamüstü Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid oldu. Doğulduğu kənddə dəfn edildi. Baş leytenant Emin Mahmudov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olundu.

İki körpə övlad atası olan Emin üçüncü övladını gözləyirdi. Doğmalarına tapşırmışdı ki, oğlu olsa atasının, qızı olsa Zeynəb adını qoysunlar. 2021-ci ildə şəhidin qızı dünyaya gəldi. Adını Zeynəb qoydular. Eminin bir arzusu da vardı. Oğlunun da hərbçi olmasını istəyirdi. Dörd yaşlı oğlu ilə gələcəyin hərbçisi kimi davranırdı. Ümid edirik ki, onun bu arzusu da yerinə yetəcək. Qəhrəman şəhidimizin vətənə əmanət etdiyi oğlu gün gələcək peşəkar hərbçi kimi vətənin keşiyində dayanacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Ölməzliyə qovuşanlar**

## Onun azad Azərbaycan adlı böyük bir arzusu vardı




**Yalnız əlamətdar günlərdə Şəhidlər xiyabanına gələndə deyil, Badamdar istiqamətində yolum düşəndə Sədaqətin qəbrini ziyarəti özümə borc bilirəm. Və həmişə - yayın bürküsündə, qışın şaxtasında bu müqəddəs məzar üzərində bir ədəd qərənfil görürəm. Sanki gəncliyinin, subaylığının, nakamlığının simvoludur... İkinci qərənfili isə mən qoyuram, çiçəklər qoşalaşıb - arzularımızın, dualarımızın rəmzinə çevrilir.**

O, paytaxtın bu ali məkanındakı son məskənini özü vəsiyyət etmişdi. Ağır döyüşlərin birində yaralanıb Bakıda hospitalda müalicə alarkən görüşünə gələn bacısı və əmisi qızına belə demişdir: "Vətən uğrunda şəhidlik məqamına yüksəlmək və Şəhidlər xiyabanında uyumaq ən böyük xoşbəxtlikdir. Döyüşlərdə həlak olsam, məni də burada torpağa tapşırarsınız".

Sədaqət Rəcəbova 1971-ci il yanvarın 27-də Zaqatala rayonunun Sabunçu kəndində dünyaya göz açmışdı. Valideynləri Abakər ata da, Səfiyyə ana da halal əməklə dolanan, zəhmətkeş, əliqabarlı insanlardı. Ailədə 5 övlad - 4 bacı, bir qardaş idilər. Sonbeşik olan Sədaqət "Elsevər" imzası ilə məqalə və şeirlər yazırdı. Elə bizim tanışlığımız da "Zaqatala" qəzetinin redaksiyasında olmuşdu. Mən BDU-nun Jurnalistika fakültəsində təhsil aldığım illər rayona gələndə, o isə əsrarəngiz dağ kəndindən yolunu redaksiyaya salanda görüşərdik.

SSRİ-nin çöküşü ilə regionda vəziyyət xeyli mürəkkəbləşir, ümidsizlik, həyəcan, qarışıqlıq yaranırdı. Azərbaycanda da proseslər get-gedə nəzarətdən çıxır, ictimai-siyasi durum ağırlaşır, hakimiyyət kürsülərinə canatmalar zəminində hərc-mərclik, özbaşınalıqlar hökm sürürdü. Fürsətdən yararlanan xain ermənilər Azərbaycana qarşı çoxdan planlaşdırıb üstüörtülü şəkildə apardıqları ərazi iddialarını açıq müstəviyə keçirmişlər. O zamanlar yenicə dövlət müstəqilliyi qazanmış ölkənin hələ nizami ordusu yaranmadığından könüllülər silaha sarılıb müdafiəyə qalxdılar. Məhz belə bir zərurət, mənəvi borc qarşısında cəsur, vətənpərvər qızımız da sakit dayana, kənardan seyrçi ola bilməzdi.

Sədaqət məktəbi əla qiymətlərlə oxumuşdu, yaradıcı gənc idi. Qələminin nəzm və nəsr məhsulları, məqalələri, müraciətləri, məktubları gələcəyin istedadından xəbər verirdi. Özü də jurnalist olmaq istəyirdi. Lakin torpaqlarımızda gedən amansız müharibə ona bu haqda düşünüb-daşınmağa imkan vermədi. Vətənin dar günündə bu arzusunu ürəyində dəfn edərək Qarabağ savaşına qatıldı.

1992-ci ilin martında Goranboy bölgəsinə gəldi. İlk günlərdən cəldliyi, qorxmazlığı, silahla davranışı, düşmənə nifrəti ilə döyüş yoldaşlarının hörmətini qazandı, əsgər və zabitlərin qız qardaşı oldu. Hərbi texnikaya xüsusi həvəsi tezliklə müxtəlif silahlardan mükəmməl istifadə, hətta tankı sərbəst idarə etməsi ilə nəticələndi. Sonralar könüllülərdən ibarət Zaqatala batalyonunun tərkibində Ağdam, Ağdərə, Füzuli cəbhələrindən keçdi, həmişə ən qaynar nöqtələrə yürüdü, döyüşlərdə şücaətlər göstərdi.

Müharibə bölgəsinə yardım aparmaq və səngərlərdən reportajlar hazırlamaq məqsədilə Qarabağa mütəmadi ezamiyyətlərə gedən, uzun illər region mətbuatında müxbir, məsul katib, redaktor işləmiş ixtiyar yaşlı jurnalist Zenfira Nəsibova bir məqamı daim xatırlayır: "Biz Ağdama çatanda əsgərlər döyüşdən yenicə qayıtmışdılar. Hamısı gəlib əl sıxıb görüşürdü. Birdən ovcumdakı əlin kişi xeylağına məxsus olmayacaq qədər yumşaqlığını hiss edib diqqətimi topladım. Qarşımdakı şəxs gülə-gülə papağını çıxaranda saçları çiyninə töküldü: "Müəllimə, düz tapmısınız, mən xanımam, 70 qardaşın bacısıyam", - dedi. İnanın, elə sevindim, qürurlandım ki..."

Ailəsi isə kənddə rahatlıq tapa bilmirdi. Odur ki, böyük övladları Əminəni cəbhəyə - bacısının görüşünə göndərdilər ki, bəlkə onu fikrindən daşındırar. Əminə isə cəmi bir neçə ay əvvəl ayrıldığı bacısını tanımaqda çətinlik çəkdi - Sədaqət bu müddətdə yenidən yoğrulmuş, mətinləşmiş, ad-san qazanmış, qəhrəman kimi hamının istəklisinə çevrilmişdi. Evə nə vaxt dönəcəyi barədə suala isə cavab belə oldu: "Nə vaxt vətən torpaqları azadlığa qovuşar, onda da üzüağ evə qayıdacağam!"

Lakin 1993-cü il avqustun 8-dəki qanlı savaş Füzulidə ağır yaralanaraq müalicədən sonra yenidən erməni quldurları ilə qarşı-qarşıya dayanan Sədaqətin son döyüşü oldu. O, vəsiyyətinə uyğun Bakıdakı Şəhidlər xiyabanında torpağa tapşırıldı. Vətəni azad görmək arzusu isə 27 ildən sonra reallaşdı.

*Qurban MƏMMƏDOV*

## Kimliyi 31 ildən sonra müəyyənləşən şəhidin məzarı abadlaşdırılıb



**Kimliyi 31 ildən sonra müəyyən olunan şəhid Hafiz Qədim oğlu Məmmədovun Gəncə Şəhidlər xiyabanında yerləşən məzarı abadlaşdırılaraq ailəsinə təqdim edilib.**

Bununla bağlı keçirilən mərasimdə şəhidin doğmaları ilə yanaşı, Gəncə şəhəri və Kəlbəcər rayonunun rəhbər şəxsləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, H.Məmmədov 1971-ci il aprelin 19-da Kəlbəcər şəhərində anadan olub. O, 1993-cü ildə könüllü olaraq Vətənin müdafiəsinə qalxıb və döyüşlərdə iştirak edib. 1993-cü ilin aprelində Murovdağ yüksəkliyi uğrunda gedən döyüşlərdə itkin düşüb.

Hafiz Qədim oğlu Məmmədov naməlum şəhid kimi Gəncə şəhər Şəhidlər xiyabanında dəfn olunmuşdu.

## "Qafqaz Qartalı - 2024" birgə təlimi başa çatıb

**Təsdiq olunan plana əsasən, Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə ölkəmizdə keçirilən "Qafqaz Qartalı - 2024" taktiki-xüsusi təlimi başa çatıb.**

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, hər üç ölkənin xüsusi təyinatlıları təlim zamanı aviasiya vasitələrinin dəstəyi ilə qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

"Qafqaz Qartalı - 2024" təlimində hərbi qulluqçular yüksək peşəkarlıq nümayiş etdiriblər.



**Vətən üçün doğulanlar**

## "Gözüm arxasınca baxa-baxa qaldı"

**Deyirdin, bu dəqiqə göz yaşında boğulacaq. Əlindəki şəkli bərk-bərk sinəsinə sıxır, arabir üzünə yaxınlaşdırıb sanki oğlunun qoxusunu ürəyinə çəkirdi. "Müharibə başladığını eşidən kimi dedi ki, döyüşə gedirəm. Nə qədər çalışdımsa fikirindən daşındıra bilmədim. Gözüm arxasınca baxa-baxa qaldı..."**



Qızqayıt xanım sözünün ardını gətirə bilmədi. Sözlər sankı boğazında düyünlənib qalmış, fikri onu çəkib uzaqlara aparmışdı: "Səfa ilk övladımız idi. Böyük-kiçik yeri bilən, vətənpərvər, sayılıb-seçilən, sakit, gülərüz idi. Orta məktəbdə oxuyanda fəallığı ilə seçilirdi. Tədbirlərə təşkilatçılıq edər, yoldaşlarından fərqlənməyə çalışardı. Dostcanlı idi. Kimsə deyə bilməz ki, Səfa ilə bir dəfə sözüm çəp gəlib, mübahisəm olub. Deyirlər ki, balam cəbhədə də bu ürəyi ilə mərd-mərdanə vuruşub. Son nəfəsinə kimi döyüş yoldaşları ilə çiyin-çiyinə düşmənlə savaşıb".

Haqqında söhbət açdığımız şəhid Səfa İsazadə 1999-cu il mayın 17-də Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. 2017-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib. Səfa hərbi xidmətdə olan vaxtlarında nümunəvi əsgər kimi komandirlərinin və əsgər yoldaşlarının dərin hörmətini qazanıb, xidmət etdiyi hərbi hissənin komandirləri tərəfindən fəxri fərmanlarla mükafatlandırılıb, Vətən üçün layiqli oğul böyütdükləri üçün valideynlərinə təşəkkürnamələr göndərilib.

İkinci Qarabağ müharibəsinin başlandığını eşidən Səfa sentyabrın 29-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək müharibəyə getmək istədiyini bildirir. Torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda könüllü olaraq savaşa qoşulan gənc Talış kəndinin azad olunması uğrunda əməliyyatlarda iştirak edir. Oktyabrın 14-də isə Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə şəhid olur.

Qızqayıt xanım o günü belə xatırlayır:

- Oktyabrın 19-da gördüm ki, insanlar sel kimi axışıb bizə gəlir. Həyətimiz, yollar insanlarla dolmuşdu. Bir qədər sonra oğlumun müqəddəs bayrağımıza bükülmüş cənazəsini aldım. Səfa indi Xaçmaz kəndinin Şəhidlər xiyabanında uyuyur. Bilirəm ki, ruhu rahatdır. Canını qurban verib aldığı Talış kəndində illərdən sonra insanlar yurd salıb yaşayır. Azad olunmuş torpaqlarımız gülüstana dönür. Oğlumu heç kim müharibəyə getməyə məcbur etməmişdir. Könüllü getmişdi. Bilirdi ki, müharibəyə gedən qazi də ola bilər, şəhid də. Şəhidlərimizə baxıram, hamısı seçilmiş balalardır. Necə də qeyrətli oğullarımız varmış. 30 il düşmənin möhkəmləndiyi torpaqları 44 günə azad etdilər. Onlarla necə fəxr etməyəsən axı? İnanıram ki, balam cənnətdədir. Bu, mənim tək təsəlli yerimdir. Ayrılıq dərdi məni yandırsa da, oğlumla, canını vətənə qurban verən bütün şəhidlərimizlə fəxr edirəm.

Səfa İsazadə hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 mart (Cümə günü) tarixli 131-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 4 cəmadiyəlaxir sənə 1337.
7 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşları Müdiriyyəti, müdiriyyətin baş rejissoru səhnə xadimi məşhur artist **Hüseyn Ərəblinskinin** bədəfkar [cani] əlində vəhşiyanə qətl olunduğunu kamalihüzn və təhəssürlə xəbər verir.

Cənazəsi bu gün saat 10-da Serkovnı küçədə 6-ncı tupikdə [dalanda] özünün 1-inci nömrəli evindən qaldırılıb Təzəpir məscidinə aparılacaqdır.

*T-58*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Türkmüsəlman mühərrirləri sevgili və məşhur səhnə və ədəbiyyat xadimi **Hüseyn Ərəblinskinin** fəcianə [faciəvi] bir surətdə qətl edildiyini böyük hüzn və təhəssürlə elam edirlər [bildirirlər].

Mərhumun cənazəsi bu gün martın 7-sində Tserkovnı küçədə 6-ncı dalan 1 nömrəli evdən qaldırılıb Təzəpir məscidinə aparılacaq.

*b*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsi artıq yə's və təhəssürlə Türk-Azərbaycan səhnəsinin xadimi, böyük sənətkar **Hüseyn Ərəblinskinin** qətl edildiyini xəbər verir.

Mərhumun cənazəsi martın 7-sində saat 10-da Tserkovnı küçədən 6-ncı tupik 1 nömrəli evdən Təzəpir məscidinə aparılacaqdır.

*T-58*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Hacıbəyli Qardaşlarının Müdiriyyətinin ümum artistləri sevgili yoldaşları məşhur artist **Hüseyn Xələfov Ərəblinskinin** bədəfkar tərəfindən vəhşiyanə bir surətdə qətl olunduğunu kamali-hüzn və təhəssürlə xəbər verir. Cənazəsi bu gün saat 10-da Serkovnı küçədə 6-ncı tupikdə özünün 1-inci nömrəli evindən qaldırılıb Təzəpir məscidinə aparılacaqdır.

*T-55*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

"Azərbaycan" qəzetəsinin türk mürəttibləri müsəlman səhnəsinin sevgili və məşhur artisti **Hüseyn Ərəblinskinin** canilər tərəfindən fəcianə bir surətdə qətl edildiyini böyük yə's və təhəssürlə elan edirlər. Mərhumun cənazəsi bu gün saat 10 tamamda Tserkovnı küçədə 6-ncı dalan 1 nömrəli evdən qaldırılıb Təzəpir məscidinə aparılacaqdır.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bakı Müsəlman Aktyorları İttifaqı İdarə üzvü sevgili və məşhur artist-rejissor **Hüseyn Ərəblinskinin** martın 5-inci gecəsi fəcianə bir surətdə canilər tərəfindən qətl edildiyini kamali-hüzn və təhəssürlə hamı səhnə və sənayeyi-nəfisə [incəsənət] xadimlərinə xəbər verir.

Mərhumun cənazəsi bu gün cümə günü səhər saat 10-da Tserkovnı küçədə 6-ncı dalan birinci nömrəli öz evindən qaldırılıb Təzəpir məscidinə aparılacaqdır.

*T-56*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**Hərbiyyə nazirinin nitqi**

Azərbaycan ordusu təşkilatı haqqındakı qanun layihəsi müzakirə edilərkən Hərbiyyə naziri general **Səməd bəy Mehmandarov** şiddətli və sürəkli alqışlar içində kürsiyi-xitabətə [xitabət kürsüsünə] çıxaraq şu nitqi irad edir [söyləyir]:

Mən qabaqca Parlamandan üzr istəməliyəm ki, rusca danışacağam. Çox utanıram ki, öz dilimi Məclisi-Məbusanda danışmaq qədər bilmədiyimdən rusca söyləməyə məcburam. Bu gün sizə təqdim olunan heyət və maaş miqdarı ən vacib olan əqsamdan [qisimlərdən] tərtib verilmişdir. Bunu müzakirə edərkən şu ərz olunan mülahizələri də nəzərdə tutmalıdır ki:

1. Cəbhədə bulunmuş bütün zabitan [zabitlər] ordu tərəfindən onlara verilmiş əşya, yer və başqa ləvazimati-hərbiyyə [hərbi sursat] deyil, kəndi əşyalarını dəxi tamamən qeyb etmişlər. Bu qisim şeyləri yenidən düzəltmək üçün bir manatlıq bir nəsnəyə otuzdan yüz manata qədər pul verməlidir.

2. Hamıya ağır bir təsir edən bahalıq ziyadəsincə zabitana sui təsir etməkdədir. Ailələrindən uzaq düşüb, kənd və kəsəklərdə yaşamağa məcbur olan zabitan iki ev məsarifi təəyyüş [iki evi dolandırmaq] məcburiyyətindədirlər.

3. Əsgərə təlim və ölümə kimi varmağa hazırlıq tərbiyəsi üçün dəvət olunmuş zabitan, əsgər nəzərində sahibi-nüfuz və şərəf olmalıdır. Bunun üçün zabitan yalnız irq cəhətincə deyil, zahirən dəxi əsgərə hüsn-təsirbəxş olmalıdır. Onun əlbəsəsi [geyimi] daima təmiz və faxir [gözəl, fəxr edilməyə layiq] olması vacibdir. Zabitan əlbəsəsi üçün nə qədər bahalı şeylər gərək olduğu hamının məlumudur.

4. Azərbaycanın iqtidarlı və təcrübəli zabitana ehtiyacı ziyadədir. Müstəqil yaşayan millət ordusuna rus ordusunda məmuriyyətdə bulunmuş yabançı millətlərdən zabitan dəvəti məcburiyyətindəyiz. Bu xüsusda olduqca diqqətli intixab [seçim] lazımdır.

Baş əsgərlərin ədəmi-mövcudiyyətini [olmamasını] və əsgərlik tərbiyəsi görməmiş əhalidən əsgər toplanmasını nəzərə alarsaq, yeni ordu təşkilatı üçün ən təcrübəli və iqtidarlı zabitan lüzumiyyəti icab edir və bu növ iqtidarlı və təcrübəli zabitan üçün hər bir hökumət dairəsində artıq maaşla məmuriyyət mümkün olduğu üçün bunları hərbiyyə məmuriyyətinə gətirmək və gətirib də saxlamaq üçün artıcaq maaşla maraqlandırmaq vacib olacaq.

5. Əski müsəlman [ordusunun] ərkani-hərbiyyə[si] [qərargahı] tərəfindən əski qərar üzrə zabitana beş aydan bəri verilən maaş sentyabr ayında artıq görünürdüsə də, hal-hazırda zabitin zəruri ehtiyacatını güclə təmin edə bilir. Xırda zabitan üçün isə heç bir vəch ilə bu maaş kafi olammaz. Hal-hazırda qiymətlərin anbaan təzayüd etdiyindən [artdığından], bu yaxın vaxtda maaşların azalması deyil, bəlkə artması məsələsinin qalxması möhtəməldir [ehtimal olunur].

6. Maaş alanlara maaşın azlığı daima sui təsir etməkdədir və şübhə yox ki, keçirdiyimiz vəziyyət nəticəsində olan əhalinin haləti-tərəddüdü [qeyri-sabit vəziyyəti] və qarışığı dəxi az maaş alanların fəaliyyətinə dəxi sui təsir edəcək.

7. Zabitanın fəaliyyəti hərb zamanında deyil, təbii halda dəxi ağır bir vəziyyət içərisində keçir. Əksər övqat [çox vaxt] nasalim məhəllərdə [təhlükəli yerlərdə], bəzən (manevra zamanları) açıq havada, qar və yağmura baxmayaraq bəzən ac və susuz yaşamağa məcbur olan zabitan, vətən üçün afiyətləri[ni] [sağlamlığını] deyil, canlarını belə qurban edir. Bu da yalnız əsnayi-hərbdə [müharibə vaxtı] deyil, əksərən təbii bir zamanda dəxi böylədir. Şimdiki halda əhalinin həyəcanına səbəb olan əsassız şayiələr nəticəsində əksər övqat düçari-bəla olanlar zabitandır. Xəta onların həyati-bəşəriyyəsinə olmasa da, onların sərbəst dolanmasına olur.

Fövqdəki [yuxarıdakı] təsəvvürləri nəzərə alıb ərkani-hərbiyyə tərəfindən qərara alınmış maaşların bu bəyannaməyə əlavə olunmuş layihə üzrə göstərilən təbəddülatı [dəyişikliyi] nəzərə almaq şərti ilə baqi olmasına [saxlanmasına] hökumətdən müsaidə istəməlidir.

*İmza: Komisyon sədri*
*general-leytenant Şıxlinski.*
*Üzvlər: general-mayor Qacar,*
*general-mayor Tlexas,*
*miralay [polkovnik] Məmməd Mirzə [Qacar],*
*miralay Ağalarov,*
*minbaşı Vəkilov.*
*Komisyonda iştirak edənlər:*
*miralay Səlimov, miralay*
*Serebrenikov, ərkani-hərb*
*[qərargah] rəisi Səlimov.*

**Ərz-hal**

Təqdim olunan maaşlar sıralarının [siyahılarının] layihəsi komisyon tərəfindən ay yarım bundan qabaq tərtib olunmuşdu və o zaman hər bir zabitin ehtiyacatını və bir nəfər tayınını (payok) nəzərə alarsaq, təmin edərdi. Halbuki həyat irəliləyir və qiymətlər gündən-günə artır. Gəncədə dekabrda mal ətinin girvənkəsi [4 manat] olduğu halda şimdi 6 manata getməsini söylər isək, kifayət edər. Ehtimal var ki, ət qiyməti daha da təzayüd edər [artar].

Komisyon tərəfindən qərara alınmış maaşlar maəqəllidir [ən aşağısıdır]. Hal-hazırda maaşla təəyyüş edənlərə [maaşla dolananlara] bir nəfər tayını verilərsə, o halda verilən maaş onları bir növ təmin edə bilər. Böylə olmazsa şübhə yox, az bir zamandan sonra maaşların təzayüdü [artması] barəsində təkrarən vəsatət qaldırılıb rica olunacaq. Bununla bərabər biz genə də əmin deyiliz ki, irəlidə maaşların artmasına ehtiyac olmayacaq. Hərgah vəziyyət öylə dəyişərsə və iaşə qiymətləri xeyli düşərsə, ol vaxt əvvəl bir nəfər tayını ləğv olunar, sonraları isə maaşların azalması barəsində təşəbbüsə girilər.

*General Mehmandarov*

Həzərat, maaş layihəsi smetanı və bu surətlə də büdcənin bir qismini təşkil edir. Parlamanın bir Nəzarətə [Nazirliyə] qarşı müvafiqət edici ya müvafiqət etməyən [uyğun görən yaxud uyğun görməyən] vəziyyətdə bulunması, xüsusən smeta müzakirə olunan zaman tamamilə in'ikas edər [özünü büruzə verər]. Binaənileyh [ona görə], mən Hərbiyyə Nəzarətinin fəaliyyəti və əsgəri işlər haqqında bir qədər məlumat verməyi lazım bilirəm.

Əlbəttə heç kəs inkar etməz ki, türklər bizim millətimizə nicat verməklə bizə böyük xidmət etmişlərdir. Amma burası, onların hərəkətini tənqid etməyimizə də mane olammaz. Hərbiyyə Nəzarəti Gəncəyə köçənədək bizə xəbər verilirdi ki, əsgər işlərimiz yaxşıdır, əsgər yaxşı və çoxlu yığılır, lazım olan kimi məşq verilir və ilx. Mən Gəncəyə böylə gözəl ümidlə getdim. Hər yeri gəzdim, qitəati-əsgəriyyəmizə [hərbi hissələrimizə] baxdım, fəqət iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşgün bir halda, yeməkləri pis, mənzilləri fəna bir halda, yorğan-döşək yox, atların çoxu xəstə idi. Xəstə əsgərlərin həpsini sağlamlarına dəyişməyə məcbur olduq. Qoşun yığmaq işləri yaxşı getmirdi. Rəislər, mövqif [stansiya] komandanları öz vəziyyətlərindən sui-istifadə edirlərdi. Çox vaxt bir külfətin yeganə çörək gətirənini əsgər alırdılar. Bu iş də camaatı narazı salıb, qoşun yığmaqdan nifrətləndirirdi. Nuri paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəldikdə boynuna aldı ki, əsgərlik barəsində Azərbaycan fəna bir halda qoyulmuşdur. Məlumdur ki, Türkiyə komandanlığı başında duran adamları aldatmışlardı. Türklər gedərkən ordu üçün mənə bilmərrə libas verməmişlərdi. Ona görə mən əsgəri təşkilatla bərabər maddi cəhətdən çalışmalı idim. Nə ki mümkün idi etdim.

Amma türklər külli miqdarda ərzaq şeyləri qoyub getmişlərdir. Külli miqdarda taxıl, heyvan və sair məkulat [qida məhsulları] qalmışdır. Ona görə mən əmr etdim ki, əsgərlərə yarım girvənkə əvəzinə üç rüb [dörddə üç girvənkə] ət, girvənkə yarım çörək əvəzinə iki girvənkə bir rüb [2 ¼ girvənkə] çörək verilsin. Xörəkləri öz camaatımızın adət etdiyi kimi olub, onlara dolma, bozbaş və sairə versinlər. Həftədə bir dəfə plov verilsin. Bundan əlavə əmr etdim əsgərlərə gündə 6 misqal qənd, yarım misqal çay versinlər. Qızdırma, yatalaq və sairə kimi azar olan yerlərə əsgərlərə [çiy] su içməmək üçün 9 misqal qənd verilir.

Libas məsələsi daha da fəna idi. Gürcüstan Hərbiyyə nazirinə kağız yazdım ki, libas məsələsində mənə kömək etsin; mütəəssifanə [təəssüf ki], bir şey çıxmadı. İndi Gürcüstan Hökuməti nəzdində siyasi nümayəndəmiz Cəfərovun yanında pulumuz və adamlarımız var ki, parça alsınlar. Bundan əlavə Şuşada fabrikada yaxşı əsgəri libasa yarar parça toxunur. Həman fabrika ilə müqavilənamə bağlamışıq. Orada külli miqdarda yararlı parça əldə etdik. Bu surətlə yaxın zamanda bu məsələ də hüsn-həll olunacaqdır. Əlbəttə, möcüz[ə] göstərmək olmaz, amma nə ki mümkündür, edəcəyəm.

Hal-hazırda Hərbiyyə Nəzarəti, smetasının ancaq bir qismini təqdim etmişdir. Bütün smeta martda təqdim ediləcəkdir, çünki Ərzaq Nəzarəti anbarlarında olan şeylərin miqdarını təyin etmək lazımdır. Hərbiyyə Nəzarətinin təhti-idarəsində [tabeçiliyində] bu saat üç anbar var: Hacıqabulda, Gəncədə və Ağdamda. İndi hökumətin qərardadına görə Ərzaq Nəzarəti ixtiyarında olan sair anbarların da həpsi Hərbiyyə Nəzarətinə veriləcəkdir. Ona görə ərzaq mövcudunu tamamilə hesablamalıdır.

Mən ümdə diqqətimi əsgər yığmaq işlərinə verdim. Bu vaxtadək əsgər alınmalı olanların siyahısı tərtib verilməmişdi. Hər yerdə kasıblar əsgər alınırdılar. Heç yerdə qoşun içində bir dövlətli ya bəy, xan oğlu görmədim. Ona görə əmr etmişəm əsgər düşənlərin siyahısı tutulsun və bir surəti Hərbiyyə Nəzarətinə göndərilsin, tainki yığılanlara diqqət verək.

Əxzi-əsgər [hərbi çağırış idarəsi] rəisləri qəzaların həpsində yoxdur. Hal-hazırda əxzi-əsgər idarələri bu yerlərdə mövcuddur:

Gəncə və Qazax qəzalarında – 1; Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında – 1; Ərəş, Şəki və Zaqatalada – 1; Quba və Bakı – 1; Şamaxı və Göyçay – 1; Cavad və Lənkəranda – 1; və Bakı ilə mədən dairəsinə də biri təyin edilmişdir. Bu surətlə cümlətanı 7 əxzi-əsgər rəisimiz var. Qəza əxzi-əsgər idarəsi isə 11-dir. Şikayətlərə baxmaq üçün Azərbaycan əxzi-əsgər idarəsi təşkil edilməsi təhti-qərara alınmışdır. Hal-hazırda bu xüsusda Daxiliyyə Nəzarəti bir qanun layihəsi tərtib verir və yaxın zamanda Məclisi-Məbusana təqdim olunacaqdır.

Məlumunuzdur ki, Rusiyada hər yerdə birdən əsgər yığırdılar. Mən bu qaydanı dəyişmişəm. Biz qoşunu tədricən yığacağız və yığan zaman əxzi-əsgər rəisləri orada hazır olaraq düzlüyünə diqqət verəcəkdir. Əsgərlikdən ancaq bu adamlar azad ediləcəklərdir: müəllimlər (çünki məktəblər milliləşmişdir), dəmiryol məktəbi müəllimləri, maşinist, kaçiqar [ocaqçı], hökumət mətbəələrinin mürəttibləri və çay seyri-səfain xidmətçiləri [çay gəmilərində xidmət edənlər] (müqavilənamə vaxtları qurtaranədək).

Hal-hazırda 6 ilin əsgəri silah altına çağrılır. Amma güman edirəm ki, bu ilin axırında daha buna ehtiyac olmayacaqdır. Ancaq iki ilin, yəni 19 və 20 yaşında[kı]ları yığmaq kifayət edəcəkdir. Əsgərlikdən qaçmaq məsələsinə gəlincə, bu da denilən kimi olmayıb, o qədər də layiqi-əhəmiyyət deyildir. Hər yerdə mükəlləfiyyəti-əsgəriyyə [hərbi mükəlləfiyyət] tətbiq olunanda böylə şeylər olur. Məsələn, 1888 sənə mükəlləfiyyəti-əsgəriyyə qanunu ermənilərə və gürcülərə təşmil ediləndə [şamil olunanda] çox adam əsgərlikdən qaçırdı. Hələ indi də qaçan çoxdur. Bizdə də çox adam qaçırdı, fəqət əksilməlidir. Bu da tədriclə olar. Gəncədə son zamanlar bir adam qaçmamışdır. Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olmuşdur ki, əsgərlikdən qaçanı döyüb, sonra geri gətirmişlərdir. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtla heç kəs qaçmayacaqdır.

Qitəati-əsgəriyyə [hərbi hissələr] təşkili barəsində məni bağışlayın, əsgəri sirlər açıq danışılmazlar.

Bir qədər də Ağdam hadisatı [hadisələri] haqqında məlumat verməyi lazım bilirəm. Oraya getmiş heyəti-məbusanın məruzəsi olmasaydı, heç o qədər diqqət verməyə dəyməzdi. Bu məruzədə iş böyük təsvir edilmişdir. Əvvəlcə oraya Bərdədə bulunan qoşun ilə general S[üleyman] b[əy] Əfəndiyev göndərilmişdi. Sonra müfəssəl təhqiqat icra edilmişdi. Bu işlərin həpsi camaat arasında nalayiq adamların təbliğatından nəşət etmişdi [əmələ gəlmişdi]. Mən oraya gedərkən Parlaman rəisi doktor Ağayev Gəncəyə gəldi, orada əsgərimizə baxdı, hərçənd məşqdən sonra idi və əsgərlərimiz hazırlaşmamışlardı, fəqət doktor Ağayev bəyan etdi ki, qitəati-əsgəriyyəmiz hüsn-təsir bağışlamış və çox xoşuna getmişlərdir.

Təbib və xəstəxana işləri də fəna idi. Lakin indi bu da düzəlir. Təbiblər dəvət etmişik və xəstəxanalar yaxşı qayda ilə təşkil olunurlar.

Bir neçə söz də şəxsim ətrafında qaldırılmış səs-küy haqqında ərz edəcəyəm. Bu sözləri o ağalar danışırlar ki, qoymamışam Azərbaycan xəzinəsinə südlü inək və Hərbiyyə Nəzarətinə darüləcəzə kimi baxsınlar. Mən bəyan edirəm ki, bu vaxtadək olduğu kimi bundan sonra da tutduğum yol ilə gedəcəyəm və heç bir qüvvə məni bu yoldan çıxara bilməz. Hər kəs məndən sonra nazir olsa görər ki, nə qədər zəhmət çəkilmiş və nə işlər görülmüşdür. *(Şiddətli alqış)*

Hərbiyyə naziri həzrətləri axırda salondan çıxarkən yenə bütün məclis şiddətli və sürəkli alqışla onu təşyi edir [yola salır].

## HÖKUMƏTDƏN SONRA PARLAMAN ƏNGƏLLƏRİ

İkinci dəfədir ki, Məclisi-Məbusanda xamuşanlıqdır [səssizlikdir]. Səbəbi isə bəzi məbusların ehmalçılığı, qeydsizliyidir. Qanuna görə, məclisin iniqadı [baş tutması] o vaxt düzələ bilər ki, hərgah məbusların kvorum denilən müəyyən qədəri məclisdə hazır olmuş ola. Məclisin açılmağı üçün kvorum olmadığı halda məclis münəqid [baş tutmuş] olmaz. Təşrif gətirmiş məbusan da bica yerə bir qədər vaxt zaye edərək peşmancasına mənzillərinə qayıdarlar. Yəni bir neçə yoldaşın səhlənkarlığı, onların qiyabəti [yoxluğu] məmləkətin ən böyük bir müəssisəsinin ətalətinə, fəaliyyətsizliyinə bais olar. Bəzi övqat [bəzi vaxtlar] bir nəfər məbusun qiyabəti ilə məclis münəqid olmayır. Bir nəfərin təşrif gətirməsinə yüzlərcə toplanmış məbuslar müntəzir qalırlar. İş görmək istəyirlər, amma çifayda [təəssüf ki], axsaq yoldaş mane olur, məmləkətin makinəsini dayandırır.

Əlhaq [doğrudan da], bu bir səhlənkarlıq deyilmi ki, bir neçə nəfər məbusun keyfəmayəşası [özbaşınalığı] ilə məmləkətin böylə ağır və böhranlı günlərində onun Parlamanı atil [işsiz, hərəkətsiz] qalsın? Gürcüstan Parlamanının az bir vaxtda gördüyü işləri bizimkiləri iqaz etmədimi [yuxudan ayıltmadımı]? Yoxsa, bizim məbuslar haqlarını, vəzifələrini kamalınca düşünməmişlərdir? Bunları seçib Bakıya göndərmiş əhalinin məqsədi bundan ibarət deyilmidir ki, məbus əfəndilər əhalinin nümayəndəsi və tərəfdarı olaraq onun halına ağlasınlar, dərdlərinə çarə arasınlar?

Öylə məbuslarımız vardır ki, hələ indiyə qədər ağzını açıb əhalinin dərdindən bir kəlmə belə danışmamışdır. Nə eybi vardır? Natiqlik qabiliyyətini Allah hamıya qismət etməmişdir. Bunu biz də onlara irad tutmarıq. (Hər oxuyan Molla Pənah olmaz.) Lakin bunların borcu budur ki, hər müzakiratda bulunsunlar, iştirak etsinlər. Kənar bir işlə məşğul olaraq sair məbusların da işlərinə mane olmaq millət hüzurunda böyük bir məsuliyyətdir.

Əcəba, bunlar nə kimi işlərlə məşğul olurlar ki, bunların diqqətini Parlaman məşğuliyyəti cəlb edəmməyir? Məmurluq və ticarətlə məşğul ola bilməzlər. Zira yeni qanun hökmü ilə böylə məsələlər məbuslar üçün məmnudur [qadağandır]. Zənnimcə bu iki şeydən biri onları Parlamandan ayıra bilər: 1) xəstəlik; 2) isti mənzillərdə uzun-uzadı istirahətlə səhlənkarlıq. Birinci isə, şər'i [qanuni] və məqbul [qəbul edilən] bir üzrdür. İkincisinə gəldikdə isə, qoy bunun fitvasını da millət özü versin. Xəstəliklə mübtəla olmuş məbusların birinci vəzifələri rəsmi sənədat [sənədlər] ilə öz hallarından Divani-rəyasəti xəbərdar etməkdir, zənnindəyəm.

Tamam üç gün Məclisi-Məbusan hökumətin bəzi qüsuruna dair uzun-uzadı mübahisələr açdılar. Onu istefa verməyə də məcbur etdilər. Hökumətin istefaya məcburiyyəti ədalət üzrəmi vaqe oldu yaxud burada ayrı bir mənzur da mülahizə olundu [ayrı bir məqsəd də güdüldü]? Bunlarla işim yoxdur. Lakin, əsl məsələ buradadır ki, hökumətin ixtiyarı Parlaman əzası [üzvləri] əlindədir. Hökumət ricalı [adamları] qanundan kənar bir iş görərsə, Məclisi-Məbusan dərhal onları vəzifə başından düşürməyə haqlı olar. Yəni, əzayi-hökumət [hökumət üzvləri] Parlaman hüzurunda məsuldur. Parlaman ricalına gəldikdə, bunların da məsuliyyəti onları intixab etmiş [seçmiş] əhalinin əlindədir. İştə, məbuslarımızın fəaliyyəti, yaxud səhlənkarlığı mütləq əhali tərəfindən gərək təftiş olunsun. Müdam [daim] nəzərə alınsın, vəilla [yoxsa] hər kəs başlı-başına davranarsa, istədiyi vaxt məclisə gedər, istəmədiyi halda da isti rəxtxabdan [yorğan-döşəkdən] başını qavzayıb istirahətini pozmaz. Hökumətin qüsurunu axtaran Parlamanın özündə də gərək qüsur olmasın. Yoxsa hökumət qarşısında nüfuzunu və əhalinin də etimad və etibarını itirmiş olar.

Parlamana getməyən üzvlərin yoldaşları gərək qabaqca buna bir çarə yapsınlar. Böylə ki, məbusların hamısı "Müsavat", "İttihad", "Əhrar" kimi bir neçə firqəyə mənsubdurlar. Hər firqə özünə məxsus üzvlərin iniqadlarda [yığıncaqlarda] davamını tələb edə bilməyirlərmi? Zənnimcə, hər firqə öz əfradını [fərdlərini, üzvlərini] ciddi nəzarət altına alarsa, qiyabətlərin də ədədi mürurizamanla [vaxt ötdükcə] azalar. Bu da çarə etməsə, işi bilavasitə əhalinin özünə həvalə etməlidir.

Lakin yüz çağırımlarca uzaqda qalmış əhalinin məbuslarından, onların hərəkatından əsla xəbərləri yoxdur. Məbuslardan kim Bakıda nə iş görür, ümdə məşğuliyyəti nədən ibarətdir? Bunu avam camaatımız heç bilməyir. Lazımdır ki, ayda bir dəfə əhaliyə məlumat göndərilsin. Qoy camaat bilsin ki, bir ayın ərzində neçə kərə məclis iniqadı ittifaq düşmüşdür. Bunun neçəsi məbus tərəfindən buraxılmış və neçəsinə də gedilmişdir. Həmin bu məlumat əhaliyə göndərilməklə bərabər, məhəlli ceridələrdə [yerli qəzetlərdə] də dərc olunmalıdır. Ümidvaram ki, bu üsulun qəbulu ilə yevropalıların dediyi "absenteizm" fəqərəsi [hadisəsi] özü-özündən rədd olsun.

Bundan əlavə, bəzi məbuslarımız Parlamandan rüxsət alıb bir neçə həftəyə yerlərinə gedirlər. Burası maraqlıdır ki, görən mürəxxəs [seçilmiş, nümayəndə] məbuslar mahala gələrkən əhalisini Parlaman və hökumət işlərindən aşina qılırlarmı, siyasi cərəyanlardan məlumat verirlərmi? Buna dair qəzetələrdə indiyədək bir şey görünmədi. Hərgah, bu adət indiyə qədər icra olunmayırdısa, bundan sonra gərək icra olunsun. Divani-rəyasət bunu mürəxxəslərdən tələb etsin. Bakıya qayıtdıqları əsnada da əhalinin əhval və övzasına [vəziyyətinə] dair müfəssəl məlumat, nüfus təhriri [əhalinin sayı, siyahıya alınması] və sair zəruri siyasi və ictimai nəzəriyyat təqdim etsinlər.

İştə, məbusluq ondan ibarət deyil ki, məvacib alıb vəzifəyə kəmetinalıq ilə kamali-istirahətə məşğul olsunlar. Bir gün gələr, millət sizdən hesab istər. Hökuməti məsuliyyət altına almaq haqqınız vardır. Lakin özünüzün də millət hüzurunda məsul olduğunuzu düşünüb də böylə ağır günlərdə qəflət etməyiniz.

*Fərhad Ağazadə*

## BÖHRAN TEZ QURTARSIN

125 nömrəli "Azərbaycan" qəzetəsinin "Yeni böhran" sər məqaləsini [baş məqaləsini] oxuyub, bu acı xəbərdən xeyli mütəəssir olduq. Fətəli xan həzrətləri istefa verib zimamihökuməti [hökumətin cilovunu, idarəsini] özgə bir ələ ötürməyə qərar verdi. Əcəba bizim firqələrimiz və ya Məclisi-Məbusanda oturan ağalarımız və ya bizim Azərbaycan torpağının övladı olan atalarımız işbu istefaya nə nəzərlə baxırlar? Aya [görəsən], biz kasıbları firqəçilik bir rahi-nicata [xilas yoluna, qurtuluşa] çıxartdımı? Dəryanın dərin yerində fırtına qarşısında qalan gəmimizə fırtınadan nicat verdilərmi? Və ya biz kasıbların başı üstə yanan atəşə əlac olundumu? Və ya yenə biz kasıbların başına Mart hadisatını [hadisələrini] gətirmək xəyalındadırlar? Və ya yenə əlsiz-ayaqsız uşaqlarımızın əlindən tutub kəndlərə və ya İrana qaçmaq fikrinə düşüblər? Xeyr, xeyr. Bu acı xəbəri biz kasıblar eşidə bilmərik. Biz kasıblar bu ixtiyarı firqəçilərimizə verməmişik hər beş nəfərin ürəyi nə istəsə şunu etsin!

Firqə kasıb[ların] və camaatın fikrində olar və camaata xidmət edər. Aya bu xidmətdirmi ki, edirlər? Bir mülahizə edək görək, aya bu hökumət deyildi ki, çalışıb-çabalayıb bizi dəryanın kənarı görükməyən yerindən salamat keçirib, fırtınanın gündən-günə artıq olan zamanında bizə bir işıq yolu göstərdi? Əcəba, Paris məclisinə gedən vəkillərimizdən xatircəmlik xəbəri almışıqmı ki, böhranlar törədirik? Yeni vücuda gəlmiş olan Azərbaycan hökumətimizin Rəisi-vüzərası [Baş naziri] hər kim olsa, bir beş nəfər firqəçilərimizin ondan xoşu gəlməsə, ona bir acı və ya çirkin sözlə onu istefaya vadar edəcəkdirmi? Biz bir gözlə baxa bilmərik, gərək iki gözümüzü açaq, baxaq, fəryad edək. Bacarıqlı və iş bilən kişilərimizi iş başından düşməyə qoymayaq. Səsimizi ucaldaq. Bir ağızla deyək və rica edək ki, hər sözlə istefa etməsinlər. Məclisi-Məbusanımız razı olmasın ki, zimami-hökumət hər 5-10 gündə bir adam əlinə keçsin.

Əfəndilər, baxın qonşularımızda təzə təşkil olunmuş hökumətlərin rəislərinə nə cür hörmət olunur. Laməhalə [ən azından] biz də onlar gedən yol ilə gedək. Şimdi biz fəqir camaat təvəqqeyi-acizanə edirik ki, bu böhran uzaq çəkməsin. Tezliklə hökumət əmələ gəlsin və möhkəm iş bilən bir hökumət olsun ki, bundan sonra öylə olmasın ki, hər beş gündə təzə bir hökumət əmələ gəlsin.

*Kərbəlayi Balakərim Salamzadə*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 mart (Cümə günü) tarixli 131-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## TELEQRAF XƏBƏRLƏRİ

**Royter, 4 mart**

Hindistan işlərinə baxan nazir bəyan etmişdir ki, Əfqanıstandan gələn xəbərlər az olduğundan, əfqan əmirinin qətli barəsində müfəssəl və qəti məlumat yoxdur. Əmir Cəlalabadda dəfn edilmişdir. Orada əmirin qardaşı sərdar Nəsrulla özünü əmir elan etmişdir. Çünki məqtul əmirin böyük oğlu Əmanulla əmirlikdən imtina etmişdir. Amma Əfqanıstanın paytaxtı olan Kabil şəhəri yeni əmiri təsdiq etməmişdir. Kabildə məqtul [qətl edilmiş] əmirin üçüncü oğlu sərdar Əmanulla yaşayır. Son məlumata görə, Nəsrulla sərdar Əmanullaya tabe olmuşdur.

* Almaniya Hökuməti Düsseldorfu spartak qoşunlarından təmizləmişdir. Mərkəzi və cənubi Almaniyada siyasi tətil davam edir.

* Bonar Lou bəyan etmişdir ki, Londandan İrlandaya yeraltı dəmiryolu (tunel) layihəsi hazırlanır.

**Almaniyada iğtişaş**

Berlin - General Foş Almaniya Hökumətinə əmr vermişdir ki, qoşunlarını Düsseldorfa spartakların əleyhinə çevirsin. Külli qitəyə [çox sayda hərbi hissəyə] spartak hərəkatı sirayət eyləmişdir. Yalnız Essendə 3 min nəfər spartak vardır. Düssel dorfda spartakların miqdarı 15 minə çatır.

* Almaniyada iğtişaş gün-gündən artır. Eysnerin mərasimi-dəfnində vaqe olan nümayiş büsbütün bir üsyana dönmüşdür. Bunları sakit etmək üçün hökumət qoşunları göndərilmişdir.

* Vestfaliyada hökumət qoşunları ilə spartaklar arasında qanlı müharibə vaqe olmuşdur. Spartaklar vağzal və sonra şəhəri işğal etmişlərdir. Bütün işlər dayandırılmışdır. Münxendə hərəkat artır.

* Mərkəzi Almaniyada vaqe bütün mədənlərdə əmələlər [fəhlələr] tətilə başlamışlardır. Dəmiryol əmələləri Halledə dəhşətli tətil hazırlayırlar.

* "Forverts" qəzetəsi Münxendə böyük nümayiş olduğunu xəbər verir. Bu nümayişdə 150 min adam iştirak eyləmişdir. Bayraqlarda bu sözlər yazılmışdır: Yaşasın Rusiya Şura Cümhuriyyəti! Yaşasın şura üsulu!

## SÜLH ƏTRAFINDA

- Paris - Bu gün Müttəfiq dövlətlərin nümayəndələrinin Parisdə Xariciyyə Nəzarətində iclasları vaqe olmuşdur. İclas saat 3-dən 6-yadək davam eyləmişdir. İclas[da] Belçikaya və Romaniyaya aid məsələlər müzakirəsindən başqa, Ermənistan Cümhuriyyəti nümayəndəsi Aqaronyan və Poqos Nubar paşa Ermənistanın tələbnaməsini təqdim eyləmişdir. Gələn iclas pəncşənbə [cümə axşamı] günü.

- Tilzit, 25 fevral – "Tilziter çaytunq" "Tayms"ın zeylədki [aşağıdakı] bəyanatını elan edir:

Müttəfiqlər yeni mütarikə şəraitində [atəşkəs şərtlərində] işbu maddələrə razı olmuşlardır: Almaniya bilatəxir [dərhal] Müttəfiqlərə 16 kruvazör [kreyser], 42 müxrib [destroyer], 50 ədəd torpedo verməlidir. Bütün sualtı qayıqlar və bu qayıqlara mütəəlliq [məxsus] şeylər 15 gün müddətində məhv edilməlidir. Müavinətçi kruvazörlər tərk-silah etdiriləcəkdirlər.

**Müttəfiqlər və Rusiya**

Londonda müntəşir "Deyli nyus" qəzetəsi yazır:

Mütəffiqlərin Ali Hərbiyyə Şurası istəyir ki, yenidən Rusiya firqələrinə müraciətlə onları Sülh Konfransına dəvət eyləsin. Hərgah, bu dəfə Müttəfiqlərin təklifini firqələr rədd edərlərsə, o zaman Müttəfiqlər bir hərbi komissiya təşkil edərək Rusiyanı istila etmək üçün nə qədər qoşun lazım olduğunu təxmin edəcəkdir. Amerika bu komissiyada iştirak etməkdən imtina edir.

**Klemansonun yaralanması barəsində**

Lahey [Haaqa] - Parisdən ingilis qəzetələrinə xəbər verilir ki, Klemanso yaralanmasının istintaqından anlaşılmışdır ki, canilər Pişonu vurmaq istəyirmişlər. Bu münasibətlə təzədən səkkiz nəfər sosialist həbsə alınmışlar.

**Amerika qoşunlarının Murmandan dəvəti**

Vaşinqtondan verilən xəbərlərə nəzərən, Amerika Rəisicumhuru Vilson Murmanda [Murmanskda] olan Amerika qoşunlarının geri qayıtması barəsində əmr vermişdir.

* Berlin - Klemansoya suiqəsd edildikdən sonra Müttəfiqlər tezliklə sülh əhdnaməsini imzalamaq istəyirlər.

## DAĞISTANIN HALI

**Dağıstan siyasi nümayəndəsinin Azərbaycan Xariciyyə nazirinə notası**

Nazir həzrətləri! Bununla sizə məlum edirəm ki, Könüllü ordu ilə mənim hökumətim arasında olan müzakiratın [müzakirələrin] nəticəsiz olduğu, təqdim etdiyim sənədlərdən aşkardır.

Könüllü ordu, Şimali Qafqaziya millətləri və onların Parlamanı və Hökumətinin arzusunu nəzərə almayıb, dinc əhali əleyhinə hərəkati-hərbiyyədə davam etməklə Qroznı şəhərinə gəlib çatmışdır.

General Denikin tərəfindən Tersk Dağıstan qoşunları komandanı təyin edilən general Lyaxov Dağıstan Hökumətinə iş başından çəkilməyi və Dağıstan ordusunu buraxmağı təklif etmişdir. General Lyaxov bizim ittifaqımızı milliyyətlərə təqsim edib [ayırıb] milli nahiyələrə məmurlar təyin edilməsi üçün layihə düzəltmişdir. Hər bir rayona dağıstanlıların istiqlaliyyəti amalına düşmənliyi ilə məşhur olan əks-inqilabçı generallar namizəd edilmişlərdir. General Lyaxov buna iktifa [kifayət] etməyərək, Könüllü ordu heyətinə daxil olmaq üzrə təzə dəstələr təşkil edilməsi tələbindədir. Dağıstan millətləri şəxsiyyətlərinə edilən təcavüzdən ziyadəsi ilə narazıdırlar.

Dağıstan Hökuməti və Parlaman, Könüllü ordunun hər bir tələbatını rədd ilə Dağıstan Cümhuriyyətini hər bir vasitə ilə müdafiə etməyi hökumətə təklif etmişdir. Bundan əlavə, Zaqafqaziya cümhuriyyətlərindən, o cümlədən Dağıstanla qan bir olan qardaşımız Azərbaycandan müavinət [kömək] xahiş edilməsi təklifi dəxi edilmişdir.

Burasını da əlavə edirəm ki, Dağıstan Hökuməti indiyə qədər öz əlində olan qüvvətlərdən istifadə etməmişdir. Biləks [əksinə] camaat, ələlxüsus İnquşistan, çeçen və Dağıstan əhalisi arasında olan narazılığın qarşısını almağa çalışmışdır.

Mənim hökumətim 1918-inci sənəsi noyabrın 27-də general Tomsondan məktub almışdır. Bu məktubda Müttəfiqlər, Qafqaziya müqəddəratı Sülh Konfransında həll edilənə qədər Şimali Qafqaziyada Dağıstan Hökumətini etiraf etdiklərini [tanıdıqlarını] bildirmişdi. General Tomson şifahən dəxi demişdir ki, general Denikin Dağıstan Cümhuriyyəti daxilinə buraxılmayacaqdır. Könüllü ordu isə əhdşikənanə bir surətdə [xaincə] Dağıstan üzərinə hücum etmişdir.

Müttəfiq dövlət komandanlığı general Tomson şəxsində Könüllü ordu tərəfindən Dağıstan üzərinə edilən təcavüz münasibətilə müstəqim [birbaşa, birmənalı] cavab verməkdən imtina edir. Teymurxanşurada hökumətimiz nəzdində olan Müttəfiq dövlət heyəti Railson başda olmaq üzrə, bizim torpağımızı tərk edib Bakıya varid olmuşdur [getmişdir].

Biz bunları Dağıstan millətlərinin və Zaqafqaziya cümhuriyyətlərinin həyatı üzərində bir ölüm təhlikəsi əlaməti ədd [hesab] edirik. Bunları sizə xəbər verib, bu barədə təcili surətdə Hökumətinizi və Parlamanınızı xəbərdar etməyi xahiş edirəm. Bu ağır bir zamanda Dağıstan tayfaları Hökumətinizin və Parlamanınızın müavinətinə istinad edir.

*Kamali-ehtiramla:*
*Azərbaycan Cümhuriyyəti*
*nəzdində olan Dağıstan siyasi nümayəndəsi*
*Əlixan Kantemirov*

**Dağıstanlıların protestosu**

Dağıstan Hökumətinin siyasi nümayəndəsi Əlixan Kantemirov öz hökumətindən vəkalətnamə almışdır ki, Könüllü ordunun Dağıstan torpağını işğal etmək və Dağıstan Hökumətini yıxmaq istədiyinə qarşı Müttəfiqlər komandanlığına, İran dövlətinə, Zaqafqaziya cümhuriyyətlərinə protesto eyləsin. Böylə protesto Müttəfiq hökumətlərə və Sülh Konfransına dəxi göndəriləcəkdir.

**Gürcüstan Hökumətinin notası**

General Denikin tərəfindən Dağıstan Hökumətinə hökuməti buraxmaq təklifi münasibətilə Gürcüstan Hökuməti Müttəfiqlər komandanlığına müraciətlə dağıstanlılara hüsn-münasibətini izharla Dağıstan istiqlaliyyətinin bərpa olması üçün dağıstanlılarla müttəfiq olduğunu bildirmişdir.

## NƏZARƏTLƏRDƏ

**Dövləti Müfəttişlikdə**

Dövlət müfəttişi Ərzaq nazirinə müraciətlə təvəqqe etmişdir ki, Ərzaq Nəzarətinə məkulat [ərzaq] və zəruri şeylər vermələri haqqında fevralın 2-sində bağlanmış müqavilənamənin ləğvi xüsusunda: 1) Azov-Don Bankı Bakı şöbəsi namına [adına] göndərilmiş kağızın; 2) Məzkur [adı çəkilən] bank müdirinin vəkalətna-məsinin; və 3) İran və Vəsəti [Orta] Asiya Ticarət Şirkətinin ərzi-halının [ərizəsinin] surətlərini Dövlət Müfəttişliyinə göndərsin.

## AZƏRBAYCAN FƏHLƏLƏRİNİN BORCU

Şimaldan qara bulud kimi gələrək hazırda Dağıstan füqərayi-kasibəsi [proletariatı] üzərinə ildırım yağdırmaqda olan Könüllü ordunun bir qolunun da Azərbaycanın ürəyi olan Bakıda təşkil edilərək öz sinəmizdə, öz südümüzlə vətənimizə düşmən əmələ gətirilməsinə razı olmadığımız və bu məsələ ilə əlaqədar olaraq dava gəmilərinin də təslim və tərksilaha məcbur edilmələri siyasi firqələri bizdən küsdürmüşdür. Bu "demokratik firqələr" fəhlə konfransı çağıraraq ingilis komandanlığına 5 maddəlik bir tələbnamə verməyi və əgər ultimatum qəbul olunmasa, ümumi tətil elan etməyi təhti-qərara almışlardır.

Ümumi tətil:

Yəni bu tətilə o əmələ və fəhlələrdən iştirak edəcəklərmiş ki, "Dünya Denikinə dönsə, Azərbaycan qorxan deyil!" havasını oxuyurlar.

Bu tətilə o fəhlələr iştirak edəcəklərmiş ki, öz iclaslarında, mitinqlərində qərar verirlər ki, Azərbaycan Hökumətini və Məclisi-Məbusanını canlarından əziz tuturlar; var qüvvələri ilə müdafiə edəcəklər, hətta Azərbaycan yolunda lazım gəlsə, canlarından keçəcəklərdir.

Yəni bu tətildə Azərbaycan türk-müsəlman fəhlələri də iştirak edəcəklərmiş!

Əcəba doğrudurmu bu qərar? Doğrudanmı Azərbaycan türk-müsəlman fəhlələri də tətil edəcəklər?

Bizim fəhlələrimiz bu qərarın verilməsinə iştirak etməmişlərdir. İclasa güclə getdiyi kimi, iclasdan da nümayişkaranə bir surətdə çıxmışlardır. Müsəlman fəhlələri iclasa güclə girmişlərdir. Yəni bildirmişlərdir ki, Azərbaycan paytaxtında Azərbaycan hökumət və hürriyyətinə dəxli ola biləcək heç bir məsələ həll oluna bilməz ki, Azərbaycanın qeyrətli fəhlələri orada iştirak etməsinlər!

Sonra, iclasdan nümayişkaranə bir surətdə çıxmışlardır. Bununla da özgələrə sübut etmişlər ki, daha müsəlman fəhləsini "tovariş" sözü ilə aldatmaq olmaz. Onlar öz xeyir-şərlərini və dost-düşmənlərini tanımışlardır. Hər millətin özünün milli mənafeyi, milli ideyası, milli arzusu olan kimi, Azərbaycan fəhləsinin də öz hökuməti, öz vətəni və öz Məclisi-Məbusanı və bu surətlə də öz milli mənafeyi, milli arzusu və milli ideyası var.

Azərbaycan fəhləsi məvacib, istirahət, məişət məsələsində ümum millətlərin füqərayi-kasibəsilə yoldaş olmaqla bərabər, siyasi məsələdə ancaq və ancaq Azərbaycan siyasətinə tabedir. Ona görədir ki, bir cəllad Azərbaycan üzərinə qılınc çəkərsə bu fəhlə, bu zəhmətkeş kütlə qabarlı əlini, çirkli sinəsini qabağa verər: "Qoymaram!" deyər.

Keçən səfərki ümumi tətildən özgələrin damağında şirə qalıbdır. Onlar elə bilirlər ki, həmişə müsəlman fəhləsini aldada bilərlər. Bunlar elə bilirlər ki, yenə gedib "Tovariş, maaşımızın artırılması, məişətimizin yaxşılaşması üçün tətil ediriz" deyərək müsəlmanları tovlaya biləcəklər. Yox! İndi onların istədikləri məlumdur:

Konfransın tələbi budur:

1) Daxili işlərə müdaxilə edilməsin.
2) Bütün məhbuslar sorğu-sualsız buraxılsınlar.
3) Mərkəzi Kaspi donanmasının hesabı bilatəxir verilsin.
4) Bundan sonra heç kəs tutulmasın.
5) Rus dövlətinin əmvalı [malları] siyasi firqələr nümayəndələrindən mütəşəkkil [təşkil olunmuş] bir komisyona verilsin.

Azərbaycanlı qardaş, fəhlə yoldaş!

Bax gör, bu tələblərin içində heç iqtisada aid bir məsələ varmı?

Əlbəttə, yox.

Bunlar həp siyasi tələblərdir. Tətil də siyasi tətildir. İndi sən bilməlisən ki, bu tələb azərbaycanlı tələbi deyil.

Azərbaycan Hökumətinin, Azərbaycan istiqlalının mənfəəti budur ki, paytaxtımızda nadinc adam olmasın. Vətənimizdə sakitlik olsun. Tainki xalq başını aşağı salaraq kəsbi [işi, qazancı] ilə, fəhləliyi ilə məşğul olsun!

Azərbaycanın mənfəəti buradadır ki, hangi millətdən, hangi firqədən olur-olsun nadinc adamlar meydandan çəkilsinlər. Dinc, fərağat adamlar asudə yaşasınlar.

Fəqət tətilçilər nə deyirlər?

Qoy, fəhlə yoldaşlarımız özləri bilsinlər.

Ancaq bunu da bilsinlər ki, tətil olsa, əvvəla hamıdan ziyadə bizim mənafeyimizə qarşıdır. Saniyən [ikincisi] də bizim əleyhimizə də olmasa hər günün tətili bizim bünövrəmizə, kökümüzə balta çalmaqdadır. Əlbəttə, bunları bilən fəhlə heç vaxt özü istədiyi hökumətinin, vətəninin, millətinin kökünə balta çalmaz!

Konfransda fəhlələr öz mənfəətlərini bildiklərini isbat etdilər. İndi də isbat etməlidirlər ki, hər millət, hər firqə, hər sinif öz vətəni, öz milləti üçün mübarizə etdiyi kimi, Azərbaycan fəhləsi də öz Hökuməti, öz Parlamanı, öz vətəni və öz mənafeyi uğrunda mübarizə etməyi bacarır! O da öz mənafeyini özgəyə fəda etməz!

*Xəlil İbrahim*

## BAKI XƏBƏRLƏRİ

**Mütəallimlər iclası**

Cümə günü, martın 7-si, səhər saat 10-da Qafqaziya Müsəlman Mütəallimləri [Tələbələri] Mərkəzi Komitəsinin fövqəladə iclası təyin edilmişdir (Persidski küçə, nömrə 121).

Ümum təftiş komissiyası əza [üzv] və namizədləri də isbati-vücud [iştirak] etməlidirlər. Yoldaşlardan təvəqqe olunur vaxtında gəlsinlər.

**Ərəblinski**

Hüseyn Ərəblinskinin qətlini xəbər vermişik. Şənbə günü təfsilatını məlum edəcəyiz.

**Dağıstan Hökuməti nəzdində Azərbaycan nümayəndəsi**

Məşhur camaat xadimi və ədib Əbdürrəhim bəy Haqverdiyev cənabları Azərbaycan Hökuməti tərəfindən Dağıstan Cümhuriyyətində siyasi nümayəndə təyin edilərək Teymurxanşuraya əzimət etmişdir [yola düşmüşdür].

**Fəhlə Konfransı**

Dün Fəhlə Konfransının fövqəladə iclası vaqe olaraq, ingilis komandanlığına 5 maddəlik bir ultimatum verərək, qəbul olunmasa ümumi tətil elan etməyi təhti-qərara almışdır. Təfsilatı gələn nömrədə.

**Hadisat**

- Fevralın 28-də gecə Nijni Təzəpir küçəsində, 157 nömrəli evdə 14 yaşında İsmayıl Kərbəlayi Murad oğlu öldürülmüşdür. Təhqiqat davam edir.

- Həman gecə 6-cı Paralelni küçədə sükunət edən [yaşayan] Nənəxanım İbrahim qızı və onun oğlu 17 yaşında Qəni Hüseyn Əlibala oğlu öldürülmüşlərdir.

- Əvvəlinci Paralelni küçədə sükunət edən Matvey Maçalovun evindən naməlum bədəfkarlar [canilər] qıfılı sındırıb 45 kisə arpa və buğda oğurlamışlardır. Malın qiyməti 35 min manatdır.

- Fevralın 7-si, axşam 7-də Kranovodski küçədə kooperatif "Soyuz" cəmiyyətinin idarəsinə dörd nəfər naməlum bədəfkarlar daxil olub, öldürmək təhdidi ilə 63 min 44 manat pul qarət edib qaçmışlar.

- Ufa quberniyası əhli Nikolay Hinderen polisəyə məlum etmişdir ki, fevralın 26-sında, axşam saat 10-da, Kamenisti küçə ilə getdikdə üç nəfər naməlum bədəfkarlar ona hücum edib 800 manat pulunu, 500 manatlıq papağını və 900 manatlıq ayaqqabılarını alıb gizlənmişlərdir.

- Gimnaziçeski küçədə sükunət edən Osip Papanovun dükanından naməlum bədəfkarlar qıfılı sındırıb 20 min manatlıq mal qarət etmişlərdir. Təhqiqat davam edir.

## BAKI QUBERNİYASINDA

* Kürdəmir uçastoku pristavı Göyçay uyezd naçalnikinə [qəza rəisinə] məlum edir ki, Sığırlı kəndi yüzbaşısı bəratül-qövlündən [protokolundan] məlum olmuşdur ki, məzkur [adı çəkilən] kəndin əhli Əliqara Əziz oğlu neçə vaxt bundan əqdəm [qabaq] Şişəbəyim Şamil qızını ərə veribsə də, onun qövmü [qohumu] Dədəqulu razı olmamışdır. Məzkur Əli-qaranın adamları Şişəbəyimin razılığı ilə onu aparmaq istədiyi vaxt Dədəqulunun adamı Əlibalaxan Məhəmməd oğlu tüfəngdən güllə ataraq onu yaralamışdır. Yaralı iki saatdan sonra vəfat etmişdir. Qatil gizlənmişdir. Onu tövqif [həbs] etməkdən ötrü pristav tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

* Şamaxı uyezdi Mədrəsə uçastoku pristavı naçalnikə məlum etmişdir ki, 6 nəfər naməlum bədəfkarlar Saqiyan kəndi əhli Rüstəm Gülbəndyansın evinə hücum edib özünü, anasını, qardaşı arvadı Aşxananı və onun evində qonaq olan Babacanı, Qriqori Ağayanı, Sedrak Vaçiyansı öldürüb və Aram Gülbəndyansı da yaralamışlardır. Bədəfkarları tövqif etməkdən ötrü Şamaxı uyezd naçalniki tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir.

* Göyçay uyezdi Barquşeti uçastoku pristavı məlum edir ki, Qaziyan kəndinin əhilləri Məhəmmədbağır Əbdüləziz oğlu, Əli Abbas oğlu və İran rəiyyəti Kərbəlayi Məhəmməd, Kərbəlayi Əmir Əziz oğlu Qarabəyli kəndi əhli Nəsir Seyidşəkər oğlunun atını oğurlamışlardır.

## İDARƏDƏN CAVABLAR

**Məhzun oğlu əfəndiyə:** Müxbirlik arzunuz qəbuldur. Bir neçə məqalələrinizdən sonra idarə özü mövcud qaydalarımız üzrə şərtini təyin edər.

**Əfi əfəndiyə:** "Səyahət" namındakı məqalənizi bəzi "taktika" səbəblərindən dolayı çap edə bilmədik. Etmək mümkün olsaydı, bir para yerlərini pozub düzəltmək lazım gəlirdi. Halbuki üslub və ifadəniz o qədər xoşumuza gəldi ki, yazdıqlarınızı korlamaq istəmədik. Bu üsuli-ifadə ilə başqa şeylər dəxi yazsanız kamali-məmnuniyyətlə çap edərik.

**Fatma Kərbəlayi Hüseynağa qızı xanım əfəndiyə:** Kağızınızı öylə bir bisavad adama yazdırmışsınız ki, heç oxumaq mümkün deyildir. Bir nəfər savadlıya yazdırınız ki, mətləbiniz məlum olsun.

**Elan**

Gimnaziya müəllimi dərs verməyə pansiyona şagird qəbul edir. Adres: Suraxanski 113. Rzabəyov.

*5736*

**Axşam tamaşası**
**Təzə opera**

Azərbaycan Hökuməti Teatrosunda Zülfüqar bəy və
Üzeyir bəy Hacıbəyli Qardaşları müdiriyyəti tərəfindən
cümə günü cəmadiyəlaxir ayının
4-ündə martın 7-sində
1919-uncu sənəsi
*Müdiriyyətin dirijoru musiqişünas və bəstəkar*
*Müslüm bəy Maqomayev və məşhur artist Hüseynqulu*
*Sarablının şərəfinə (benefisinə)*
Müslüm bəyin təzə yazmış olduğu
**"Şah İsmayıl"**
operası birinci dəfə olaraq
mövqeyi-tamaşaya qoyulacaqdır.
6 pərdədə
Bəstəkarı Müslüm bəy Maqomayev,
sözləri Mirzə Qədir İsmayılovundur.
Bu tamaşada bir ildən ziyadə
səhnəmizdə iştirak etməyən
məşhur artistka Y. N. Olenskaya,
böyük xor və balet dəstəsi
iştirak edəcəkdir.
Biletlər teatrın kassasında
indidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Möhtərəm tamaşaçılardan
xahiş olunur ki, biletləri indidən
alsınlar ki, tamaşa günü bilet almaqda
müşkülata düşməsinlər.

*T-50 3-1*

**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**
Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru
"Fani və kompaniya", Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

*5702 6-4*

**Bakı Şəhər İstiqraz Cəmiyyəti**

Cəmiyyətin nizamnaməsinin 65-inci maddəsinə görə, bununla elan edir ki, cəmiyyətə üçillik nümayəndə intixab edilməkdən [seçilməkdən] ötrü cəmiyyətin müstəqrizləri [borcluları] iclasa dəvət olunur. 1-ci razryad [dərəcə] 11 aprel; 2-ci 12 aprel; 3-cü 13 aprel. Həmin 1919-cu ildə, saat 5-də cəmiyyətin idarəsinin binasında - Voront-sovski küçə, Eyvazovun evində, nömrə 18.

Qeyd: Cəmiyyətin nizamnaməsinin 68-inci maddəsinə görə iclasa gələnlərin miqdarına baxmayaraq, qanuni hesab olunur.

*T-50*

**Elan**

Bakı Şəhər İdarəsi bununla elan edir ki, martın 13-ündə saat 12-də "Xozyaystvennı rasparyaditelni" [Təsərrüfat-İdarəetmə] şöbəsinin dəftərxanasında şəhər evlərinin – hansı ki, biri Balaxanski və Budaqovski küçələrin küncündə nömrə 110 və ikincisi Balaxanski şosedə nömrə 169 – icarəyə (arendaya) vermək barəsində torq [hərrac] təyin olunur. Bəyannaməni yuxarıda zikr olunan şöbənin dəftərxanasında oxumaq olar.

*T-53*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov.

Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**"Müsavat" firqəsinin Bakı konfransı**

Bu gün saat 11-də, Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Bakı konfransı təyin olunmuşdur. Konfransa Bakı komitəsi əzaları [üzvləri], promıslalardakı [mədənlərdəki] şöbələrin heyəti-idarəsi və hər 25 müsavatçı əmələdən [fəhlədən] bir nümayəndə iştirak edəcək. Baxılacaq məsələlər:

1) Hazırkı zaman məsələləri;
2) Firqə təşkilatına aid məsələlər.

Konfrans Məclisi-Məbusan binası, "Müsavat" şöbəsində vaqe olacaqdır.

*T-57*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"Xəta onların həyati-bəşəriyyəsinə olmasa da, onların sərbəst dolanmasına olur.": bu cümlə belə başa düşülməlidir: "Onların (zabitlərin) həyatı olmasa da, dolanışığı təhlükə qarşısında qalır."

"…barəsində təkrarən vəsatət qaldırılıb…": qəzetdə "vəsatət" yerinə "vasitə" getmişdir.

"Şamaxı və Göyçay – 1": qəzetdə "Göyçay" yerinə "Göyçə" getmişdir.

"…müsəlmanlarda olan fitri nizam və ədəbə görə…": qəzetdə "olan" yerinə səhvən "onlar" getmişdir.

"…Hərbiyyə Nəzarətinə darüləcəzə kimi baxsınlar": "qocalar evi; əlillər evi" mənasına gələn "darüləcəzə" sözü burada "xeyriyyə təşkilatı" mənasındadır; Mehmandarov rusca nitqinin bu yerində "богоугодное заведение" ifadəsini işlətmişdir.

***Hökumətdən sonra Parlaman əngəlləri***

"absenteizm": seçkilərdə iştirakdan boyun qaçırmaq yaxud kollegial orqanların üzvlərinin iclaslarda iştirak etməməsi.

***Teleqraf xəbərləri***

"Hindistan işlərinə baxan nazir…": burada söhbət, 1917-1922-ci illərdə Britaniyanın Hindistan İşləri naziri olan Edvin Semuel Monteqyodan [Edwin Samuel Montagu] gedir.

"…əfqan əmirinin qətli barəsində…": söhbət 1901-1919-cu illərdə Əfqanıstan əmiri olan Həbibulla xandan gedir.

"...külli qitəyə...": qəzetdə "külli" yerinə "gələn" getmişdir.

"Spartak": 1916-1918-ci illərdə Almaniyada fəaliyyət göstərən marksist təşkilat Spartak İttifaqı nəzərdə tutulur.

"Halle": qəzetdə "Qalle" kimi getmişdir.

"Forverts" [Vorwärts]: Almaniya Sosial-Demokrat Partiyasının orqanı.

***Sülh ətrafında***

"Tilziter çaytunq" [Tilsiter Zeitung]: 1894-1914-cü illərdə Berlində nəşr edilmiş gündəlik qəzet.

# Təkliflər üçün Dəvət
# Mallar

## (Tək Zərfli Tender Prosesi)

**Ölkə:** Azərbaycan Respublikası
**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Layihənin adı:** Məşğulluğa Dəstək Layihəsi
**Müqavilə adı:** Quba Peşə Hazırlığı Mərkəzi (PHM) üçün ağır yük vasitələrinin istifadəsi təlim simulyatorunun satın alınması
**Kredit No.:** 9044-AZ
**TÜD No.:** AZ-MLSPP-428950-GO-RFB

1. Azərbaycan Respublikasının Hökuməti Dünya Bankından Məşğulluğa Dəstək Layihəsini həyata keçirilməsi məqsədilə kredit almış və bu kredit vəsaitinin bir hissəsini Peşə Hazırlığı Mərkəzi (PHM) üçün avadanlığın satın alınması əsasında bağlanacaq müqavilədən irəli gələn ödənişlərə ayırmaq niyyətindədir.

2. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi uyğun İddiaçılardan Azərbaycan Respublikasının Quba şəhəri DOST mərkəzində yerləşən Peşə Hazırlıq Mərkəzi üçün avadanlıqların çatdırılması, quraşdırılması, işə salınması və müvafiq işçi heyətinə təlimlərin keçirilməsi daxil 1 (bir) ədəd ağır yük vasitələrinin istifadəsi təlim simulyatorunun satın alınması ilə bağlı möhürlənmiş təkliflərini təqdim etməyə dəvət edir.

Çatdırılma və quraşdırma müddəti 5 ay, heyətə təlim keçirilməsi 1 ay hesabı ilə ümumilikdə müqavilə imzalandığı tarixdən 6 aya qədərdir.

3. Tender Dünya Bankının "İLM Borcalanları üçün Satınalma Qaydaları" 2016-cı il iyul, 2017-ci il noyabr, 2018-ci il avqust, 2020-ci il noyabr və 2023-cü il sentyabr aylarında qəbul olunmuş ("Satınalma Qaydaları") ilə müəyyən edilmiş bir Təkliflər üçün Dəvətnamə (TÜD) istifadə edilərək Yerli Rəqabətli Tender yolu ilə aparılacaq və Satınalma Qaydalarında müəyyən olunmuş bütün uyğun İddiaçılara açıqdır.

4. Maraqlı olan uyğun İddiaçılar əlavə məlumatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi, **fagan.asgarov@esp.az** (surəti **aybeniz.hajiyeva@esp.az**) ünvanlarından (Layihə Koordinatoru Fəqan Əsgərov adına) əldə edə bilər və tender sənədi ilə aşağıda göstərilən ünvanda iş günləri ərzində (09:00-18:00 saatlar arasında) tanış ola bilərlər.

5. Maraqlı olan iddiaçılar tender sənədlərinin ingilis dilindəki tam toplusunu aşağıda göstərilən ünvana məktub təqdim etməklə və geri qaytarılmayan 170 AZN və ya 100 ABŞ dolları ödəməklə əldə edə bilərlər. Ödəniş birbaşa depozit və ya Əmək və Əhalinin Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən Məşğulluğa Dəstək Layihəsi, Layihə İdarəetmə Qrupunun aşağıda göstərilən hesabına köçürmə yolu ilə keçirilə bilər. İddiaçının seçimi ilə tender sənədi ya iddiaçının nümayəndəsi tərəfindən aşağıda göstərilən ünvanda Layihə ofisindən alına bilər, ya da geri qaytarılmayan haqqı ödəmiş iddiaçılara e-poçt vasitəsilə PDF formatında göndəriləcək.

| ABŞ Dollar Hesabı | AZN Hesabı |
|---|---|
| Azerbaijan Republic Ministry of Labor and Social Protection of Population<br>Tax ID 1700093011<br>IBAN: AZ49IBAZ38190048409330186120<br>International Bank of Azerbaijan<br>Bank code (BIC): 805250<br>Corr acc: AZ03NABZ01350100000000002944<br>SWIFT: IBAZAZ2X | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>VÖEN 1700093011<br>IBAN: AZ93IBAZ38090029449330186120<br>Azərbaycan Beynəlxalq Bankı<br>Bank Kodu (BIC): 805250<br>M\H: AZ03NABZ01350100000000002944<br>SWIFT: IBAZAZ2X |

6. Təkliflər 18 iyul 2024-cü il Bakı vaxtı ilə 15:00-dan gec olmayaraq aşağıdakı ünvana göndərilməlidir. Təkliflərin elektron şəkildə təqdim edilməsinə icazə verilmir. Gecikmiş təkliflər qəbul olunmayacaqdır. Yalnız Satınalan təşkilata müraciət etmiş və rəsmi qeydiyyatdan keçmiş İddiaçıların təklifləri qəbul ediləcəkdir. Tender təklifləri İddiaçıların təyin edilmiş nümayəndələrinin və iştirak etmək istəyən hər kəsin iştirakı ilə aşağıdakı göstərilən ünvanda 18 iyul 2024-cü il Bakı vaxtı ilə 15:00-da publik şəkildə açılacaqdır.

7. Bütün Tender təklifləri 9000 ABŞ Dolları məbləğində Tender Təminatı ilə müşayiət olunmalıdır.

8. Borcalandan Müqavilənin Mükafatı Bildirişinin bir hissəsi kimi, tender sənədinə daxil edilmiş Benefisiar Mülkiyyətin Açıqlanması Formasından istifadə edərək, qalib tender iştirakçısının benefisiar mülkiyyəti haqqında məlumatı açıqlamasını tələb edən Satınalma Qaydalarına diqqət yetirilir.

9. Yuxarıda nəzərdə tutulan ünvan:

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi /**
**Məşğulluğa Dəstək Layihəsi**
**Fəqan Əsgərov, Layihə Koordinatoru**
**Nazim Hikmət küç. 27,**
**Rich Plaza, 1-ci giriş, 2-ci mərtəbə**
**AZ1100, Bakı, Azərbaycan**
**Tel: (99412) 5253449**
**E-mail: fagan.asgarov@esp.az; aybeniz.hajiyeva@esp.az**

# Request for Bids
# Goods

## (One-Envelope Bidding Process)

**Country:** The Republic of Azerbaijan
**Procuring Agency:** Ministry of Labour and Social Protection of Population
**Name of Project:** Employment Support Project
**Contract Title:** Procurement of Heavy-Duty Vehicle Operation training simulator for Guba Vocational Training Center (VTC)
**Loan No.:** 9044-AZ
**RFB Reference No.:** AZ-MLSPP-428950-GO-RFB

1. The Government of the Azerbaijan Republic has received financing from the World Bank toward the cost of the Employment Support Project and intends to apply part of the proceeds toward payments under the contract for procurement of equipment for Vocational Training Centers (VTC).

2. The Ministry of Labour and Social Protection of Population now invites sealed Bids from eligible Bidders for procurement of Heavy-Duty Vehicle Operation training simulator for Vocational Training Center under DOST Centre in Guba city, Azerbaijan including delivery, installation, launch of the equipment and provision of trainings to the relevant staff.

Delivery and installation period is 5 months, training of personnel 1 months totaling to 6 months from the contract signature date.

3. Bidding will be conducted through national competitive procurement using a Request for Bids (RFB) as specified in the World Bank's "Procurement Regulations for IPF Borrowers" July 2016, Revised November 2017, August 2018, November 2020 and September 2023 ("Procurement Regulations"), and is open to all eligible Bidders as defined in the Procurement Regulations.

4. Interested eligible Bidders may obtain further information from Ministry of Labor and Social Protection of Population / Employment Support Project, **fagan.asgarov@esp.az**, with copy to **aybeniz.hajiyeva@esp.az**, Attn: Fagan Asgarov, Project Coordinator and inspect the bidding document during office hours (09:00 am to 18:00 am) on the regular business days at the address given below.

5. The bidding document in English may be purchased by interested Bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 170 AZN or 100 USD. The method of payment will be direct deposit or wire transfer to the below account in favor of the Ministry of Labor and Social Protection of Population / Employment Support Project. The bidding document at the bidder's option, may be either collected by a bidder's representative from the Project office at the address below, or will be forwarded in PDF format by e-mail to those bidders who paid the nonrefundable fee.

| USD ACCOUNT | AZN ACCOUNT |
|---|---|
| Azerbaijan Republic Ministry of Labor and Social Protection of Population<br>Tax ID 1700093011<br>IBAN: AZ49IBAZ38190048409330186120<br>International Bank of Azerbaijan<br>Baku Branch<br>Bank code (BIC): 805250<br>Corr acc: AZ03NABZ01350100000000002944<br>SWIFT: IBAZAZ2X | Azerbaijan Republic Ministry of Labor and Social Protection of Population<br>Tax ID 1700093011<br>IBAN: AZ93IBAZ38090029449330186120<br>International Bank of Azerbaijan<br>Baku Branch<br>Bank code (BIC): 805250<br>Corr acc: AZ03NABZ01350100000000002944<br>SWIFT: IBAZAZ2X |

6. Bids must be delivered to the address below on or before July 18, 2024 at 15:00 pm (Baku time). Electronic Bidding will not be permitted. Late Bids will be rejected. Only the bids of Bidders applied to the Procuring Agency and officially registered will be accepted. Bids will be publicly opened in the presence of the Bidders' designated representatives and anyone who chooses to attend at the address below on July 18, 2024 at 15:00 pm (Baku time).

7. All Bids must be accompanied by a Bid Security of 9000 USD.

8. Attention is drawn to the Procurement Regulations requiring the Borrower to disclose information on the successful bidder's beneficial ownership, as part of the Contract Award Notice, using the Beneficial Ownership Disclosure Form as included in the bidding document.

9. The address(es) referred to above is (are):

**Ministry of Labor and Social Protection of Population / Employment Support Project**
**Mr. Fagan Asgarov, Project Coordinator**
**27, Nazim Hikmet str.,**
**Rich Plaza, 1st entrance, 2nd floor**
**AZ1100, Baku, Azerbaijan**
**Tel: (99412) 5253449**
**E-mail: fagan.asgarov@esp.az; aybeniz.hajiyeva@esp.az**

# Daşkəsəndə aztəminatlı ailələrə bayram sovqatları təqdim edilib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Daşkəsən rayonunda növbəti sosial yardım aksiyası dünya müsəlmanlarının birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı ərəfəsində təşkil edilib.**




Aksiya çərçivəsində rayonun Çovdar, Quşçu kəndi, eyniadlı qəsəbədə yaşayan aztəminatlı ailələr ziyarət edilib. Vətəndaşlara səhmdar cəmiyyətin adından bayram təbrikləri çatdırılıb, müxtəlif ərzaq məhsullarından ibarət sovqatlar təqdim edilib. Aksiya ümumilikdə 100 ailəni əhatə edib.

Qeyd edək ki, "AzerGold" QSC-nin Sosial Təsir və Məsuliyyət üzrə siyasəti çərçivəsində mütəmadi icra edilən bu tip aksiyaların məqsədi dövlət siyasətinin əsasını təşkil edən sosialyönümlü fəaliyyətə, ölkə əhalisinin rifah halını yaxşılaşdırması istiqamətində atılan addımlara töhfə verməkdir. Cəmiyyət fəaliyyəti göstərdiyi bölgədə yaşayan vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi üçün hər il müxtəlif növ layihələr, yeni sosial təşəbbüslər həyata keçirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Ülvi Quliyevə anası
**DİNA PƏNAHOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi DOST Agentliyinin İdarə Heyəti sədrinin müavini Azər Əliyevə atası
**ALLAHVERDİ ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Milli Məclisin Sədr müavini Adil Əliyevə qardaşı
**ALLAHVERDİ ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rəhbərliyi və professor-müəllim heyəti Qismət Xıdırova qızı
**ZÜLEYXANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Ülvi Quliyevə anası
**DİNA PƏNAHOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və xidmətin kollektivi Milli Məclisin Sədr müavini Adil Əliyevə qardaşı
**ALLAHVERDİ ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Paralimpiya Komitəsinin kollektivi Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü, Azərbaycan Karate-do Federasiyaları Assosiasiyasının prezidenti Ülvi Quliyevə anası
**DİNA PƏNAHOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Sədr müavini Adil Əliyevə və Azərbaycan Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyevə qardaşları
**ALLAHVERDİ ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən Cavanşir Yusifov Milli Məclisin deputat Ülvi Quliyevə anası
**DİNA ƏLİ QIZI PƏNAHOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülvi Quliyevə anası
**DİNA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ülvi Quliyevə anası
**DİNA PƏNAHOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Milli Məclisin deputatı Ülvi Quliyevə anası
**DİNA PƏNAHOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əjdər Cəfərov Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyevə qardaşı
**ALLAHVERDİ ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əjdər Cəfərov Milli Məclisin deputatı, parlamentin Gənclər və idman komitəsinin üzvü Ülvi Quliyevə anası
**DİNA PƏNAHOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru






www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4409
Sifariş 1284

Qiyməti 60 qəpik